

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA KİTABXANA QURUCULUĞU

**(Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunur)**

**Respublika Elmi Konfransının**

**MATERİALLARI**

**Bakı, 12 may 2023-cü il**

Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

Azərbaycan
Milli Kitabxanası

**Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş**

# “HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA KİTABXANA QURUCULUĞU”

**mövzusunda**

**Respublika Elmi Konfransının**

## MATERİALLARI

Bakı, 12 may 2023-cü il

*Azərbaycan Milli Kitabxanasının Elmi Şurasının*
*3 oktyabr 2023-cü il tarixli iclasının*
*qərarı ilə (pr. №2) çapa tövsiyə edilmişdir*

**Bakı-2024**

Redaksiyanın ünvanı:
Az1000, Bakı şəhəri, Xaqani küçəsi, 57.
Azərbaycan Milli Kitabxanası,
Email: contact@anl.az

**Redaksiya heyəti**

**Sədr:** **Kərim Tahirov,**
*Milli Kitabxananın direktoru, professor,*
*Əməkdar mədəniyyət işçisi*

**Sədr müavini:** **Ədibə İsmayılova,**
*Elmi işlər və kitabxana-informasiya xidməti üzrə direktor müavini,*
*tarix üzrə fəlsəfə doktoru, Əməkdar mədəniyyət işçisi*

**Üzvlər:** **Xəlil İsmayılov,**
*Tarix elmləri doktoru, professor, Əməkdar mədəniyyət işçisi*

**Ələmdar Cabbarlı,**
*BDU-nun İnformasiya və sənəd menecmenti*
*fakültəsinin dekanı, filologiya üzrə fəlsəfə doktoru, dosent*

**Nadir İsmayılov,**
*BDU-nun Sənəd menecmenti kafedrasının müdiri,*
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

**Aygün Koçak,**
*Azərbaycan Milli Kitabxanasının şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru*

Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş “Heydər Əliyev və Azərbaycanda kitabxana quruculuğu” mövzusunda Respublika Elmi Konfransının materialları: 12 may 2023-cü il /Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi; Azərbaycan Milli Kitabxanası; Red. hey. K.Tahirov [və b.]. – Bakı, 2024. – 104 s.

**© Azərbaycan Milli Kitabxanası, 2024**

**Kərim Məhəmməd oğlu Tahirov,**
*Azərbaycan Milli Kitabxanasının direktoru,*
*Əməkdar mədəniyyət işçisi, professor*
ktahirov@anl.az

# MÜSTƏQİL AZƏRBAYCANDA KİTABXANA QURUCULUĞUNUN BANİSİ

**Xülasə:** *Məqalədə mədəniyyətimizə, milli-mənəvi dəyərlərimizə, kitaba və kitabxanaya yüksək dəyər verən Ulu Öndərin rəhbərliyi ilə ölkədə bu sitiqamətdə həyata keçirilən mühüm işlərdən, həmçinin Ümummilli liderin 100 illik yubileyi ilə əlaqədar Milli Kitabxananın təşkil etdiyi tədbir və hazırladığı nəşrlərdən bəhs olunur.*

**Açar sözlər:** *Heydər Əliyev, mədəniyyət, kitabxana quruculuğu, Milli Kitabxana.*

Azərbaycan xalqının böyük oğlu, Ulu Öndər Heydər Əliyev bu gün böyük sürətlə inkişaf edən və çox qısa zaman ərzində dünyanın inkişaf etmiş ölkələri sırasına çıxan müasir Azərbaycanın yaradıcısı və memarı olmaqla dövlətimizin və ölkəmizin tarixinə öz adını əbədi olaraq həkk etmişdir. Heç də təsadüfi deyildir ki, bu gün biz Ulu Öndər Heydər Əliyevin adını Azərbaycan mədəniyyətinin hamisi və milli-mənəvi dəyərlərimizin təəssübkeşi kimi yad edirik.

Azərbaycançılıq ideyasını dövlət siyasəti səviyyəsinə qaldıran Ulu Öndərin rəhbərliyi ilə hələ ötən əsrin 70-80-ci illərində milli mədəniyyətimizin inkişafı istiqamətində ciddi addımlar atılmışdır. Böyük şəxsiyyət mədəniyyətimizin və ədəbiyyatımızın intibah dövrünü yaşamasına nail ola bilmişdir. Belə ki, həmin illərdə Azərbaycan mədəniyyətinin yüksək inkişaf səviyyəsinə çatmasında Qara Qarayev, maestro Niyazi, Rəşid Behbudov, Müslüm Maqomayev, Fikrət Əmirov, Tahir Salahov, Toğrul Nərimanbəyov, Arif Məlikov və digər dünya şöhrətli korifey sənətkarlarımızın yetişməsində Heydər Əliyevin böyük xidmətləri olmuşdur. Mədəniyyətimizin bütün istiqamətlərinin, o cümlədən kitabxana sahəsinin inkişafı və müstəqilliyin yaratdığı geniş imkanlar çərçivəsində təkmilləşməsi də Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Müstəqilliyimizin ilk illərində kitabxanaların normal yaşayıb fəaliyyət göstərməsi üçün normativ-hüquqi bazanın formalaşdırılması, genişmiqyaslı özəlləşdirmə proqramı çərçivəsində kitabxanaların binalarının zəbt olunması və qiymətli kitab fondlarının məhv olmaq təhlükəsindən xilas edilməsi kimi taleyüklü məsələlərin həllində Heydər Əliyevin xüsusi xidmətləri vardır.

XX əsrin 90-cı illərində “Kitabxana işi haqqında” Azərbaycan Respublikası Qanununun və bu qanuna müvafiq normativ-hüquqi aktların qəbul edilməsi məhz Heydər Əliyevin adı ilə bağlı olmuş və bilavasitə onun rəhbərliyi altında həyata keçirilmişdir. “Kitabxana işi haqqında” Azərbaycan Respublikası Qanununa kitabxanaların əmlakının, fondlarının və statusunun, xüsusilə onların sovet dövründə yerləşdikləri binalarının mühafizəsi məqsədilə bir sıra maddələrin daxil edilməsi məhz Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə kitaba və kitabxanaya böyük dəyər verən Ulu Öndər Heydər Əliyevin göstərişi və tövsiyələri əsasında həyata keçirilmişdir. Çox təəssüflər olsun ki, 1990-cı illərin əvvəllərindəki Milli Məclisdə bir sıra deletant və “millət vəkilləri”nin təkidi ilə həmin qanun layihəsində kitabxanaların əmlakının mühafizəsi məqsədilə nəzərdə tutulan maddələrin çıxarılmasına da nail olunmuşdu və qanunun qəbulundan dərhal sonra Bakıda və digər şəhər və rayonlarda mədəniyyət ocaqlarına, onların sovet dövründə “guya qanunsuz yerləşdikləri” binalarına hücumlar edilmişdi. Hətta bir sıra rayon kitabxanalarının qiymətli kitab fondlarını küçələrə tökmək xülyası ilə yaşayanlar da peyda olmuşdular. O vaxtlar qəbul olunan “Dövlət əmlakının özəlləşdirilməsi haqqında” qanunu əllərində şirma kimi tutanlar kitabxanalara, muzeylərə və digər mədəniyyət ocaqlarına hücumlara başlamışdılar. Belə təhlükəli anda 1998-ci ilin sonunda məhz Ulu Öndərin göstərişi ilə ayrıca özəlləşdirilməsi qadağan olunan obyektlərin siyahısı təsdiq olundu ki, bu obyektlərin də 85 faizini mədəniyyət müəssisələri təşkil edirdi. Ulu Öndərin bu çox ciddi fərmanı ilə mədəniyyət müəssisələrinin, xüsusilə də kitabxanaların “hərraca qoyulması”nın qarşısı alındı, qiymətli kitab fondlarının dağıdılması hallarına son qoyuldu. 1998-2000-ci illərdə Heydər Əliyevin ciddi tapşırığı ilə Nazirlər Kabineti Milli Kitabxananın və sahəvi elmi kitabxanaların, rayon və şəhər kitabxanalarının statusu və əsasnamələrinin təsdiqi, fondlarının uçotu və mühafizəsi haqqında qərarlar qəbul etdi. Bütün bunları mədəniyyətimizə, milli-mənəvi dəyərlərimizə, kitaba və kitabxanaya yüksək dəyər verən müdrik şəxsiyyət həyata keçirə bilərdi.

Azərbaycan kitabxanalarının flaqmanı, milli-mənəvi dəyərlərimizin etibarlı saxlanc yeri və tarixi yaddaşımız hesab olunan Milli Kitabxananın müasir dövrün tələblərinə uyğun inkişafı və yenidən qurulması işlərinin bünövrəsi də 1990-cı illərin ikinci yarısında Ulu Öndərin rəhbərliyi altında, bilavasitə onun iştirakilə həyata keçirilmişdir. Milli Kitabxananın Əsasnaməsinin təsdiqi, ona bütün fondlarının və əmlakının toxunulmazlığını təmin edən yüksək milli statusun müəyyənləşdirilməsi, binasının istifadəyə verildiyi 62 il ərzində ilk dəfə tam şəkildə yenidən qurulması layihəsinin reallaşdırılması, fondunun zənginləşdirilməsi məsələləri də bilavasitə Heydər Əliyevin şəxsi göstərişi və rəhbərliyi ilə həyata keçirilmişdir. 10 illik prezidentliyi dövründə 4 dəfə Milli

Kitabxanaya gəlişi ilə bu elm məbədinə bir yenilik, yeni bir ab-hava gətirən Ulu Öndər bu kitabxananı yüksək qiymətləndirərək demişdir: "Mədəniyyət mərkəzlərindən biri olan M.F.Axundov adına Kitabxanaya gəlmişik. Kitabxana xalq üçün, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, bilik, mənəviyyat və zəka mənbəyidir. Buna görə kitabxanaya daim hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən faktorlardan biridir. Mən vaxtilə də bu kitabxanaya dəfələrlə gəlmişəm. Ancaq bu gün bu kitabxananın astanasından keçərkən çox böyük hörmət və ehtiram hissi keçirirəm və kitabxanaya, burada çalışan insanlara, burada toplanan kitablara öz hörmətimi, ehtiramımı bildirmək istəyirəm". Bu dahiyanə fikirlər bu gün də kitaba, kitabxanaya, Milli Kitabxanaya və onun Azərbaycan mədəniyyətinin inkişafındakı danılmaz roluna ən yüksək qiymətdir. Bu qiymətli fikirləri yalnız kitaba, mütaliəyə, kitabxanaya yüksək dəyər verən dahi şəxsiyyət söyləyə bilərdi.

Müasir dövrdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Milli Kitabxananın fəaliyyətinin müasir dövrün, zamanın tələblərinə uyğun olaraq yenidən qurulması və daha da təkmilləşdirilməsi, kitabxana-informasiya xidmətinin tam avtomatlaşdırılması, innovasiyaların oxucuların informasiya təminatı proseslərinə tətbiqi və Azərbaycanın bütün dünyaya tanıdılması sahəsində görülən bütün işlərin təməlində də məhz Ulu Öndər Heydər Əliyevin ötən əsrin 90-cı illərində kitabxana işi sahəsində böyük uzaqgörənliklə həyata keçirdiyi inqilabi tədbirlər durur.

Ölkəmizin məlum pandemiya təhlükəsi ilə üz-üzə qaldığı, müəssisələrin fəaliyyətinin dayandırıldığı, insanların evdə qalaraq virus təhlükəsindən qorunmağa çalışdığı bir vaxtda Milli Kitabxana öz oxucularının yanında qalaraq onlayn formatda oxuculara kitabxana-informasiya xidmətini davam etdirir. Bütün bunlar məhz innovasiyaların və yeni iş üsullarının, müasir texnologiyaların kitabxana işinə müvəffəqiyyətlə tətbiqi nəticəsində mümkün olmuşdur. Bu müasir texnologiyaların Azərbaycan Milli Kitabxanasının fəaliyyətinə tətbiqinin ilk bünövrəsi də 1999-2000-ci illərdə məhz Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur. Bu dövrdə Ərazilərin Bərpası və İnkişafı Agentliyinin və Yaponiya Hökümətinin Azərbaycan hökümətinə çox böyük məbləğdə ayırdığı qrantların məhz Axundov adına Respublika Kitabxanasına verilməsinin təşəbbüskarı da Ulu Öndər Heydər Əliyev olmuşdur. Yeri gəlmişkən qeyd edim ki, 1999-cu ilin dekabrında həmin qrantların hansı təşkilatlara verilməsi barədə təkliflərin müzakirə olunduğu müşavirədə Ulu Öndərin həmin vaxtlarda Baş Nazirin müavini işləyən şəxsə xitabən dediyi bu sözlər indi də mənim xatirimdədir: "Siz Axundov kitabxanasını götürün, "Azərenerji" də, Bakı Şəhər İcra Hakimiyyəti də özləri pul taparlar!" Bu dahiyanə fikir hər şeyi həll etmiş oldu. Bax, bu idi dahi və müdrik şəxsiyyət

olan Heydər Əliyev dühası, onun kitab və kitabxana sevdasının yüksək nümunəsi!

Həmin dövrdə möhkəm təməli qoyulan, Ulu Öndərin gözəl ideyalarını və əməllərini böyük uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyevin qərarları və müdrik göstərişləri sayəsində gündən-günə inkişaf edən və modernləşən Milli Kitabxanamız pandemiya təhlükəsi ilə əlaqədar elan olunmuş ciddi karantin rejimi şəraitində daim öz oxucularının yanında olaraq onlara kitabxananın saytının "Elektron kataloq və elektron kitabxana" və "Onlayn xidmətlər" bölmələri vasitəsilə virtual rejimdə xidmət göstərməkdə davam edir. Bir ildən çox davam edən karantin dövründə Milli Kitabxana 3 milyondan artıq oxucuya onlayn rejimdə kitabların elektron çatdırılmasını həyata keçirmişdir.

Ulu Öndər Heydər Əliyevin müstəqillik dövründə Azərbaycanda kitabxana quruculuğunun inkişafına, xüsusilə Azərbaycan Milli Kitabxanasının fəaliyyətinin müasir dövrün tələblərinə uyğun yenidən qurulmasına, xidmət proseslərinin avtomatlaşdırılmasına və modernləşdirilməsinə verdiyi töhfələri, bu kitabxananın fəaliyyətinə və əməkdaşlarının əməyinə verdiyi yüksək qiyməti layiqincə dəyərləndirən Milli Kitabxananın kollektivi 2020-ci ildə kitabxananın foyesində xalqımızın böyük oğlunun adına layiq bir gözəl guşə yaratmışdır. Həmin guşədə Ulu Öndərin bir vaxtlar Milli Kitabxanaya gələrkən bu elm məbədinə öz şəxsi kitabxanasından bağışladığı 300 nüsxədən artıq kitab nümayiş olunur, bu guşə oxucularımızın və kitabxanamızın qonaqlarının ən çox müraciət etdikləri, həvəslə tanış olmaq istədikləri bir məkana çevrilmişdir.

Heydər Əliyev irsini və Azərbaycançılığı təbliğ etmək üçün qarşıda duran vəzifələrdən biri kitabxanaların fondunu Heydər Əliyev irsi və azərbaycançılıq haqqında ədəbiyyatla komplektləşdirməkdən və müvafiq soraq biblioqrafiya aparatını təşkil etməkdən ibarətdir. Kitabxanalarda Heydər Əliyev irsinin və azərbaycançılıq ideyasının təbliği Azərbaycanda dövlət səviyyəsində qeyd edilən bir sıra yubileylərlə əlamətdar olmuşdur. Belə yubileylər sırasında ən əlamətdar olanı - xalqımızın ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyidir. Ulu Öndərin 100 illik yubileyi ilə bağlı keçiriləcən tədbirlərin böyük bir hissəsi azərbaycançılıq ideyasının banisi ümummilli lider Heydər Əliyev irsinin təbliğinə həsr olunmuşdur. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyinin ölkə miqyasında layiqincə keçirilməsini təmin etmək məqsədilə cənab İlham Əliyev Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Sərəncam imzalamışdı.

Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar Milli Kitabxanada çoxsaylı tədbirlər həyata keçirilib. Fevralın 27-də Milli Kitabxanada Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatının Ulu Öndər Heydər

Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş “Biz Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin elmi-siyasi irsini öyrənirik” illik siyasi məktəbinin növbəti dərsi keçirilib. Görüşdə Ümummilli lider Heydər Əliyevin mədəniyyətə, kitab və kitabxanaya qayğısından bəhs edilib. Ulu Öndərin 1995-1997-ci illərdə Milli Kitabxananı 4 dəfə ziyarət etdiyi, ilk gəlişində bu kitabxanaya öz şəxsi kitabxanasından 300 nüsxəyə yaxın kitab hədiyyə etdiyi, eləcə də Milli Kitabxananın 2020-ci ildə başlatdığı “Qarabağa kitabla gedək” layihəsinin H.Əliyevin qoyduğu ənənənin davamı olduğu tədbir iştirakçılarının nəzərinə çatdırılıb. Martın 30-da Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Səbail Rayon İcra Hakimiyyəti və Milli Kitabxananın birgə təşkilatçılığı ilə Azərbaycan xalqının böyük oğlu, Ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş “Heydər Əliyev və Azərbaycançılıq məfkurəsi” mövzusunda Elmi konfrans keçirilib. Tədbir iştirakçıları öz çıxışlarında Heydər Əliyevin Azərbaycan mədəniyyətinin inkişafına və mədəni sərvətlərimizin mühafizə olunaraq gələcək nəsillərə çatdırılmasına böyük diqqət və qayğısından bəhs edərək bildirdilər ki, Ulu öndər daima bizim yaddaşlarımızda yaşayacaq.

Aprelin 20-də Azərbaycan Milli Kitabxanası ilə Uzaq Şərq Dövlət Elmi Kitabxanası arasında onlayn görüş keçirilib. Görüş Uzaq Şərq Dövlət Elmi Kitabxanasının Xabarovsk “Azərbaycanlılar Birliyi” ictimai təşkilatının təşəbbüsü ilə Azərbaycanın ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş “Гейдар Алиев – взгляд из России” (“Heydər Əliyev – Rusiyadan baxış”) kitabının təqdimat mərasimi ilə əlaqədar təşkil olunub. Onlayn görüş zamanı ümummili lider Heydər Əliyev haqqında sənədli film, ümummili liderin həyat yolu haqqında slayd, Baykal-Amur magistral xəttininin tikinisi zamanı çəkilmiş fotoları, Azərbaycan Milli Kitabxanasının əməkdaşları tərəfindən hazırlanmış Elektron məlumat bazası iştirakçıların nəzərinə çatdırılıb. Mayın 4-də Heydər Əliyev Mərkəzində Azərbaycan xalqının Ümummilli lideri, Ulu öndər Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin Milli Kitabxana ilə birgə nəşr etdiyi “Heydər Əliyev və Milli Kitabxana” kitabının təqdimat mərasimi keçirilib. Kitabda Ulu öndər Heydər Əliyevin Milli Kitabxanaya etdiyi bu 4 səfərindən, bu səfər zamanı kitab, kitabxana, mütaliə haqqında söylədiyi dahiyanə fikirlərdən, kitaba və kitabxanaçı əməyinə verdiyi yüksək dəyərdən bəhs olunur.Kitabda həmçinin respublikamız üçün çox çətin günlərdə Ulu ödər Heydər Əliyevin Azərbaycan Milli Kitabxanasının və bütövlükdə Azərbaycanda kitabxana işinin inkişafı istiqamətində atdığı addımlardan onun ideyalarının layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən, kitab və kitabxana işi

sahəsində H.Əliyevin 90-cı illərdə əsasını qoyduğu ənənələrinin bugünkü təntənəsindən söhbət açılır.

Milli Kitabxanada keçirilən kütləvi tədbirlər, sərgilər, mühazirələr, kitab təqdimatları ədəbiyyatın təbliğində mühüm rol oynayır. İl ərzində oxu zallarında, xarici ədəbiyyat və not nəşrləri və səsyazmaları şöbələrində mütəmadi olaraq yeni ədəbiyyat sərgiləri təşkil edilir. Milli Kitabxanada Ulu Öndərin 100 illik yubileyi ilə əlaqədar daimi kitab sərgisi açılmışdı.

Ümummilli lider, ulu öndər Heydər Əliyevin fəaliyyətini əks etdirən möhtəşəm "Müstəqilliyimiz əbədidir" kitabına olan böyük tələbatı və marağı nəzərə alaraq 2008 ci ildə Milli Kitabxana tərəfindən çoxcildliyin I-IX, 2010-cu ildə X-XXVIII cildlərinin köməkçi göstəriciləri tərtib edilmişdir. Milli Kitabxana bu təşəbbüsü davam etdirərək ulu öndərin 90 illik yubileyi münasibətilə çoxcildliyin XXIX-XXXXII cildlərinin də köməkçi göstəricisini (qeydlər, şəxsi adlar və coğrafi adlar) hazırlamışdır. Mütəxəssisləri məlumatlandırmaq məqsədilə "Qeydlər" bölməsində coğrafi və şəxsi adlar göstəricilərində gedən bir çox məfhumların izahlı açılışı verilmişdir. Habelə göstəricinin "Qeydlər" bölməsində adları verilən şəxslərin vəzifələri çoxcildliyin çap olunduğu dövrə uyğun göstərilmişdir. "Şəxsi adlar göstəricisi"ndə şəxslərin adları və soyadları, "Coğrafi adlar göstəricisi"ndə isə şəhər, ölkə, liman, çay, dəniz və s. coğrafi adlar əlifba ardıcıllığı ilə verilmiş, bütün cildlərdə olan bu məfhumlar bir kitabda toplanmış, ayrı-ayrı cildlərdə gedən materiallara isnadlar verilmişdir. Göstəricidən istifadəni asanlaşdırmaq məqsədilə çoxcildliyin cildləri qara hərflərlə göstərilmiş və onların qarşısında müvafiq səhifələr verilmişdir.

Yubiley münasibətilə Azərbaycan Milli Kitabxanasının əməkdaşları tərəfindən "Heydər Əliyev İli və kitabxanalar" adlı metodik vəsait hazırlanıb. Vəsaitdə Heydər Əliyevin həyatı və ictimai-siyasi fəaliyyəti, "Müstəqil Azərbaycanda kitabxana quruculuğunun banisi" adlı məqalə, kitabxanalarda Heydər Əliyev irsinin təbliği ilə əlaqədar tövsiyələr, "Əlavələr" bölməsində isə Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında", "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı Tədbirlər Planının təsdiq edilməsi haqqında" sərəncamları, "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı Tədbirlər Planı", həmçinin Ulu Öndərin kitab və kitabxana haqqında müdrik kəlamları, dünyanın və Azərbaycanın görkəmli elm, mədəniyyət və siyasi xadimlərinin Ümummilli lider haqqında söylədikləri fikirlər və s. məlumatlar verilib.

Mayın 10-da Milli Kitabxanada Azərbaycan xalqının Ümummilli lideri, Ulu öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü münasibətilə

tədbir və Azərbaycan Milli Kitabxanasının əməkdaşları tərəfindən hazırlanan "2023 – Heydər Əliyev ili" adlı ənənəvi kitab sərgisinin açılışı olub.

May ayının 12-də "Heydər Əliyev və Azərbaycanda kitabxana quruculuğu" adlı respublika elmi konfransı keçirilib. Konfransda kitabı mənəvi zənginliyin və elmlərə yiyələnməyin mühüm açarı hesab edən, Azərbaycanda kitabxana quruculuğunun inkişafına əvəzsiz töhfələr vermiş Ümummilli Liderlə bağlı məruzələr dinlənilmişdir.

Ulu Öndərin 100 illik yubileyi ilə əlaqədar Milli Kitabxanada "Heydər Əliyev: biblioqrafiya" kitabı və "Azərbaycan Milli Kitabxanasında Heydər Əliyev irsinin tədqiqi" adlı elmi-tədqiqat işi nəşrə hazırlanır.

Xalqımızın böyük oğlu, dahi azərbaycanlı, memarı olduğu müasir Azərbaycanın çiçəklənən və firavan yaşayan bir ölkəyə çevilməsini daim arzulayan, doğma Qarabağ torpaqlarının erməni işğalından azad olunacağına ürəkdən inanan Heydər Əliyevin bu gün ruhu şaddır, çünki onun işıqlı ideyalarını və əməllərini çox böyük uğurla davam etdirən layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev xalqın böyük oğlu və xilaskarı Heydər Əliyevin ən böyük arzusunu və müqəddəs vəsiyyətini, eləcə də 44 günlük Vətən müharibəsində tarixi zəfər çalaraq həm atası, həm də canından çox sevdiyi vətəni qarşısında öz oğulluq borcunu şərəflə yerinə yetirmişdir.

Əgər XX əsrin sonlarında Ulu Öndər Heydər Əliyevi Ulu Tanrı Azərbaycana xalqı qandan-xatadan, ölkəni isə vətəndaş müharibəsindən qurtaran bir xilaskar kimi göndərmişdisə, XXI əsrin əvvəllərində Ulu Tanrı cənab İlham Əliyevi Azərbaycan xalqının 30 ildən bəri davam edən doğma torpaqlarının erməni işğalından azad olunmasını gerçəkləşdirən ikinci bir xilaskar kimi xalqına bəxş etmişdir! Bunun üçün Azərbaycan xalqı, bütün dünya azərbaycanlıları həmişə Ulu Tanrıya səcdə edəcək və minnətdar olacaqdır!

**Ədəbiyyat**

**1.** Xələfov, A. Heydər Əliyev və Azərbaycanda kitabxana işi.- Bakı: Azərnəşr, 2006.- 311 s.

**2.** Mədəniyyətimizin böyük hamisi: Heydər Əliyev İli – 2023: [Əməkdar mədəniyyət işçisi Kərim Tahirovun "Heydər Əliyev və Milli Kitabxana" adlı kitabı haqqında] //Azərbaycan.- 2023.- 4 may.- S.9.

**3.** Tahirov, K. Heydər Əliyev və Milli Kitabxana.- Bakı: "Şərq-Qərb", 2022.- 180 s.

**4.** Tahirov, K. Kitaba və mütaliəyə münasibətdə Heydər Əliyev nümunəsi //Kitabşünaslıq və redaktor sənəti: Elmi-nəzəri və təcrübi-metodik jurnal.- 2016.- №2(3).- S.41-45.

## Founder of independent library in Azerbaijan

**Summary:** *The article talks about the important works carried out in this direction under the leadership of the Great Leader, who highly values our culture, national-spiritual values, books and libraries, as well as the events organized and publications prepared by the National Library in connection with the 100th anniversary of the National leader.*

**Key words:** *Heydar Aliyev, culture, library building, National Library.*

## Основатель библиотечного дела в независимом Азербайджане

**Резюме:** *В статье рассказывается о важных работах, проделанных в области библиотечного дела в Азербайджане под руководством Общенационального Лидера, который высоко ценил нашу культуру, национально-духовные ценности, книги и библиотеки. Упоминаются мероприятия, организованные Национальной Библиотекой в связи со 100-летием со дня рождения Общенационального Лидера, а также опубликованные библиотекой издания.*

**Ключевые слова:** *Гейдар Алиев, культура, основание библиотеки, Национальная Библиотека.*

**Ədibə İmaş qızı İsmayılova,**
*Azərbaycan Milli Kitabxanasının Elmi işlər və kitabxana-informasiya xidməti üzrə direktor müavini, tarix üzrə fəlsəfə doktoru, Əməkdar mədəniyyət işçisi*
*aismayilova@anl.az*

# KİTABA, MÜTALİƏYƏ HEYDƏR ƏLİYEV MÜNASİBƏTİ

**Xülasə:** *Məqalədə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin mədəniyyətə, kitaba, kitabxanaya və mütaliəyə münasibəti əks olunmuşdur. Heydər Əliyevin bir neçə dəfə M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasına gəlişi, kitabxana haqqında söylədiyi fikirlər, öz şəxsi kitabxanasından Milli Kitabxanaya qiymətli kitab kolleksiyası hədiyyə etməsi xüsusi vurğulanmışdır.*

*Ulu Öndər Heydər Əliyevin Azərbaycanın müstəqilliyini bərpasının ilk illərində kitabxana quruculuğu sahəsində təməlini qoyduğu yeni ənənələrdən və bu ənənələrin onun siyasətinin fəal davamçısı olan hörmətli cənab Prezidentimiz İlham Əliyev təfəfindən böyük uğurla davam etdirilməsindən geniş bəhs olunur.*

**Açar sözlər:** *Ulu Öndər, Milli Kitabxana, şəxsi kolleksiya, Heydər Əliyev guşəsi, Milli Kitabxanaların Avropa Konfransı, "Nadir kitablar" kolleksiyası.*

Mövcud olan tarixi sənədlərdə, mədəniyyət və dövlət xadimlərinin məşhur deyimlərində kitabxana haqqında çox dəyərli fikirlərin söyləndiyi məlumdur. Bu kəlamlar içərisində Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin kitab və kitabxana haqqında söylədiyi *"Kitabxana xalq üçün, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir. Ona görə də kitabxanaya daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir!"* fikirləri öz elmi əsaslılığı, dərin məzmunu və bədii yükü baxımından çox yüksəkdə dayanır. Zənnimizcə kitabxanalar haqqında bundan gözəl, bundan mənalı bir fikir söyləmək, çətin ki, mümkün olsun! Kitabxananın mənəviyyat mənbəyi, müqəddəs bir məkan, elmə, biliyə, zəkaya yetişmək üçün hamının üz tuta biləcəyi ocaq – elm, bilik, zəka mənbəyi kimi dəyərləndirilməsi dahiyanə düşüncə tərzinə malik böyük şəxsiyyətlərə məxsusdur! Yalnız xalqının taleyüklü məsələlərinə böyük hörmətlə yanaşan, onun işıqlı gələcəyini düşünən və bu yolda canını fəda etməyə hazır olan bir şəxsiyyət kitabxanaları xalqın mədəni səviyyəsini nümayiş etdirən müqəddəs məkan kimi qiymətləndirə bilərdi! Xalqımızın böyük oğlu Heydər Əliyevin kitaba və kitabxanaya verdiyi

dəyərin əsas göstəricilərindən biri də onun müstəqillik illərində Milli Kitabxanaya ilk səfəri zamanı öz şəxsi kitabxanasından seçilmiş 300 nüsxə qiymətli kitab kolleksiyasını kitabxanaya hədiyyə etməsi idi. Respublika "Kitab" Cəmiyyətinin təşkil etdiyi miniatür kitab kolleksiyasından ibarət sərgi zamanı Heydər Əliyev yalnız tədbirə gəlişi, çıxışı ilə deyil, dəyərli kitab kolleksiyası hədiyyə etməsi ilə də həm sadə insanlara, həm də cəmiyyətin müxtəlif üzvlərinə mesaj vermiş, nümunə göstərmiş oldu. O, həmin tədbir zamanı demişdir: *"Mən indi kitabxanaya xeyli kitab bağışladım. Güman edirəm ki, bunlar fondda öz yerini tutacaqdır. Bunlar cəmiyyətimiz üçün çox gərəkli olan, ayrı-ayrı mövzulara həsr edilmiş kitablardır. Bunlar mənim özümün deyil, müxtəlif müəlliflərin kitablarıdır və kitabxananın böyük xəzinəsində öz yerini tutacaqdır. Zənnimcə, bu təşəbbüs də davam edə bilər. Elə imkanı olan adamlar kitabxanamızı zənginləşdirmək üçün, yəqin ki, ona kitablar bağışlayacaqlar".*

Ulu Öndərin Milli Kitabxanaya bağışladığı hədiyyələr arasında özü üçün də çox dəyərli olan "Qurani-Kərim" də var idi. O, diqqətləri bu kitaba yönəldərək demişdir: *"Bağışladığım kitabları nümayiş etdirmək istəmirəm. Ancaq bizim üçün müqəddəs olan bir kitabı da bağışlamaq istəyirəm. Bilirsiniz ki, mən Səudiyyə Ərəbistanına rəsmi səfərə getmişdim. Səfər zamanı biz islam aləminin müqəddəs yerlərini ziyarət etdik və bundan çox məmnun olduq. Orada – islam dininin mərkəzi olan Məkkədə mənə "Quran"ın nüsxələrini bağışlamışlar. Çox nəfis şəkildə buraxılmış bu nüsxələrdən birini də Dövlət Kitabxanasına verirəm".* Heydər Əliyev "Quran"ı Dövlət Kitabxanasına təqdim etməklə, bu məkana nə dərəcədə böyük əhəmiyyət verdiyini ictimaiyyət nümayəndələrinin diqqətinə çatdırmış oldu. Digər tərəfdən isə böyük şəxsiyyət bu kitabxananı elm və mənəviyyat məbədi hesab edirdi. Mənəviyyatımızın və inancımızın istinad nöqtəsi olan "Qurani-Kərim"in Ulu Öndər tərəfindən məhz elm məbədinə hədiyyə olunması böyük mənəvi və ictimai əhəmiyyət kəsb edirdi, böyük məna daşıyan bir addım idi. Çünki Heydər Əliyev kitabxananı ilahi qüvvəyə malik, toxunulmaz, pak, təmiz bir məkan hesab edirdi. Bu gün Milli Kitabxana dahi şəxsiyyətin bağışladığı "Qurani-Kərim"i Ulu Öndərin xatirəsinə hörmət əlaməti olaraq kitabxananın foyesində təşkil olunan "Heydər Əliyev guşəsi"ndə nümayiş etdirir. İlk olaraq, Ulu Öndərin bu çağırışına qoşulan və öz şəxsi kitabxanasından Dövlət Kitabxanasına kitab bağışlayan akademik Budaq Budaqov oldu. Bundan sonra Xalq yazıçısı Elçin Əfəndiyev, akademik Ziya Bünyadov, professor Cavad Heyət, professor Ədalət Vəliyev və digər ziyalılarımız da öz şəxsi kitabxanalarından dəyərli nümunələri kitabxanaya ərməğan etdilər. Milli Kitabxana böyük şəxsiyyət Heydər Əliyevin bu kolleksiyasını kitaba və kitabxanaya verilən böyük dəyərin əyani nümunəsi kimi oxucular, xüsusilə gənclər, tələbələr və məktəblilər arasında geniş təbliğ

edir. İndiyədək bu kolleksiya Ulu Öndərin doğum və anım günlərində, Milli Dirçəliş və Milli Qurtuluş Günündə Bakıda, eləcə də respublikamızın bölgələrində, akademiyada, universitetlərdə, liseylərdə, ümumtəhsil məktəblərində gənclər, tələbələr və şagirdlər qarşısında dəfələrlə nümayiş etdirilmişdir. Ulu Öndərin Milli Kitabxanada mühafizə olunan kolleksiyası Bakı Dövlət Universitetində, Daxili İşlər Nazirliyinin Polis Akademiyasında, Dövlət Gömrük Komitəsinin Gömrük Akademiyasında, Akademik Zərifə Əliyeva adına Liseydə, Quba rayonundakı Gənclər Mərkəzində, Xaçmazdakı Mədəniyyət Mərkəzində, Tərtərdəki Gənclər Mərkəzində, Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdindəki Pedaqoji Kollecdə və digər mədəniyyət ocaqlarında gənclər qarşısında böyük uğurla təqdim olunmuşdur. İllər keçsə də bu dəyərli kolleksiyadakı kitablarla tanış olan nəsillər, sözün əsl mənasında, böyük mütaliəçi və dahi şəxsiyyət Ulu öndər Heydər Əliyevdən kitabla dost olmaq nümunəsini həvəslə öyrənəcək, onun dahi şəxsiyyət kimi formalaşmasında kitabların, mütaliənin böyük rolunu aydın dərk edəcəklər.

Dünya kitabxanalarının tarixində ayrı-ayrı alimlər, ziyalılar, görkəmli şəxsiyyətlər, hökumət və dövlət başçıları tərəfindən kitabxanalara kitab hədiyyə etmək ənənəsi həmişə olmuş və bu, mədəniyyətin, elmin inkişafına dəstək kimi qiymətləndirilmişdir. Ancaq Ulu öndər Heydər Əliyev tərəfindən bu ümumbəşəri ənənənin bizim zəmanəmizdə davam etdirilməsi onun çox böyük uğurla vüsət almasına yol açdı və bu böyük şəxsiyyətin çağırışına qoşulan neçə-neçə görkəmli yazıçı, ziyalı, alim və sənətkar Milli Kitabxanaya öz şəxsi kitabxanalarından qiymətli kitablar bağışladılar. Həmin proses bu gün də böyük uğurla davam etdirilməkdədir. Ulu öndər Heydər Əliyevin müstəqillik illərində Milli Kitabxanaya ilk səfəri qədirbilən xalqımızın yaddaşında əsrlər boyu ona görə yaşayacaqdır ki, onun bu səfər zamanı söylədiyi fikirlər bugünkü kimi sabah da aktual olacaq. Ümummilli lider Heydər Əliyev Milli Kitabxanaya bu tarixi səfəri zamanı Dövlət Kitabxanasında (Milli Kitabxanada) çalışan insanları, onların əməyini də çox yüksək qiymətləndirmiş, kitabxanaçıları "fədakar insanlar" adlandırmışdır. Bir neçə aspektdən yanaşdıqda çox böyük tarixi əhəmiyyət daşıyan bu ilk səfərdə Ulu Öndər M.F.Axundov adına Dövlət Kitabxanasından (Milli Kitabxanadan) danışarkən demişdir: *"Mən vaxtilə bu kitabxanaya dəfələrlə gəlmişəm. Amma bu gün kitabxananın astanasından keçərkən çox böyük hörmət və ehtiram hissi duyuram. Bu kitabxanaya, burada çalışan insanlara hörmət və ehtiramımı bildirmək istəyirəm".*

Yalnız kitabı, mütaliəni, kitabxananı ürəkdən sevən, onlardan kifayət qədər uğurla bəhrələnən və nəhayət, sadə peşə adamlarının fədakar əməyinə yüksək qiymət verən böyük şəxsiyyət belə fikirlər söyləyə, kitabxanaçıların əməyini qiymətləndirə bilərdi.

Ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı və müstəqil Azərbaycan dövləti qarşısında ən böyük xidmətlərindən biri də ömrünün son günlərində özü qədər inandığı və etibar etdiyi, Azərbaycanı işıqlı gələcəyə aparmağa qadir olan şəxsiyyəti – dahi Heydər Əliyevin həyat, siyasət və rəhbərlik məktəbini keçmiş, yeganə davamçısı kimi gördüyü oğlu İlham Əliyevi növbəti prezident seçkilərində doğma xalqına tövsiyə etməsi olmuşdur. Heydər Əliyevin "həyat məktəbi"ni uğurla keçmiş cənab İlham Əliyev öz atası, dahi siyasətçi Heydər Əliyevin tövsiyəsi ilə xalqın böyük əksəriyyətinin səsverməsi nəticəsində ölkə Prezidenti seçildikdən sonra çox qısa zaman kəsiyində bütün xalqın Prezidenti olacağına hamını inandırmağı bacardı və sübut edə bildi ki, dahi Heydər Əliyevin siyasi və dövlətçilik kursu müvəffəqiyyətlə davam etdirilir. Mədəniyyət sahəsində Ulu öndər Heydər Əliyevin kursunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Milli Kitabxanaya və orada oxucular üçün yaradılan şəraitin yaxşılaşdırılmasına diqqət və qayğısını Azərbaycana rəhbərliyinin ilk illərində Milli Kitabxanaya ayrılan büdcə vəsaitinin xeyli artırılması ilə də əlaqələndirmək olar. Belə ki, Cənab Prezidentin tapşırığı əsasında 2006-cı ilin noyabrında Milli Məclisə tövsiyə olunan 2007-ci ilin Dövlət büdcəsi haqqında Qanun layihəsində M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasının xərcləri Dövlət büdcəsinin icmal layihəsində ayrıca maddədə nəzərdə tutuldu və bir neçə dəfə artımla göstərildi.

Azərbaycana rəhbərliyinin ilk illərindən başlayaraq, cənab Prezident İlham Əliyev Milli Kitabxananın maddi-texniki bazasının möhkəmləndirilməsi, oxucular üçün lazımi şəraitin yaradılması, kitabxananın müasir tipli kompüter texnologiyaları və avadanlıqlarla təchiz olunması və kitab fondlarının daima yenilənməsi məqsədilə lazımi vəsaitlərin ayrılmasına böyük diqqətlə yanaşdı. Bu diqqətin bariz nümunəsini Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 6 oktyabr tarixli 3072 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"ndan daha aydın görmək olar. Azərbaycan Respublikasında Kitabxana-informasiya sahəsinin inkişafında və yenidən qurulmasında mühüm mərhələ təşkil edən bu Proqram sənədi bütövlükdə ölkəmizdə kitabxanaların, o cümlədən Milli Kitabxananın fəaliyyətinin günün tələbləri səviyyəsində təşkil olunmasında, kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılmasında, oxuculara kitabxana-biblioqrafiya xidmətlərinin təkmilləşdirilməsində əhəmiyyətli rol oynamışdır. Bu mühüm Proqram sənədində M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasına ayrıca müstəqil bölmənin ayrılması da bu kitabxanaya dövlət başçısının qayğısından irəli gəlirdi. Çünki bu Dövlət Proqramının uğurla yerinə yetirilməsi Azərbaycan Milli Kitabxanasının aparıcı dünya ölkələrinin milli kitabxanaları sırasında

öncül yerlərdən birinə çıxmasına və Cənubi Qafqazın ən modern kitabxanası səviyyəsinə yüksəlməsinə səbəb olmuşdur. Bu fikri 2013-cü ildə Azərbaycan Milli Kitabxanasının 90 illik yubileyi tədbirlərində və bu münasibətlə Bakıda keçirilən Avropa Milli Kitabxanaları Konfransı təşkilatının (CENL) növbəti 27-ci illik toplantısında iştirak etmək üçün paytaxtımıza gələn həmin təşkilatın prezidenti, Fransa Milli Kitabxanasının direktoru Bruno Rassini söyləmişdir.

Azərbaycan Milli Kitabxanasının 90 illik yubileyi kitabxananın tarixində ilk dəfə dövlət səviyyəsində keçirilmişdir. Belə ki, yubiley tədbirləri Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Milli Kitabxanasının 90 illik yubileyinin keçirilməsi haqqında" 24 iyun 2013-cü il tarixli Sərəncamına müvafiq olaraq dövlət səviyyəsində geniş şəkildə qeyd olunmuşdur. Milli Kitabxananın 90 illik yubiley tədbirləri çərçivəsində Bakı şəhərində Avropa Milli Kitabxanaları Konfransı beynəlxalq təşkilatının (CENL) 27-ci illik iclası, Avrasiya Kitabxanalar Assambleyasının (BAE) 16-cı illik toplantısı,Türkdilli Ölkələrin Milli Kitabxanaları Şurasının 2-ci iclası və İqtisadi Əməkdaşlıq Təşkilatına (İƏT) üzv Ölkələrin Milli Kitabxana və arxiv təşkilatları Birliyinin 2-ci toplantısı keçirilmişdir. Ulu öndər Heydər Əliyevin XX əsrin 90-cı illərinin sonlarında Azərbaycan Milli Kitabxanasına səfərləri zamanı əsasını qoyduğu ənənələrin XXI əsrin əvvəllərində onun siyasi və iqtisadi kursunu böyük uğurla davam etdirən hörmətli cənab Prezidentimiz İlham Əliyev tərəfindən həyata keçirilən məqsədyönlü tədbirlər sayəsində Milli Kitabxanamız öz inkişafının ən yüksək mərhələsinə qalxmış, Azərbaycan mədəniyyətinə dəyərli töhfələr verərək dünya milli kitabxanaları sırasında ön cərgədə qərarlaşmışdır. Milli Kitabxana və onun kollektivi mədəniyyətimizə, milli mənəvi dəyərlərimizə, kitaba, kitabxanaya böyük dəyər verən mərhum Prezidentimiz Heydər Əliyevin xatirəsini böyük qədirbilənlik hissi ilə xatırlayır və həmişə də xatırlayacaqdır.

**Ədəbiyyat**


**1.** Xələfov, A.A. Heydər Əliyev və Azərbaycanda kitabxana işi /A.Xələfov.– Bakı, 2006.– 312 s.

**2.** Tahirov, K.M. Heydər Əliyev və Milli Kitabxana /K.Tahirov.–Bakı, 2022.– 180s.

**3.** Tahirov, K.M. Kitaba və mütaliəyə münasibətdə Heydər Əliyev nümunəsi //Kitabşünaslıq və redaktor sənəti. Elmi-nəzəri və təcrübi-metodik jurnal.- 2016.- №2(3).- S.41-45.

## Heydar Aliyev's attitude towards books and reading

**Summary:** *The attitude of Heydar Aliyev, the national leader of the Azerbaijani people, to culture, books, libraries and reading is reflected in the article. Heydar Aliyev's visit to the National Library of Azerbaijan named after M.F.Akhundov several times, his opinions about the library, and his gift of a valuable collection of books from his personal library to the National Library were specially emphasized.*

*The great leader Heydar Aliyev in the first years of restoration of Azerbaijan's independence laid the foundations of the new traditions in the field of library construction and the continuation of these traditions by the honorable President Ilham Aliyev, who is an active follower of his policy, is widely discussed.*

**Key words:** *Great Leader, National Library, personal collection, Heydar Aliyev corner, European Conference of National Libraries organization, "Rare books" collection.*

## Отношение Гейдара Алиева к книгам и чтению

**Резюме:** *В статье отражено отношение Общенационального Лидера Гейдара Алиева к культуре, книгам, библиотекам и чтению. Особо подчеркнуты неоднократное посещение Гейдаром Алиевым Национальной библиотеки Азербайджана имени М.Ф.Ахундова, его высказывания о библиотеке. Отмечено также, что Великий Лидер при визите в Национальную библиотеку, передал в дар ценную коллекцию книг из своей личной библиотеки.*

*Широко обсуждаются новые традиции, заложенные Общенациональным Лидером Гейдаром Алиевым в первые годы восстановления независимости Азербайджана в области библиотечного строительства, а также успешное продолжение этих традиций достойным последователем его политического курса – Президентом Ильхамом Алиевым.*

**Ключевые слова:** *Великий лидер, Национальная библиотека, личная коллекция, Уголок Гейдара Алиева, Европейская конференция национальных библиотек, коллекция «Редкие книги».*

**Nadir İslam oğlu İsmayılov,**
*Bakı Dövlət Universitetinin Sənəd menecmenti kafedrasının müdiri,*
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*nadir_ismayıl56@mail.ru*

# "HEYDƏR ƏLİYEV. ELEKTRON SƏNƏDLƏR TOPLUSU" ADLI ELEKTRON İNFORMASİYA RESURSU: STRUKTURU VƏ AXTARIŞ İMKANLARI HAQQINDA

**Xülasə:** *Məruzədə Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının hazırladığı "Heydər Əliyev. Elektron sənədlər toplusu" adlı elektron informasiya resursunun quruluşu təhlil edilmişdir.*

**Açar sözlər:** *Heydər Əliyev, sənəd-informasiya resursu, elektron sənəd toplusu.*

Hər bir xalqın tarixində görkəmli şəxsiyyətlərin rolu danılmazdır. Azərbaycan xalqının çoxəsrlik tarixində xüsusi missiyası olan şəxsiyyətlərdən biri də ümummilli lider Heydər Əliyevdir. Heydər Əliyev Azərbaycan dövlətçiliyinin inkişafında və xalqımızın taleyinin düzgün istiqamətləndirilməsində misilsiz xidmətlər göstərmişdir. Məhz bu səbəbdən Heydər Əliyev irsi daima öyrənilir. Respublikamıza rəhbərlik etdiyi ilk zamanlardan başlayaraq indiyədək bu görkəmli dövlət xadiminin həyatı və fəaliyyətini özündə əks etditən müxtəlif növlü zəngin sənəd-informasiya mənbələri formalaşmışdır. Bu mənbələri toplamaq, təsnifləşdirmək, biblioqrafiyalaşdırmaq, optimal strukturlaşdılmış resurs halına salaraq idarə etmək, təbliğ etmək və tələbaçıların istifadəsinə vermək kitabxanaların mühüm vəzifəsidir. Kitabxanaşünaslar, biblioqrafiyaşünaslar və sənədşünaslar isə həmin resursların xüsusiyyətini, yaradılma, strukturlaşdırma və idarəsinin təşkili məsələsini nəzəri cəhətdən araşdımalı və bu işlərin təkmilləşdirilməsi barədə tövsiyələr verməlidirlər. Məlumdur ki, indiyədək ümummilli lider Heydər Əliyevlə bağlı belə sənəd-informasiya resursları içərisində ən əhatəli və mükəmməl resurslardan biri də Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının hazırladığı və mütəmadi olaraq yenilənən "Heydər Əliyev. Elektron Sənədlər toplusu" adlı elektron informasiya resursudur. Bu elektron sənədlər toplusu ümummilli liderin həyat və fəaliyyəti ilə bağlı demək olar ki, bütün nəşr edilmiş mənbələri, onun nitqlərini, çıxışlarını, müsahibələrini əks etdirən dərcləri tam şəkildə əhatə edir. Həm geniş oxucu kütləsi, həm də tədqiqatçılar üçün nəzərdə tutulmuş bu zəngin elektron sənəd toplusu aşağıdakı struktura

malikdir: 1.Ümummilli lider; 2. Xronologiya (1923-2003); 3. Sənədlər; 4. Xarici siyasət fəaliyyəti (1993-2003); 5. Elektron kitabxana; 6. Biblioqrafiya; 7. Fotoqalereya.

Hər bir bölmə ayrı-ayrılıqda altbölmələrə, fəsillərə və xronoloji ardıcıllıqlarla düzülmüş struktur vahidlərinə bölünmüşdür. Toplunun I bölməsində Heydər Əliyevin həyat və fəaliyyəti, rəhbərlik vəzifəsini icra etdiyi müddətdə gördüyü işlər, layiq görüldüyü fəxri adlar və mükafatlar barədə ətraflı məlumat verilmişdir. I bölmədə görkəmli şəxsiyyətlə bağlı 7 altbölmədə onun bioqrafiyası, rəhbərlik fəaliyyətinin dörd dövrünü əhatə edən icmal xarakterli məqalələr, aldığı təltiflər, iqtibaslar, İlham Əliyevin və məşhurların onun haqqında fikirləri və xatirəsinin əbədiləşdirilməsi ilə bağlı görülmüş tədbirlərlə bağlı sənədlər öz əksini tapmışdır.

II bölmə 1993-cü ildən 2003-cü ilə qədər H.Əliyevin həyat və fəaliyyətinin beş əsas mərhələsini əhatə edən hadisələri əks etdirən xronoloji siyahılardan ibarətdir.

Elektron toplunun III bölməsi ümummilli liderin fəaliyyətinin müxtəlif dövrlərində etdiyi nitqlərin, çıxışların, söhbətlərin, məruzələrin, bəyanatların, verdiyi müsahibələrin və təbriklərin mətnlərindən ibarətdir. Burada da material dövrlər üzrə xronoloji ardıcıllıqla təqdim edilir. Belə ki, bu bölmədə daxil edilmiş sənədlər üç dövr üzrə qruplaşdırılmışdır: Birinci dövr 1969-1982-ci, ikinci dövr 1989-1993-cü və üçüncü dövr 1993-2003-cü illəri əhatə edir ki, sonuncu dövrə dair material ayrıca olaraq illər üzrə qruplaşdırılmışdır.

Görkəmli siyasi xadimin siyasi fəaliyyətinin öyrənilməsində "Xarici siyasət fəalliyyəti (1993-2003)" adlı bölmə də xeyli zəngin mənbədir. Bu bölmə özü də iki altbölmədən ibarətdir. Birinci altbölmədə H.Əliyevin rəhbərlik etdiyi illərdə Azərbaycanda və dünyada xarici siyasi fəaliyyət məzmunlu keçirdiyi bütün görüşləri, qəbulları barədə qısa xronoloji məlumatlar ardıcıl şəkildə düzülmüşdür. "Rəsmi sənədlərin biblioqrafiyası" adlı ikinci altbölmədə isə həmin dövrdə H.Əliyevin xarici siyasət fəaliyyəti ilə bağlı ayrıca olaraq imzaladağı qanunlar, fərmanlar və sərəncamlar kimi rəsmi sənədlərin biblioqrafik təsvirləri yenə də xronoloji ardıcıllıqla təqdim edilir.

Elektron toplunun təqdim edilən materialın həcminə görə ən böyük bölməsi "Elektron kitabxana" adlanır. Onun "Müstəqilliyimiz əbədidir" adlı altbölməsi 46 cildli sənəd külliyatınının elektron versiyasından ibarət bölmədir. Həmin çoxcildlili nəşrin 1-45-ci cildləri çıxışların, nitqlərin, bəyanatların, məktubların, müsahibələrin tam mətnindən, 46-cı cild isə "Qeydlər" adlansa da, bu, mahiyyətcə çoxcildliyin mətnində rast gəlinən şəxs və coğrafi adların yardımçı göstəricilərindən ibarətdir. Qeyd edək ki, 2013-cü ildə AMEA Mərkəzi Elmi Kitabxanası tərəfindən tərtib edilərək "Şərq-Qərb" nəşriyyatı tərəfindən həmin

çoxcildliyin təkibini digər aspektlərdən açan yardımçı göstəricisi nəşr edilmişdir. ""Heydər Əliyev. Müstəqilliyimiz əbədidir" çoxcildliyin elmi-biblioqrafik göstəricisi: II cild" adlanan 712 səhifəlik bu vəsait müstəqillik dövründə Azərbaycanda nəşr edilmiş bu qəbildən olan mühüm əsər hesab edilə bilər. Lakin ki, bu vəsait nəşr tərtibatı, cild sıralaması baxımdan 46 cildlik külliyatın növbəti, 47-ci cildi kimi yox, müstəqlil formada nəşr edilmişdir və onun tam mətni, kitabxananın serverində "Elektron kitablar" bölməsində yerləşdirilmişdir. Bu nəşrdə külliyatın tərkibini açan mövzu, adlar və coğrafi göstəricilər verilmişdir.

Bölmənin "E-kitablar" adlı altbölməsində kitabxananın fondunda saxlanan və ümummilli liderə həsr edilmiş çox hissəsi Azərbaycan dilində, daha sonra rus, ingilis və digər dillərdə nəşr edilmiş kitabların elektron versiyası verilmişdir. Kitabların altbölmə daxilində düzülməsini əks-xrononologiya prinsipində aparılmışdır. Yəni, əvvəlcə son nəşr edilmiş, ardınca isə daha erkən nəşr edilmiş kitablar təqdim edilir. Burada hər bir kitabın üz qabığının vizual təsviri və biblioqrafik təsvirin ayrı-ayrı elementləri verilmişdir ki, sonuncu informasiyanın standarta uyğun biblioqrafik təsvir şəklində veriməsi daha məqsədəuyğun olardı. "E-məqalələr" adlı ikinci altbölmədə isə H.Əliyevə həsr edilmiş məqalələrin elektron versiyaları istifadəçilərə təqdim edilir. Göründüyü kimi, bu altbölmədəki materiallar ancaq 2004-cü il və sonrakı dövrləri əhatə edir. Ümid etmək olar ki, kitabxananın əməkdaşları gələcəkdə burdakı materialların xronoloji əhatəsini daha erkən zamanlara doğru genişləndirəcəklər.

Elektron toplunun "Biblioqrafiya" bölməsində kitabxana tərəfindən yeni tərtib edilən "Heydər Əliyev-100" adlı elektron biblioqrafik göstərici yerləşdirilmişdir. Göstəricidə öncə Azərbaycan Respublikasında 2023- cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamının mətni öz əksini tapmışdır. Dünya dövlətlərinin başçılarının, görkəmli ictimai-siyasi xadimlərin Heydər Əliyev haqqında seçilmiş fikirləri ayrıca təqdim edilir. Biblioqrafik göstəricidə Ümummilli Liderin həyat və fəaliyyətinin xronikası ayrı-ayrı dövrlər üzrə xronoloji ardıcıllıqla əks etdirilir. Heydər Əliyevin Azərbaycan, rus və digər xarici dillərdə "Əsərləri"nin biblioqrafiyası müvafiq bölmədə yerləşdirilmişdir. Heydər Əliyev haqqında kitabların və dövri mətbuatda dərc edilmiş məqalələrin biblioqrafik təsvirləri müxtəlif dillərdə qruplaşdırılmışdır. Heydər Əliyevin zəngin irsinin araşdırılması nəticəsində müdafiə olunmuş dissertasiyaların avtoreferatlarının Azərbaycan və xarici dillərdə biblioqrafik təsviri ayrıca təqdim edilmişdir. Azərbaycan və rus dillərində kitab müəlliflərinin köməkçi göstəricisi də tərtib edilmişdir.

Sonuncu "Fotoqalereya" bölməsi 2 altbölmədən – Fotoalbom və Fotosənəd altbölmələrindən ibarətdir ki, burada da Ulu öndərin 1923-1969, 1969-1982, 1982-1987, 1990-1993, 1993-2003-cü illərə aid olan fotoşəkilləri və rəsmi sənədlərin fotoşəkilləri yer almışdır.

Topluya kitabxananın preslib.az və heydaraliyev.preslib.az saytlarından daxil olmaq mümkündür.

**Ədəbiyyat**


1. Heydər Əliyev: Elektron sənədlər toplusu.
   URL: https://heydaraliyev.preslib.az/


## "Heydar Aliyev. Electronic documents collection" electronic information resource: about its structure and search capabilities


**Summary:** *The structure of the electronic information resource "Heydar Aliyev. Electronic documents collection" prepared by the Presidential Library of the Affairs Department of the President of the Republic of Azerbaijan was analyzed in the report.*



**Key words:** *Heydar Aliyev, document-information resource, electronic document collection.*


## Электронно-информационный ресурс под названием «Гейдар Алиев. Сборник электронных документов»: о его структуре и поисковых возможностях


**Резюме:** *В статье проанализирована структура электронно-информационного ресурса под названием «Гейдар Алиев. Сборник электронных документов», подготовленного Президентской Библиотекой Управления делами Президента Азербайджанской Республики.*



**Ключевые слова:** *Гейдар Алиев, документально-информационный ресурс, сборник электронных документов.*

**Sevda Abasqulu qızı Xələfova,**
*Bakı Dövlət Universitetinin Kitabxana-informasiya resurslarının idarə edilməsi kafedrasının müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent*
*sqaflanova@mail.ru*

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA KİTABXANA İŞİNƏ DAİR DÖVLƏT SİYASƏTİ

**Xülasə:** *Məqalədə ulu öndər Heydər Əliyevin mədəniyyətin ayrılmaz tərkib hissəsi olan kitabxana quruculuğu sahəsindəki misilsiz xidmətləri ümumiləşdirilir. Burada sovet hakimiyyəti illərində və müstəqillik dövründə Azərbaycanda kitabxanaların qorunub saxlanılmasında, kitabxanaların maddi-texniki bazasının möhkəmləndirilməsində, kadr potensialının yaxşılaşdırılmasında, kitabxana işi sahəsində dövlət siyasətinin formalaşmasında Heydər Əliyevin ideyaları şərh olunur.*

**Açar sözlər:** *kitabxana işi, kitabxanaların maddi-texniki bazası, kitabxanaların kadr potensialı, kitabxana işi sahəsində dövlət siyasəti.*

XX əsrin ikinci yarısında və XXI əsrin əvvəllərində Azərbaycan xalqını dünya miqyasında şöhrətləndirən tarixi şəxsiyyət, görkəmli dövlət, siyasət, elm və mədəniyyət xadimi Heydər Əlirza oğlu Əliyevin adı tarixin səhifələrinə qızıl hərflərlə həkk olunmuşdur. Zəngin və maraqlı həyat yolu keçmiş ulu öndər Heydər Əliyev Azərbaycan mədəniyyətinin hamisi və milli mənəvi dəyərlərimizin əvəzsiz təəssübkeşi kimi sonsuz ehtirama layiqdir.

Dahi şəxsiyyətin Azərbaycanda kitabxana işinin inkişafı sahəsindəki əvəzedilməz xidmətlərini iki mərhələdə ümumiləşdirmək məqsədəuyğundur:

1) Sovet hakimiyyəti dövründə kitabxana işinin inkişafı istiqamətində Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən tədbirlər;

2) Müstəqillik dövründə kitabxana işi sahəsində dövlət siyasətinin formalaşmasında Heydər Əliyevin rolu.

Hələ, yəni 1970-1980-ci illərdə Azərbaycan mədəniyyətinin yüksək inkişaf səviyyəsinə çatmasında, o cümlədən kitabxana sahəsinin inkişafında Heydər Əliyevin mühüm xidmətləri olmuşdur.

Məlum olduğu kimi, Azərbaycan KP MK bürosunun 19 dekabr 1973-cü il tarixli iclasında M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının 50 illiyinin keçirilməsi barədə qərar qəbul edilmişdi. Respublikamızın ən böyük kitabxanasının yubileyinin dövlət səviyyəsində qeyd olunması xalqımızın

mənəvi xəzinəsinin qorunması və inkişafına diqqət və qayğının ən bariz nümunəsi idi.

Heydər Əliyev bu dövrdə eyni zamanda Azərbaycanda ali təhsilli kitabxanaçı kadrların hazırlanmasına da xüsusi əhəmiyyət verirdi. Bu mövqe respublikamızda fəaliyyət göstərən kitabxanaların ali təhsilli mütəxəssislərlə təmin edilməsinə, eləcə də əhalinin ümumi mədəni səviyyəsinin yüksəldilməsinə ciddi təkan verirdi.

Qeyd edək ki, Heydər Əliyev 1969-cu ildə hakimiyyətə gələrkən Azərbaycanda cəmi 3019 kitabxanaçı çalışırdı ki, onlardan yalnız 1436 nəfəri ali təhsilli idi. Ona görə də dahi rəhbər bu sahədə dönüşün yaradılması və kadr hazırlığı istiqamətində vəziyyətin yaxşılaşdırılması üçün qətiyyətli tədbirlər həyata keçirməyə başladı. 1970-ci illərin ortalarından etibarən Bakı Dövlət Universitetinin Kitabxanaçılıq fakültəsinə tələbə qəbulu planı artırıldı. Burada istehsalatdan ayrılmaqla əyani təhsillə yanaşı, istehsalatdan ayrılmamaqla qiyabi və axşam şöbələrinə də tələbə qəbulu aparıldı. Bununla yanaşı, kənd rayonlarının və ucqar dağ kəndlərinin gəncləri üçün müsabiqədənkənar əlavə qəbul yerləri ayrıldı. Elə bu tədbirlərin nəticəsi olaraq 1980-ci illərin əvvəllərində respublikamızda ali təhsilli kitabxanaçıların ümumi sayı əvvəlki dövrlə müqayisədə xeyli artmışdı.

Milli kitabxanaşünaslıq elminin banisi, professor Abuzər Xələfov "Heydər Əliyev və Azərbaycanda kitabxana işi" adlı monoqrafiyasında yazır ki, "ölkəmizdə yüksəkixtisaslı kitabxanaçı kadrların hazırlanmasında Heydər Əliyevin xidmətləri əvəzedilməzdir. O, respublikada rəhbərliyə gəldikdən sonra 60-cı illərdə ləğv edilmiş kitabxanaları bərpa etmək, yeni kitabxanalar açmaqla yanaşı, yüksəkixtisaslı kitabxanaçı kadrların yetişdirilməsi işinə də xüsusi diqqət yetirməyə başladı. Azərbaycanın kənd rayonlarında yüksək ixtisaslı kadrların olmamasını nəzərə alan H.Əliyev qısa bir zaman içərisində Bakı Dövlət Universitetində fəaliyyət göstərən Kitabxanaçılıq fakültəsinin genişləndirilməsi, onun maddi-texniki bazasının möhkəmləndirilməsi, qəbulun artırılması üçün xüsusi göstəriş vermişdi. Həmçinin H.Əliyevin göstərişi ilə Kitabxanaçılıq fakültəsinə 50 ildən çox müsabiqədənkənar qəbul planı verilmişdi. Bu planda ayrı-ayrı rayonlarla bərabər azsaylı xalqların nümayəndələrinin qəbulu da nəzərdə tutulurdu. Bu tədbir 1970-ci illərdə davam etdiyindən Bakı Dövlət Universitetinin Kitabxanaçılıq fakültəsi Azərbaycanın kənd rayonları üçün xeyli miqdarda kadr hazırlamağa müvəffəq oldu. Bütün rayon kitabxanalarını, həmçinin böyük kənd kitabxanalarını ali təhsilli kitabxanaçı kadrlarla təmin etmək mümkün oldu. Bir qayda olaraq müsabiqədənkənar təhsil alan tələbələr universiteti bitirdikdən sonra istisnasız olaraq

öz rayonlarına, kəndlərinə göndərilirdilər. Bütün bunlar kitabxana işinə H.Əliyev qayğısının böyük nəticəsi idi".

Görkəmli alim daha sonra qeyd edir ki, "respublikamız bu göstəricilərə görə də SSRİ respublikaları içərisində əvvəlinci yerlərdən birinə yüksəlmişdi. Bu göstəricilərin arxasında böyük yaradıcı əmək, iqtisadi-mədəni inkişaf, ciddi təşkilatçılıq işi, Azərbaycan mədəniyyətinə, kitab və kitabxana işinə xalq qayğısı, xalqın böyük oğlu Heydər Əliyevin iradəsi dayanmışdı. Kitabxana işi sahəsində əldə edilmiş ciddi nailiyyətlərin, böyük kəmiyyət və keyfiyyət göstəricilərinin, əhaliyə kitabxana xidmətinin təşkilində baş verən proseslərin və qazanılmış nailiyyətlərin elmi təhlili 1970-1985-ci illərin respublikamızda kitabxana işinin tarixində yeni mərhələ – Heydər Əliyev mərhələsi olduğunu söyləməyə imkan verir".

O dövrdə Heydər Əliyev vahid sovet ideologiyası müstəvisində mədəniyyət, o cümlədən onun ayrılmaz tərkib hissəsi olan kitabxana işi sahəsindəki fəaliyyətini böyük əzmlə bir neçə istiqamətdə həyata keçirirdi. Həmin istiqamətləri bu qaydada qruplaşdırmaq mümkündür:

- kitabxanaların qorunub saxlanılması və inkişafı üçün dövlət büdcəsindən ayrılan xərclərin artırılması;
- yeni tipli nümunəvi kitabxana binalarının inşasının genişləndirilməsi;
- kitabxana fondlarının zənginləşdirilməsinə dövlət qayğısının artırılması;
- müəyyən stajı olan kitabxana işçilərinin, xüsusilə kənd yerlərində işləyən kadrların ixtisası üzrə ali təhsil almalarına əlverişli şəraitin yaradılması;
- böyük kitabxanaların və tarixi qədim olan kitabxanaların yubileylərinin keçirilməsi və s.

Statistik göstəricilərdən aydın olur ki, 1970-1980-ci illərdə Azərbaycanın bütün rayon mərkəzlərində vahid tipli kitabxana binaları tikilib istifadəyə verilmişdi. Yalnız 1981-ci il ərzində Mədəniyyət Nazirliyinin xətti ilə respublikamızda 80 yeni kitabxana istifadəyə verilmişdi.

Sovet hakimiyyəti dövründə Heydər Əliyevin Azərbaycana rəhbərliyi illərində kitabxana fondlarının həcminin artırılmasına, xarici ölkələrdən kitab, jurnal və elmi məcmuələrin alınmasına xüsusi diqqət yetirilirdi. Bütün bunların nəticəsində kitabxanalarının fondlarının zənginləşdirilməsi özünün ən yüksək inkişaf zirvəsinə çatmışdı.

Təəssüflə xatırlatmalıyıq ki, Azərbaycan Respublikasının müstəqilliyinin ilk dövrlərində, yəni 1991-1992-ci illərdə Bakı şəhərində, respublikamızın digər bölgələrində mədəniyyət ocaqlarını, o cümlədən kitabxana binalarını ələ keçirməyə çalışırdılar. Professor A.Xələfovun yazdığına görə, "bu dövrdə

texniki kitabxanaların illər boyu toplanmış, formalaşmış zəngin fondu və avadanlığı qısa müddət ərzində tamamilə talan edilmişdi. Texniki kitabxanalar əsasən Azərbaycan Dövlət Plan Komitəsinə və həmkarlar təşkilatlarına tabe idilər. Bu təşkilatlar isə texniki kitabxanaları xilas etmək üçün heş bir tədbir görməmiş, qərar qəbul etməmişdilər. Beləliklə, 1991-1992-ci illərdə 100-ə yaxın texniki kitabxana bağlanmışdı".

Bundan başqa, kitabxana şəbəkələrinə malik olan digər nazirliklərdə də bu cür neqativ hallar baş vermiş, kitabxana əmlakı talan edilmiş, kitabxana binalarından müxtəlif məqsədlər üçün istifadə ediməyə başlanmışdı.

Yalnız Heydər Əliyevin respublika rəhbərliyinə qayıdışından sonra bu hərc-mərcliyə son qoyuldu. Ulu öndər Azərbaycan dövlətçiliyi ilə yanaşı mədəniyyəti, o cümlədən kitabxanaları da sonu görünməyən bəlalardan xilas etdi.

Bu dövrdə Heydər Əliyevin dövlət kitabxana siyasəti respublika miq-yasında aparılan kitabxana işinin əsasını təşkil edir.Həmin illərdə kitabxanaların normativ-hüquqi bazasının formalaşdırılması da Heydər Əliyevin qayğısının və fəaliyyətinin nəticəsi kimi dəyərləndirilməlidir.

Qeyd etmək lazımdır ki, kitabxana işinə dair dövlət siyasətinin forma-laşdırılmasında Azərbaycan Respublikasının Konstitusiyası əsas qanunvericilik bazası rolunu oynayır. Ölkə vətəndaşlarının mədəni sərvətlərdən istifadə etmək hüquqları Konstitusiyanın 40-cı və 50-ci maddələrində şərh olunmuş, kitab-xanaların hüquqları təsbit edilmiş, onların qarşısında insanlara kitabxana və informasiya xidmətinin yüksək səviyyədə, maneəsiz, qüsursuz və vaxtında təşkil edilməsi vəzifəsi qoyulmuşdur.

Xatırlatmaq lazımdır ki, Azərbaycan Respublikası müstəqilliyini elan edənə qədər kitabxanalar 1984-cü ildə qəbul edilmiş "Ssri-də kitabxana işi haqqında Əsasnamə"yə uyğun olaraq fəaliyyət göstərirdi. Bu sənəd mahiyyətcə totalitar sovet rejiminin ideologiyasına əsaslanırdı. Ona görə də yeni dövrün tələbləri nəzərə alınaraq məhz Heydər Əliyevin göstərişi və tövsiyəsi ilə 1996-cı ildə Azərbaycan Respublikası Nazirlər Kabineti "Kitabxana işi haqqında" qərar qəbul etdi.

29 dekabr 1998-ci ildə isə ölkəmizin tarixində ilk dəfə olaraq "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu Prezident Heydər Əliyev tərəfindən imzalandı. Həmçinin Prezident Heydər Əliyevin imzaladığı 12 mart 1999-cu il tarixli Fərmanla "Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi, Qanunun ayrı-ayrı maddələrinin yerinə yeti-rilməsinə cavabdeh olan dövlət orqanlarının müəyyənləşdirilməsi həyata keçirildi.

“Kitabxana işi haqqında” Azərbaycan Respublikası Qanununa kitabxanaların əmlakının, fondlarının və statusunun, xüsusilə onların sovet dövründə yerləşdikləri binalarının mühafizəsi məqsədilə bir sıra maddələr məhz Ulu Öndər Heydər Əliyevin göstərişi və tövsiyələri əsasında daxil edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 29 sentyabr 1995-ci il tarixli Qanunu ilə təsdiq olunmuş “Azərbaycan Respublikasında 1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramı” isə bu sahədəki bütün suallara aydınlıq gətiridi. “Dövlət Proqramı”nın “Özəlləşdirməyə münasibətdə dövlət mülkiyyət obyektlərinin təsnifatı” adlı 1 saylı əlavəsində “Özəlləşdirilməsi qadağan olunan müəssisə və obyektlər”in siyahısı verilmişdi. Sənədin 3-cü bəndində yazılırdı:

“Azərbaycan xalqının tarixi və mədəni irs obyektləri (nadir mədəniyyət və təbiət abidələri, təbiət, tarix, mədəniyyət, elm və texnika obyektləri, o cümlədən dövlət muzeylərində, arxivlərdə və kitabxanalarda saxlanılan sərvətlər, onların yerləşdiyi binalar və sahələr) özəlləşdirilməsi qadağan olunan müəssisə və obyektlər qrupuna daxil edilmişdir”.

Məlumat üçün onu da qeyd edək ki, Prezident Heydər Əliyevin imzaladığı 16 may 2000-ci il tarixli “Dövlət əmlakının özəlləşdirilməsi haqqında” Azərbaycan Respublikasının Qanununun “Dövlət əmlakının təsnifatı” adlı 6-cı maddəsində göstərilirdi:

“Azərbaycan Respublikasının dövlət mülkiyyətində saxlanılan aşağıdakı əmlak növlərinin özəlləşdirilməsi qadağandır:

“Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, dünya təbii və mədəni irs siyahısına daxil edilmiş, həmçinin milli mədəni və təbii irsə aid dövlət əmlakı, o cümlədən Azərbaycan xalqının tarix və mədəniyyət abidələri (yerli əhəmiyyətli tarix və mədəniyyət abidələri istisna olmaqla), dövlət muzeyi, dövlət arxivi və mərkəzi dövlət kitabxanasının eksponatları və fondu”.

Beləliklə, respublikamız çox çətin iqtisadi vəziyyətdə olduğu bir dövrdə Heydər Əliyevin ciddi tapşırığı ilə mədəniyyət müəssisələrinin, xüsusilə kitabxanaların hərraca qoyulmasının qarşısı alındı, qiymətli kitab fondlarının dağıdılması hallarına son qoyuldu. 1998-2000-ci illərdə Nazirlər Kabineti Milli Kitabxananın və sahəvi elmi kitabxanaların, rayon və şəhər kitabxanaların statusunun və əsasnamələrinin təsdiqi, fondlarının uçotu və mühafizəsi haqqında qərarlar qəbul etdi.

Əlbəttə, bütün bu taleyüklü vəzifələr Azərbaycan xalqının çoxəsrlik mədəniyyətinə, milli mənəvi dəyərlərimizə, kitaba və kitabxanaya yüksək qiymət verən görkəmli dövlət xadimi və müdrik şəxsiyyət Heydər Əliyev tərəfindən həyata keçirə bilərdi.

Doğma Qarabağ torpaqlarımızın erməni işğalından azad olunacağına ürəkdən inanan Heydər Əliyevin ruhu bu gün şaddır. Çünki onun işıqlı ideyalarını böyük uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev 44 günlük Vətən müharibəsində tarixi zəfər çalaraq Heydər Əliyevin ən böyük arzusunu və müqəddəs vəsiyyətini uğurla yerinə yetirə bilmişdir.

Müasir dövrdə Azərbaycan Prspublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə kitabxanaların fəaliyyətinin müasir dövrün tələblərinə uyğun olaraq yenidən qurulması və daha da təkmilləşdirilməsi prosesi gedir. Bütün bu geniş miqyaslı işlərin təməlində də məhz Ulu Öndər Heydər Əliyevin kitabxana işi sahəsində uzaqgörənliklə həyata keçirdiyi möhtəşəm tədbirlər durur.

**Ədəbiyyat**

**1.** Xələfov, A. Heydər Əliyev və Azərbaycanda kitabxana işi: Monoqrafiya /Elmi redaktor Tamella Musayeva; Redaktor Knyaz Aslan.– Bakı: Azərnəşr, 2006.– 312 s.

**2.** Xələfov, A. Azərbaycanda kitabxana işinin tarixi: Dərslik. III hissə /Elmi redaktor Knyaz Aslan.– Bakı: Bakı Universiteti Nəşriyyatı, 2010.– 432 s.

**3.** Xələfov, A. Bakı Dövlət Universitetinbin Elmi Kitabxanası: Monoqrafiya /Redaktorlar: Knyaz Aslan, Pərviz Kazımi.– Bakı: Elm və təhsil, 2019.– 264 s.

**4.** “Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu: Bakı şəhəri, 29 dekabr 1998-ci il; № 611-IQ.
URL: https://e-qanun.az/framework/5041

## National leader Heydar Aliyev and state policy in the field of librarianship in Azerbaijan

**Summary:** *The article summarizes the outstanding merits of the national leader Heydar Aliyev in the field of library construction, which is an integral part of culture. It interprets the ideas of Heydar Aliyev on the preservation of libraries in Azerbaijan during the years of Soviet power and independence, strengthening the material and technical base of libraries, increasing human resources, and shaping the state policy in the field of librarianship.*

**Key words:** *librarianship, material and technical base of libraries, personnel potential of libraries, state policy in the field of librarianship.*

## Общенациональный лидер Гейдар Алиев и государственная политика в области библиотечного дела в Азербайджане

**Резюме:** *В статье обобщаются выдающиеся заслуги общенационального лидера Гейдара Алиева в области библиотечного строительства, являющегося неотъемлемой частью культуры. Здесь интерпретируются идеи Гейдара Алиева о сохранении библиотек в Азербайджане в годы советской власти и независимости, укреплении материально-технической базы библиотек, повышении кадрового потенциала, формировании государственной политики в области библиотечного дела.*

**Ключевые слова:** *библиотечное дело, материально-техническая база библиотек, кадровый потенциал библиотек, государственная политика в области библиотечного дела.*

**Solmaz Azay qızı Sadıqova,**
*Bakı Dövlət Universitetinin Sənəd menecmenti kafedrasının baş müəllimi, tarix üzrə fəlsəfə doktoru, dosent*
*solmaz_bdu@mail.ru*

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN MƏDƏNİYYƏTİ

**Xülasə:** *Azərbaycan mədəniyyəti və incəsənəti zəngindir, çoxçalarlıdır. Mədəniyyət dedikdə muzeylərimiz, kitabxanalarımız, ədəbiyyatımız, folklorumuz, ana dilimiz, muğamımız, kinomuz, teatr sənətimiz, tarixi abidələrimiz, xalça sənətimiz, memarlığımız, təsviri incəsənətimiz, monumental heykəltəraşlığımız, miniatür sənətimiz və başqa sahələr göz önündə canlanır. Bu sahələrdən hər hansı biri haqqında danışanda Ulu Öndər Heydər Əliyevin misilsiz xidmətlətini görürük. Milli və ümumbəşəri mədəniyyəti çox dərindən bilən xalqımızın böyük oğlu Heydər Əliyev mədəniyyətimizin inkişafı üçün hər zaman əzmkarlıq, fədakarlıq, təşəbbüs və yüksək təşkilatçılıq nümunəsi göstərmişdir.*

**Açar sözlər:** *Azərbaycan mədəniyyəti, muzeylərimiz, kitabxanalarımız, ədəbiyyatımız, folklorumuz, ana dilimiz, muğamımız, Heydər Əliyevin mədəniyyətimizə qayğısı*

Azərbaycan mədəniyyəti və incəsənətinin bugünkü səviyyəyə yüksəlməsində ümummilli lider Heydər Əliyevin misilsiz xidmətləri olmuşdur. Dahi rəhbər mədəniyyəti xalqın böyük sərvəti və iftixar mənbəyi hesab edirdi. “Fəxr edirəm ki, mən Azərbaycanlıyam”, – deyən ümummilli liderimiz Heydər Əliyev haqqında söz demək hər bir azərbaycanlıda iftixar duyğusu yaradır. Ulu öndər Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi dövrlərdə Azərbaycan mədəniyyəti və incəsənəti bütün sahələrdə uğurlu inkişaf yolu keçmişdir.

Ümummilli liderimiz öyrədirdi ki, mədəniyyət özündə əməkdaşlıq, müxtəlif sivilizasiyalara qarşılıqlı hörmət, mehriban qonşuluq, müxtəlif xalqlara ehtiram kimi prinsipləri ehtiva edir.

“Xalq bir çox xüsusiyyətlətilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir”. Bu sözlərin müəllifi Ümummilli Lider Heydər Əliyevdir [3].

Azərbaycan öz mədəniyyəti, incəsənəti, milli mənəvi dəyərləri ilə tanınmışdır. Xalqımızın milli-mənəvi dəyərlərinin kökləri çox-çox qədim zamanlara gedib çıxır. XX əsrdə isə xalqımızın mədəni həyatında yeni bir dövr baş-

lanmışdır. Bu, ulu öndər Heydər Əliyevin adı ilə bağlı olan bir dövrdür. Ulu Öndər Heydər Əliyev Azərbaycanın ən böyük sərvəti hesab olunan mili-mənəvi dəyərlər və mənəviyyatımızın sözün böyük mənasında hamisi idi. "Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz Azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq" – deyən Heydər Əliyev azərbaycançılığı milli bir ideologiya kimi irəli sürür, mədəniyyətimizi, mənəvi dəyərləri təkcə milli varlığımızın yox, həm də siyasi varlığımızın – dövlət quruculuğu işinin mühüm atributu kimi dəyərləndirirdi.

Mənsub olduğu xalqın tarixi keçmişinə, mədəni irsinə və mənəvi dəyərlər sisteminə böyük məhəbbət duyğularıyla yanaşan ümummilli lider həm də bu dəyərlərin qoruyucusu idi. Hələ ötən əsrin yetmişinci illərində görkəmli dövlət xadimi, müdrik şəxsiyyət kimi o yaxşı bilirdi ki, aydın və dərk olunmuş milli ideologiya hər bir xalqın irəliyə doğru inkişafının yol göstərəni və bələdçisidir. Milli dövlətçilik və milli-mənəvi dəyərlər sıx daxili vəhdətdədir. Yalnız milli kimliyi bəlli olan və özünü bir millət kimi dərk edən xalqın bitkin inkişaf proqramı ola bilər. Heydər Əliyev nəinki bu proqramı yaratdı, həm də onu qəbul etdirdi. "Mən fəxr edirəm ki, Azərbaycanlıyam" – deyən Ulu Öndər bütün həyatı boyu mənəvi-əxlaqi və dini dəyərlərimizin, adət-ənənələrimizin keşiyində durdu. Hələ sovetlər dönəmində tariximizin qədimliyi və zənginliyinin mühüm göstəricisi olan tarixi abidə və eksponatların qorunub saxlanılması və gələcək nəsillərə ötürülməsi məqsədilə Azərbaycanın bütün bölgələrində tarix – diyarşünaslıq muzeylərinin yaradılması haqqında sərəncam imzaladı. Azərbaycan folklorunun daha dərindən araşdırılması, aşıq sənətinin inkişafı, milli mərasimlərimizin təbliği istiqamətində ciddi tədbirlər həyata keçirdi. İti fəhmi ilə gələcək müstəqilliyi duyub – hiss edən Heydər Əliyev o illərdə milli-mənəvi intibah üçün zəmin hazırlayırdı.

Ümummilli lider Heydər Əliyev 1995-ci il iyun ayının 3-də Milli Kitabxanaya gələrək "Vətənə, dövlətə, xalqa sədaqət andı" kitabının təqdimat mərasimində demişdir: "*Kitab nəşri hər bir ölkənin, xalqın mədəniyyətində, ümumiyyətlə mənəvi, ictimai həyatında çox görkəmli yer tutur. Hər birimiz ilk növbədə ancaq kitab vasitəsilə təhsil, elm almışıq, həyatda yaşamağa, fəaliyyət göstərməyə hazırlaşmışıq. Ona görə də hər birimiz kitablara borcluyuq. Həm kitabları yazıb-yaratmaq, həm də onları nəşr etmək əsas vəzifələrimizdən biridir. Bunun üçün mümkün olan bütün tədbirləri görməliyik. Mən respublikanın prezidenti kimi bunu əsas vəzifələrimdən biri sayıram*" [1, 239 ].

Professor Kərim Tahirov yazır: "Heydər Əliyev 1995-1997-ci illərdə 4 dəfə M.F.Axundov adına Dövlət Kitabxanasında olmuş və həmin kitabxananın işləri ilə yaxından maraqlanmışdır. Bu səfərlər Milli Kitabxananın həyatında böyük

dönüşlə yadda qalmış və onun inkişafında əhəmiyyətli rol oynamışdır. Böyük fəxarət hissi ilə qeyd etmək lazımdır ki, hazırda özünün sürətli inkişaf və modernləşmə dövrünü yaşayan Azərbaycan Milli Kitabxanasının yenidənqurma konsepsiyasının əsası da XX əsrin 90-cı illərinin ortalarında ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuşdur” [2].

Ulu öndər Heydər Əliyevi səciyyələndirən xüsusiyyətlərdən biri də onun elmə, ədəbiyyata, incəsənətə və mədəniyyətə daim diqqət göstərməsidir. Onun qayğısı sayəsində 1969-1982-ci illərdə respublikamızda elmin bütün sahələri inkişaf etdi. Dünya miqyasında tanınan alimlərimiz tərəfindən fundamental əsərlər yaradıldı. Geniş profilli, yüksək ixtisaslı kadr potensialı yetişdi. Təəssüf ki, sonralar ölkədəki hakimiyyətsizlik, hərc-mərclik dövründə həmin sahə unuduldu. Heydər Əliyev xalqın tələbi ilə yenidən hakimiyyətə qayıtdı və elmimizi də məhv olmaq təhlükəsindən qurtardı. Elmlər Akademiyasının normal fəaliyyəti üçün hər cür şərait yaradıldı. Hazırda respublikamızda onlarla ali məktəb fəaliyyət göstərir, elmi-tədqiqat institutları elmimizin inkişafına layiqli töhfələr verir. Bütün bunlar respublikamızda yaradılmış sabitliyin, əmin-amanlığın, işgüzar fəaliyyətin nəticəsidir. Bu isə, şübhəsiz, xalqımızın böyük oğlu Heydər Əliyevin adı ilə bağlı idi. Azərbaycan Prezidenti məsələni bu cür qoyur: “Ümumi çətinlik nə qədər çox olsa da biz elmə, təhsilə daim qayğı göstərməliyik və elmin inkişafı üçün mövcud imkanlardan daha da çox istifadə etməliyik”.

Yaxud mədəniyyəti götürək. İqtisadi vəziyyətin çətin olmasına baxmayaraq, 1969-1982-ci illərdə respublikamızda 3677 klub, 4794 kütləvi kitabxana, 906 kino qurğusu, 25 peşəkar teatr, 4 filarmoniya, 7 musiqi kollektivi, 164 muzey, 30 şəkil qalereyası, 2 bədii sərgi salonu, 225 musiqi və incəsənət məktəbi yaradılıb. H.Əliyevin diqqət və qayğısı sayəsində doğma Bakımız dünyanın ən möhtəşəm memarlıq tələblərinə cavab verən, orijinal görünüşə malik arxitektura nümunəsinə çevrilib. Misilsiz sənət abidələri olan “Gülüstan” və “Respublika” sarayları idman kompleksi, kondisioner zavodu, neçə-neçə inzibati və yaşayış binaları, yazıçı, şair və ictimai-siyasi xadimlər üçün ucaldılmış heykəllər Prezidentimizi tarixdə yaşadacaq.

Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi dövrdə bütün rayon mərkəzləri öz görkəmini dəyişmişdi. Əvvəlki, miskil durumdan əsər-əlamət qalmamışdı. Ədəbiyyatın, incəsənətin inkişafı diqqət mərkəzində qalmışdı. Diyarımızda geniş vüsət almış abadlıq və quruculuq tədbirləri mədəniyyət və incəsənət müəssisələrini də əhatə etmişdir. Muxtar respublikada mədəniyyət müəssisələri, muzeylər, kitabxanalar, teatrlar, musiqi məktəbləri üçün yeni binalar inşa olunmuş və ya əsaslı təmir edilərək istifadəyə verilmişdir. Mədəniyyət və incəsənət müəssisələri ən müasir inventar və avadanlıqlarla

təmin edilmiş, peşəkar musiqi və folklor kollektivləri, qrupları, bədii özfəaliyyət ansamblları dövlət qayğısı ilə əhatə olunmuşdur.

Sərgilər, konsertlər, tamaşa proqramları, ədəbiyyat gecələri, kitab təqdimatları, elmi toplantılar, dünyanın müxtəlif ölkələrində yüksək səviyyədə keçirilən Azərbaycan mədəniyyəti və incəsənəti günləri, bütün bu tədbirlər xalqımızın ümummilli lider Heydər Əliyevə olan dərin və sonsuz məhəbbətindən güc almışdır. Bu mənəvi birlik ümumən Azərbaycan mədəniyyətinin, incəsənətinin, musiqisinin təntənəsidir. Xalqımızın böyük oğlu Heydər Əliyevin milli-mədəni intibah amalı bu gün də yaşayır və gələcəkdə də yaşayacaqdır.

Bununla yanaşı, Heydər Əliyevin mədəniyyət siyasətinin reallaşması işində bu gün ulu öndərin adını şərəflə daşıyan Fondun böyük xidmətləri vardır. Milli-mənəvi dəyərlərimizə qayğı, onların qorunması və təbliğində Heydər Əliyev Fondunun prezidenti, Mehriban xanım Əliyevanın xidmətləri əvəzsizdir. Fondun müğam sənətimizin inkişafına, Azərbaycan mədəniyyətinin dünyada tanınmasına, milli-mənəvi dəyərlərimizin təbliğinə həsr etdiyi davamlı tədbirlər olduqca əhəmiyyətlidir.

Özünəməxsus memarlıq görünüşü olan paytaxtımız XXI əsrdə də adı dünyanın inkişaf etmiş şəhərləri sırasında çəkilir. Dünya praktikasından bəllidir ki, sivil ölkələr tərəqqiyə məhz bazar iqtisadiyyatı sayəsində çatmışlar. Bu baxımdan İstanbulu, Romanı, Parisi, Dubayı, Nyu-Yorku göstərmək olar.

Heydər Əliyev həmişə yaradıcı ziyalılara yüksək qiymət verir. Bu mənada onun ədəbiyyat və incəsənət xadimlərinə münasibəti diqqətəlayiqdir. Yazıçı və şairlərin mədəni irsinə qayğı, onların kitablarının nəşri, ayrı-ayrı incəsənət xadimlərinin yubileylərinin keçirilməsi olduqca tədqirəlayiq işdir və bütün bunlar dövlət səviyyəsində aparılır.

Azərbaycan Prezidentinin müdrikliyi və uzaqgörənliyi respublikamızın hüdudlarını çoxdan aşmışdı. Dahi Azərbaycan şairi Nizami Gəncəvinin bu gün Lüksemburqda Rusiya Federasiyası səfirliyinin binası önündə yad edilməsi bunu aydın sübut edir. Dahi Azərbaycan mütəfəkkiri Məhəmməd Füzulinin 500 illik yubileyinə türkdilli dövlətlər qurumundan nümayəndələrin gəlməsi, N.Nərimanovun Tbilisidə ev-muzeyinin açılması, Ulyanovskidə büstünün qoyulması, Molla Pənah Vaqifin Şuşadakı məqbərəsinin açılması, H.Cavidin qəbrinin Sibirdən doğma torpağı Naxçıvana gətirilməsi və orada dəfn edilməsi Heydər Əliyevin Azərbaycan mədəniyyətinə dair siyasətinin bir hissəsidir.

Heydər Əliyevin sərəncamı ilə “Dədə Qorqud”un 1300 illik yubileyinin təntənəli surətdə qeyd olunması bunun bariz nümunəsidir. Bu gün möhtərəm prezidentimiz İlham Əliyev sabaha böyük inamla baxır. O, Azərbaycanın gələcəyi haqqında düşünür və fəaliyyət göstərir.

## Ədəbiyyat


1. Əliyev, H. Müstəqilliyimiz əbədidir: K.3.- Bakı: Azərnəşr, 1997.- 488 s.
2. Tahirov, K. Böyük şəxsiyyətin kitab sevgisi //Xalq qəzeti.- 2016.- 4 may. URL: https://old.xalqqazeti.com/az/news/politics/70769
3. https://heydar-aliyev-foundation.org/az/content/index/85/


## Great leader Heydar Aliyev and the culture of Azerbaıjan


**Summary:** *Azerbaijani culture and art are rich and multifaceted. When we talk about culture, our museums, libraries, literature, folklore, native language, mugham, cinema, theatrical art, historical monuments, carpet art, architecture, fine art, monumental sculpture, miniature art and other areas come to mind. When we talk about any of these areas, we see the unparalleled service of Great Leader Heydar Aliyev. The eldest son of our people, Heydar Aliyev, who deeply knows the national and universal culture, has always set an example of perseverance, purposefulness, initiative and high organization in the development of our culture.*



**Key words:** *Azerbaijani culture, our museums, libraries, literature, folklore, our native language, our mugham, Heydar Aliyev's concern for our culture.*


## Великий лидер Гейдар Алиев и культура Азербайджана


**Резюме:** *Азербайджанская культура и искусство богаты и многогранны. Когда мы говорим о культуре, на ум приходят наши музеи, библиотеки, литература, фольклор, родной язык, мугам, кино, театральное искусство, исторические памятники, ковровое искусство, архитектура, изобразительное искусство, монументальная скульптура, искусство миниатюры и другие направления. Когда мы говорим о любой из этих сфер, мы видим беспримерное служение Великого лидера Гейдара Алиева. Старший сын нашего народа Гейдар Алиев, глубоко знающий национальную и общечеловеческую культуру, всегда подавал пример настойчивости, целеустремленности, инициативы и высокой организованности в деле развития нашей культуры.*



**Ключевые слова:** *Азербайджанская культура, наши музеи, библиотеки, литература, фольклор, наш родной язык, наш мугам, забота Гейдара Алиева о нашей культуре.*

**Natiq Rəşid oğlu Mürsəlov,**
*ADMİU-nun Kitabxana-İnformasiya Mərkəzinin biblioqrafı,*
*Turizm və kitabxana-informasiya fəaliyyəti kafedrasının müəllimi,*
*AMEA-nın doktorantı*
*natiq.doktorant@mail.ru*

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA ƏQLİ MÜLKİYYƏT HÜQUQUNUN KİTABXANA-İNFORMASİYA TƏMİNATI

**Xülasə:** *Məqalədə Ulu öndər Heydər Əliyevin müstəqillik dövründə dövlət quruculuğu siyasətində əqli mülkiyyətə göstərdiyi xüsusi diqqət və qayğı təhlilə cəlb olunur. Ümummilli liderin rəhbərliyi ilə Azərbaycanda formalaşan vətəndaş cəmiyyəti şəraitində əqli mülkiyyətə dair qanunvericilik aktları müəllif tərəfindən hərtərəfli öyrənilir. Tədqiqat işində patent münasibətləri üzrə beynəlxalq konvensiyalar, eləcə də müəlliflik və əlaqəli hüquqlara dair beynəlxalq sənədlər kompleks araşdırılır. Normativ hüquqi aktların əqli mülkiyyətin kitabxana-informasiya sistemindəki yeri, əhəmiyyəti və tələbatçıların sorğularının təminatında onlardan istifadə məsələləri təhlil edilir.*

**Açar sözlər:** *intellektual əmək, yaradıcılıq, müəllif, normativ hüquqi akt, patent, beynəlxalq konvensiya.*

**Giriş.** Müstəqilliyin bərpasından (1991) sonrakı dövrdə milli əqli mülkiyyət hüququnun formalaşması və inkişafı Azərbaycan xalqının ulu öndəri Heydər Əliyevin təşəbbüsü və daimi dəstəyi ilə mümkün olmuşdur. 1993-2000-ci illəri əhatə edən bu mərhələni 2 dövrə ayırmaq olar. Birinci dövr (1993-cü ilin sonu - 1996-cı illər) özündə icra hakimiyyəti orqanı statusunda müəllif-hüquq təşkilatı və sisteminin yaradılması, eləcə də təşəkkül mərhələsini əhatə edir. Bu müddəti respublikanın müstəqillik tarixində ilk dəfə olaraq Konstitusiyası səviyyəsində müəlliflik hüququ və əlaqəli hüquqların, o cümlədən digər əqli mülkiyyət hüquqlarının qorunmasının təsbit olunması, Azərbaycanın Müstəqil Dövlətlər Birliyi (MDB) çərçivəsində əməkdaşlığa qoşulması, ölkəmizin "Müəllif hüququ haqqında" Ümumdünya Konvensiyasında iştirakının davam etdirilməsi barədə qərarların qəbul edilməsi ilə xarakterizə etmək mümkündür.

Müstəqillik illərində əqli mülkiyyətin inkişafının ikinci mərhələsi əqli mülkiyyət sisteminin möhkəmlənməsi və inkişaf dövrünü (1997-2000-ci illəri) əhatə edir. Bu dövrdə Ümummilli liderin uzaqgörün dövlət siyasəti nəticəsində əqli mülkiyyət hüquqlarının qorunması, idarəçiliyi və müdafiəsi üzrə bütün normativ-hüquqi bazanın yaradılması təmin edilmiş və Azərbaycanın beynəl-

xalq aləmdə tanınması prosesi baş vermişdir. 2001-ci ildən günümüzədək müasir mərhələni əhatə edən dövrdə Azərbaycanda milli əqli mülkiyyətin yüksək beynəlxalq standartlara uyğunlaşdırılması prosesi uğurla davam etdirilmişdir. Bu dövrdə müəllif və patent hüququnun fəaliyyətinin təşkilati, institutsional və hüquqi tərəflərinin inkişaf etmiş ölkələrin (Aİ, ABŞ) səviyyəsinə çatdırılması işləri görülmüşdür. Əqli mülkiyyət qanunvericiliyinə yeni tendensiyalardan irəli gələn dəyişikliklər edilmiş, yeni normativ-hüquqi aktlar hazırlanmış və tətbiq edilmişdir.

Hüquqi baxımdan əqli mülkiyyət sahəsində əldə olunan bütün vacib nailiyyətlərin düzgün qiymətləndirilməsi və onlardan səmərəli istifadə olunması müasir kitabxanaçılıq və informasiya fəaliyyətində mühüm əhəmiyyət kəsb edir. Hesab edirik ki, bu aktual mövzuda informasiya tələbatçılarının sorğularının operativ və dolğun ödənilməsi istiqamətində kitabxanaların üzərinə düşən vəzifə və öhdəliklər layiqincə yerinə yetirilməlidir. Belə öhdəliklərdən biri də, kitabxanaçı və biblioqrafların xidmət prosesində əqli mülkiyyətə dair hüquq sisteminin sənəd-informasiya təminatını dərindən və hərtərəfli bilməsi ilə əlaqədardır.

**Əsas mətn.** Azərbaycanda əqli mülkiyyət hüququnun əsas baza prinsipləri Konstitusiyanın 30-cu maddəsində öz əksini tapmışdır: "Hər kəsin əqli mülkiyyət hüququ vardır. Müəlliflik hüququ, ixtiraçılıq hüququ və əqli mülkiyyət hüququnun başqa növləri qanunla qorunur" [1, s.27]. Bu müddəa yaradıcılıq müstəqilliyini təmin etməklə təyinatından, dəyərindən və məzmunundan, habelə ifadə formasından və üsulundan asılı olmayaraq yaradıcılıq fəaliyyətinin nəticəsi olan bütün elm, ədəbiyyat və incəsənət əsərlərinin qorunmasına hüquqi baza yaradır. Eyni zamanda, obyektiv formada olan hər hansı yaradıcılıq nəticəsini qorumaqla yaradıcı şəxslərə mövzu, janr və forma seçimində tam azadlıq və müstəqillik imkanı yaratmış olur.

Konstitusiyanın normasını aydınlaşdırmaq və əqli mülkiyyətin qorunmasının normativ hüquqi bazasını formalaşdırmaq üçün Azərbaycan Respublikasının Milli Məclisində bir sıra qanunlar qəbul olunmuş və bir çox beynəlxalq razılaşmalar təsdiq edilmişdir: "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Qanun (1996); "Seleksiya nailiyyətləri haqqında" Qanun (1996); "Patent haqqında" Qanun (1997); "Reklam haqqında" Qanun (1997); "Kinematoqrafiya haqqında" Qanun (1998); "Memarlıq fəaliyyəti haqqında" Qanun (1998); "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Qanun (1998); "Kommersiya sirri haqqında" Qanun (2001); "İnteqral sxem topologiyalarının hüquqi qorunması haqqında" Qanun (2002); "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında" Qanun (2003); "Məlumat toplularının hüquqi qorunması haqqında" Qanun (2004); "Mədəniyyət haqqında"

Qanun (2012); “Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında” Qanun (2012) və “Media haqqında” Qanun (2021) [3].

Azərbaycanda keçmiş Sovet hakimiyyəti illəri də daxil olmaqla ilk dəfə 1996-cı ildə “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Qanunun (5 bölmə 47 maddə) [4] qəbul edilməsi bu sahədə müstəqillik dövrünün ən böyük nailiyyətidir. Çünki, milli xüsusiyyətlərimizin nəzərə alınması ilə qəbul edilmiş bu qanun eyni zamanda sivil cəmiyyətlərin bütün standartlarına uyğun gəlir. Qanun Azərbaycan Respublikası ərazisində elm, ədəbiyyat və incəsənət əsərlərinin (müəlliflik hüququ), habelə ifaların, fonoqramların, efir və ya kabel yayımı təşkilatlarının verilişlərinin (əlaqəli hüquqlar) yaradılması və istifadəsi ilə əlaqədar yaranan münasibətləri tənzimləyir.

Ölkəmizdə seleksiya nailiyyətlərinin qeydiyyatı, istifadəsi və mühafizəsinin hüquqi əsaslarını “Seleksiya nailiyyətləri haqqında” Qanun (8 fəsil 34 maddə) [2] müəyyən edir.

“Patent haqqında” Qanunla (7 fəsil 44 maddə) [5] ixtiraların, faydalı modellərin və sənaye nümunələrinin yaradılması, hüquqi mühafizəsi və istifadəsi ilə əlaqədar yaranan əmlak münasibətləri və onlarla bağlı şəxsi qeyri-əmlak münasibətləri tənzimlənir. Sənədin müvafiq bəndlərinə görə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə başqa hal nəzərdə tutulmayıbsa, Azərbaycanda müvəqqəti və ya daimi yaşayış icazəsi olmayan xarici fiziki və ya hüquqi şəxslər öz ixtiralarının qorunması ilə bağlı yerli hüquqi və fiziki şəxslərlə eyni hüquqlara malik hesab olunurlar.

“Reklam haqqında” Qanun (4 fəsil 40 maddə) [2] reklama müəlliflik hüququnun olması barədə qayda nəzərdə tutur. Reklam müəlliflik hüququnun obyektləri sırasına aid edilir. Buna görə də, reklama müəllif hüququ qorunur.

“Kinematoqrafiya haqqında” Qanun (5 fəsil 16 maddə) [4] müəlliflik münasibətlərini tənzimləyən bir sıra normalar nəzərdə tutur. Qanuna görə kinematoqrafiya sahəsində müəlliflik hüququ yaranır və bu hüquq müəlliflik qanunvericiliyinə uyğun olaraq həyata keçirilir.

“Memarlıq fəaliyyəti haqqında” Qanunda (3 fəsil 14 maddə) [4] bir sıra elə normalar nəzərdə tutulur ki, bu normalar hüquqi xarakterli müəlliflik münasibətlərini tənzimləyir. Qanunun müddəalarına əsasən memarlıq fəaliyyəti sahəsində müəlliflik hüququ yaranır. Burada memarlıq layihəsi müəllifinin həm əmlak xarakterli, həm də şəxsi qeyri-əmlak xarakterli hüquqları nəzərdə tutulur.

“Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Qanun (6 fəsil 37 maddə) [2] Azərbaycan Respublikasında əmtəə nişanlarının və coğrafi göstəricilərin qeydə alınması, hüquqi mühafizəsi və istifadəsi ilə bağlı münasibətləri tənzimləyir. Bu hüquqi sənəddə qeyd olunur ki, Azərbaycanda qeydiy-

yata alınmamış, lakin Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun qüvvədə olan əmtəə nişanları və coğrafi göstəricilər də mühafizə olunur.

"Kommersiya sirri haqqında" Qanun (5 fəsil 18 maddə) [6, s.348] ölkəmizdə kommersiya sirri ilə əlaqədar yaranan münasibətləri tənzimləyir. Normativ hüquqi akta görə Azərbaycanda bütün hüquqi və fiziki şəxslərin kommersiya sirrini təşkil edən məlumatlarının, onların ifadə edilməsi üsulundan və daşıyıcısından asılı olmayaraq qorunma hüququ vardır.

"İnteqral sxem topologiyalarının hüquqi qorunması haqqında" Qanun (3 fəsil 15 maddə) [2] respublika ərazisində inteqral sxem topologiyalarının yaranması, hüquqi qorunması və istifadəsi ilə əlaqədar yaranan münasibətləri tənzimləyir.

"Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında" Qanunda (4 fəsil 16 maddə) [4] xalqımızın mədəni irsinin tərkib hissəsi olan milli folklor nümunələrinin əqli mülkiyyətin xüsusi növü kimi hüquqi qorunması, istifadəsi və müdafiəsinin təminatı ilə əlaqədar yaranan münasibətlərin hüquqi məsələləri öz əksini tapmışdır.

"Məlumat toplularının hüquqi qorunması haqqında" Qanun (6 fəsil 20 maddə) [2] formasından asılı olmayaraq məlumat toplularının yaradılması və istifadəsi ilə bağlı yaranan hüquqi münasibətlərin tənzimlənməsini nəzərdə tutur.

"Mədəniyyət haqqında" Qanunda (11 fəsil 57 maddə) [4] müəlliflik münasibətlərinə toxunan bir sıra normalar öz əksini tapmışdır. Burada yaradıcılıq azadlığı, əqli əmək məhsullarına əqli mülkiyyət hüququ və digər məsələlər barədə vacib göstərişlər ifadə olunur.

Əqli mülkiyyət hüquqlarının müdafiəsinin təmin edilməsi, əqli mülkiyyət hüquqları sahiblərinin maraqlarının qorunması və bu sahədə hüquqpozmaların, o cümlədən müvafiq əqli mülkiyyət obyektlərinin nüsxələrinin qeyri-qanuni istehsalı və yayılmasının qarşısının alınması ilə bağlı yaranan münasibətləri "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Qanun (4 fəsil 17 maddə) [4] tənzimləyir.

"Media haqqında" Qanun (9 fəsil 78 maddə) Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 10-cu və 13-cü bəndlərinə uyğun olaraq, media sahəsində fəaliyyətin təşkilati, hüquqi və iqtisadi əsaslarını, həmçinin kütləvi informasiyanın əldə edilməsi, hazırlanması, ötürülməsi, istehsalı və yayımının ümumi qaydalarını müəyyən edir.

Qeyd olunan sahəvi normativ hüquqi sənədlərlə yanaşı əqli mülkiyyət hüququnun pozulmasının qarşısının alınması məqsədilə aşağıdakı əsas qanunlar da nəzərdə tutulub:

- "Antiinhisar fəaliyyəti haqqında" Qanun (1993);

- "Haqsız rəqabət haqqında" Qanun (1995);
- Cinayət Məcəlləsi (1999);
- Mülki Prosessual Məcəllə (1999);
- İnzibati Xətalar Məcəlləsi (2015).

Bu qanun və məcəllələrdə əqli mülkiyyət hüqunun pozulması ilə əlaqədar bir sıra maddələr təsbit olunmuşdur. Onlar, əqli mülkiyyət obyektlərinin qanunsuz istifadəsi, idxalı, istehsalı, ixracı, bazarda yerləşdirilməsi və digər əlaqədar fəaliyyətləri qadağan edən normalardan ibarətdir.

Əqli mülkiyyətin hüquqi bazasına həm də Azərbaycan Respublikasının qanun qüvvəli aktları da daxildir. Söhbət ilk növbədə, Prezident fərmanlarından, habelə Nazirlər Kabinetinin qərarlarından gedir. Bunlardan əlavə, əqli mülkiyyət qanunvericiliyinə Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin normativ aktları da aiddir. Mərkəzi icra hakimiyyəti orqanı olan, habelə əqli mülkiyyət sahəsində dövlət siyasətini həyata keçirən agentlik öz səlahiyyətləri daxilində əlaqədar təşkilat və idarələr üçün yerinə yetirilməsi məcburi olan qərar, təlimat və izahatlar vermək hüququna malikdir.

Beynəlxalq müqavilələr (konvensiyalar) əqli mülkiyyət hüququnun əsas mənbələrindən biri sayılır. Söhbət Azərbaycan Respublikasının iştirakçısı olduğu beynəlxalq hüquqi aktlardan gedir. Beynəlxalq müqavilələrin (konvensiyaların) əqli mülkiyyət münasibətlərinin tənzimlənməsində əhəmiyyəti və rolu son dərəcə böyükdür. Ona görə ki, onların hüquqi qüvvəsi Azərbaycan Respublikasının daxili (milli) əqli mülkiyyət qanunvericiliyinin hüquqi qüvvəsindən üstündür. Məhz bu səbəbdən, Azərbaycan Respublikasının iştirakçısı olduğu beynəlxalq müqavilələrdə nəzərdə tutulan qaydalar əqli mülkiyyət qanunvericiliyində müəyyən edilmiş normalardan fərqli olduqda, beynəlxalq müqavilələrin qaydaları tətbiq edilir. İndi isə bu sənədlərin qısa xarakteristikasına nəzər yetirək.

Patent münasibətlərinə dair hüquqların nələrdən ibarət olduğunu tənzimləyən ilk beynəlxalq müqavilə olan "Sənaye mülkiyyətinin mühafizəsi üzrə Paris Konvensiyası" 20 mart 1883-cü ildə qüvvəyə minmişdir. Konvensiyanın ilk maddəsinin 1-ci hissəsində qeyd edilir ki, sənaye mülkiyyəti hüquqlarının mühafizəsi üçün, bu konvensiyanın tətbiq edildiyi ölkələr tərəfindən bir təşkilat təsis edilmişdir. Paris konvensiyasının məzmunundan danışarkən ilk növbədə qeyd etmək lazımdır ki, bu konvensiya beynəlxalq patentin verilməsi məsələlərinə aid deyil. Müəyyən bir ölkənin ixtirasını konvensiyanın üzvü olan hər hansı digər ölkədə rüsum ödəmədən sərbəst istifadəsinə ixtiyar verilir, əgər həmin ixtira əlaqədar ölkədə patent almayıbsa.

Konvensiyasının şərtlərinə görə, hər hansı ölkədən digər bir ölkəyə patentə aid sənədinin verilməsi əlaqədar ölkənin milli patent qanununa əsasən müəyyən

edilir. Bu şərt xarici ölkələrdə ixtiraların patent alması üçün əlverişli şərait yaradır. Belə ki, Paris konvensiyasının üzvü olan ölkələrin patent qanunları müxtəlifdir.

"Nişanların qeydiyyatı üçün əmtəə və xidmətlərin beynəlxalq təsnifatı haqqında" Nitsa Sazişi 1957-ci ildə bağlanmış və onun əsas məqsədi əmtəə nişanlarının qeydiyyatına məhsul və xidmətlərin təsnifatını beynəlxalq qaydalara uyğunlaşdırmaqdır. Nitsa Sazişinə Azərbaycan Respublikası 2003-cü ildə qoşulmuşdur.

Əqli mülkiyyət sahəsində mühüm sənədlərdən biri olan 1967-ci ildə Stokholmda bağlanmış "Ümumdünya Əqli Mülkiyyət Təşkilatının təsisinə dair Stokholm Konvensiyası"na Azərbaycan 1995-ci ildə üzv olmuşdur.

Ümumdünya Əqli Mülkiyyət Təşkilatının "Sənaye nümunələrinin beynəlxalq təsnifatının təsisi haqqında Lokarno Sazişi" 1968-ci ildə imzalanmış və 1971-ci ildə qüvvəyə minmişdir. Sazişin məqsədi sənaye nümunələrinin təsnifatını vahid bir sistemlə həyata keçirmək, üzv ölkələr arasında ahəngi təmin etməkdir. Həmin sazişə ölkəmiz 2003-cü ildə qoşulmuşdur.

Ümumdünya Əqli Mülkiyyət Təşkilatının "Beynəlxalq Patent Təsnifatı haqqında Strasburq Sazişi" 1971-ci ildə imzalanmışdır və əsas məqsədi patentlərin beynəlxalq təsnifatını təmin etməkdir. Azərbaycan 2003-cü ildən sazişə daxil olmuşdur.

1977-ci ildə qüvvəyə minmiş "Patent proseduru məqsədləri üçün mikroorqanizmlərin depozitləşdirilməsinin beynəlxalq tanınması haqqında Budapeşt müqaviləsi"nə ölkəmiz 2003-cü ildə qoşulmuşdur.

1989-cu ildə qüvvəyə minmiş "Nişanların beynəlxalq qeydiyyatı haqqında" Madrid Sazişinə Azərbaycan Respublikası 2006-cı ildə qoşulmuşdur.

Müəlliflik və əlaqəli hüquqlar üzrə münasibətlərə dair beynəlxalq sənədlərdən söhbət açarkən isə ilk növbədə ədəbi və bədii əsərlərin qorunması barədə Bern konvensiyasından danışmaq zəruridir. Konvensiya müəlliflik hüququ sahəsində ilk və əsas çoxtərəfli beynəlxalq müqavilələrdən biridir və 9 sentyabr 1886-cı il tarixdə qəbul edilmişdir. Hazırda konvensiyada 148 dövlət iştirak edir. Azərbaycan Respublikası 1998-ci ildən Bern konvensiyanın iştirakçısıdır. Bu beynəlxalq sənədin əsas məqsədi müəllifin ədəbi və bədii əsərləri barəsində olan hüquqlarını səmərəli və vahid şəkildə qorumaqdan ibarətdir.

Bern konvensiyası üç prinsipə əsaslanır. Bunlardan biri milli rejim prinsipi adlanır. Bu prinsipə görə konvensiyanın iştirkaçısı olan ölkədə yaradılan əsər bütün başqa üzv ölkələrində eyni qaydada qorunur. İkinci prinsip avtomatik mühafizə prinsipidir. Bu prinsipə görə milli rejim hər hansı formal şərtdən asılı deyildir, yəni əsər avtomatik surətdə qorunur və formal qeydiyyat şərtlərindən və s. asılı deyildir. Üçüncü prinsip isə mühafizənin asılı olmaması prinsipi

adlanır. Bu prinsipə görə iştirakçı dövlətlərdə əsər yarandığı ölkədə mühafizə edilməsindən asılı olmayaraq qorunur. Konvensiyanın bir sıra müddəaları (müəlliflik hüququnun qüvvədə olma müddəti, müəllifin müstəsna hüquqları və s.) Azərbaycan Respublikasının müəlliflik hüququ barədə qanununda təkrarlanır.

"Müəlliflik hüququ barədə Ümumdünya Cenevrə Konvensiyası" müəlliflik münasibətlərini tənzimləyən ikinci əsas çoxtərəfli beynəlxalq sazişdir. Konvensiya 1952-ci ildə Cenevrədə imzalanmışdır. Onda indiyə kimi 97 dövlət iştirak edir. Azərbaycan Respublikası da konvensiya iştirakçısıdır. Ümumdünya konvensiyası tənzimetmə predmetinə görə Bern konvensiyasını təkrarlayır. Bu konvensiya da milli rejim prinsipindən çıxış edir. Milli rejim haqqında qayda Ümumdünya konvensiyasının əsas qaydasıdır. Lakin göstərilən konvensiyalar arasında müəyyən fərqli cəhətlər də vardır. Məsələn, Bern konvensiyasında müəllifin bir neçə səlahiyyəti nəzərdə tutulduğu halda, Ümumdünya konvensiyası onun yalnız xüsusi olaraq bircə səlahiyyətini - əsəri tərcümə etdirmək səlahiyyətini tənzimləyir.

1961-ci ildə bağlanmış "İfaçıların, fonoqram istehsalçılarının və yayım təşkilatlarının hüquqlarının qorunması haqqında Roma Konvensiyası" əlaqəli hüquqların mühafizəsinə dair beynəlxalq standartlar qəbul edildiyi ilk beynəlxalq müqavilədir. Bu konvensiyada ifaçıların (müğənnilərin), fonoqram istehsalçılarının və radio-televiziya sahiblərinin hüquqları tənzimləmişdir. Həmin konvensiya ilə əlaqəli hüquq sahiblərinin tərifi verildiyi kimi, onların hüquqları və mühafizə müddətləri təfsilatlı olaraq tənzimlənmişdir. Ölkəmiz Roma Konvensiyasına 2005-ci ildə qoşulmuşdur.

1971-ci ildə qüvvəyə minmiş "İfaçıların, fonoqram istehsalçılarının və yayım təşkilatlarının hüquqlarının qorunması haqqında Cenevrə Konvensiyası" ilə fonoqram istehsalçılarının mühafizəsinin fonoqramların icazəsiz çoxaldılmasının qarşısının alınması ilə təmin edilməyə çalışılmışdır. Həmin konvensiyaya Azərbaycan 2001-ci ildə qoşulmuşdur.

Ümumdünya Əqli Mülkiyyət Təşkilatının qəbul etdiyi "Müəlliflik Hüququna dair Müqavilə" 1996-cı ildə imzalanmışdır. 2002-ci ildə qüvvəyə minmiş bu müqavilə beynəlxalq standartları Bern Konvensiyasında qeyd olunmuş müəllif hüququ sahiblərinin hüquqları ilə bağlı olaraq meydana gəlmiş yenilikləri əhatə edir. "Bu müqavilə kompüter proqramları ilə məlumat bazalarının tərifini vermiş və mühafizə altında olduğunu qəbul etmişdir. Müqavilə müəllif hüququ sahibinin yayma, kirayə vermə, ictimaiyyətə çatdırma hüquqlarını tənzimləndiyi kimi, mühüm əhəmiyyətə sahib olan texniki üsullara dair vəzifələr və hüququn idarə olunması üsuluna dair vəzifələr də tənzim-

lənmiş, hüququn pozulması halında məsuliyyət qəbul olunmuşdur" [6, s.416]. Ölkəmiz bu müqaviləyə 2005-ci ildə qoşulmuşdur.

Nəhayət, əqli mülkiyyətə dair sonuncu beynəlxalq sənəd olan 2013-cü il 27 iyun tarixli "Dərc olunmuş əsərlərin kor, görmə qüsurlu və ya çap məhsullarını oxumaqla bağlı başqa əlilliyi olan şəxslər üçün əlçatanlığını asanlaşdırmağa dair Mərakeş Müqaviləsi"ni Azərbaycan Respublikası 2018-ci ildə imzalamışdır.

**Nəticə.** Tədqiqatın nəticəsi olaraq belə bir qənaətə gəlmək olar ki, müstəqil inkişaf yollarını daim arayan və buna nail olan Azərbaycan bu gün ölkə rəhbərliyinin təşəbbüsü ilə başlamış və müsbət inkişaf üçün bütün imkanları optimallaşdırmağa yönələn islahatların yeni mərhələsindən keçir və yeniləşmə cəmiyyətin həyatının bütün sahələrini əhatə edir. Yeni dərc olunmuş "Doing Business - 2022" hesabatında Azərbaycan islahatçı 20 ölkə sırasına daxil edilmişdir. Dünya İqtisadi Forumunun Qlobal Rəqabətqabiliyyətlilik İndeksi (GCI) - 2022 hesabatında Azərbaycan qanunvericiliyin effektivliyinə görə – 13-cü, hökumətin dəyişikliklərə olan reaksiyasına görə – 5-ci və hökumətin gələcəyə yönəlmiş fəaliyyətinə, uzaqgörənliyinə görə – 10-cu yerləri tutur.

Bu cür kardinal dəyişikliklər Azərbaycanın yeniləşməsinin növbəti, dördüncü sənaye inqilabının fəal iştirakçısı, sosial-iqtisadi islahatların reallaşdırılmasına malik olmasının, innovativ inkişaf yolunun tərkib hissəsi kimi əqli mülkiyyət sahəsinin inkişafında və əqli mülkiyyətin qorunmasında öz əksini tapır. Belə ki, son Rəqabətqabiliyyətlilik İndeksinə əsasən, Azərbaycan 141 ölkə arasında "mülkiyyət hüquqlarının qorunması" üzrə 37-ci yerdə və "əqli mülkiyyətin qorunması" göstəricisinə görə 30-cu yerdə qərarlaşmışdır. Bütün bunlar Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan, cənab İlham Əliyevin islahatlarının dərinləşdirilməsinin qiymətləndirilməsidir, islahatların davamlılığına verilən beynəlxalq dəyərdir. Dövlət başçısının göstərişlərindən irəli gələn çevik, daha yığcam və daha məqsədyönlü struktur vasitəsilə sahələrin idarə edilməsi, şəffaflığın, səmərəliliyin və cavabdehliyin təmin olunması məqsədilə Əqli Mülkiyyət Agentliyi yaradılmışdır. Onun mandatı həm müəlliflik hüquqları və əlaqəli hüquqlar sahəsini, həm də sənaye mülkiyyəti sahəsini əhatə edir. Agentliyin tabeliyində iki mərkəz – Patent və Əmtəə Nişanlarının Ekspertizası və Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzləri yaradılmış, Respublika Elmi-Texniki Kitabxanası onun tərkibinə verilmişdir.

**Ədəbiyyat**

**1.** Allahverdiyev, S. Azərbaycan Respublikasının mülki hüququ. III cild. IV kitab: dərslik.- Bakı, 2008.- 700 s.

**2.** Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin rəsmi veb səhifəsi: [Elektron resurs].- URL: https://patent.copat.gov.az/?sid=306

**3.** Əqli mülkiyyət hüquqları: məqalələr toplusu: [Elektron resurs].- URL: http://anl.az/el/Kitab/2016/Ar2013-2650.pdf

**4.** İsayev, N. İntellektual mülkiyyət anlayışı və onun hüquqi qorunma sistemi. 1-ci məqalə: [Elektron resurs].- URL: http://www.musigi-dunya.az/ new/ read_ magazine.asp?

**5.** Patent haqqında Azərbaycan Respublikasının Qanunu /25 iyul 1997-ci ildə qəbul olunmuşdur. - Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Hüquqi aktların vahid elektron bazası.- URL: http://www.e-qanun.az/framework/3934

**6.** Rüstəmov, Ə. Patentlər və əmtəə nişanları: tərtibi, mühafizəsi, axtarışı.- Bakı, 2004.- 443 s.

## Heydar Aliyev and library-information system of intellectual property law in Azerbaijan

**Summary:** *In the article, the great leader Heydar Aliyev's special attention and care to intellectual property in the state building policy during the period of independence is involved in the analysis. Under the leadership of the national leader, the legislative acts on intellectual property in the conditions of the civil society formed in Azerbaijan are thoroughly studied by the author. International conventions on patent relations, as well as international documents on copyright and related rights are comprehensively examined in the research work. The place and importance of normative legal acts in the library-information system of intellectual property and their use in providing the requests of users are analyzed.*

**Key words:** *intellectual work, creativity, author, normative legal act, patent, international convention.*

## Гейдар Алиев и библиотечно-информационная система права интеллектуальной собственности в Азербайджане

**Резюме:** *В статье анализируется особое внимание и забота великого лидера Гейдара Алиева об интеллектуальной собственности в политике государственного строительства в период независимости. Под руководством общенационального лидера автором подробно изучены законодательные акты об интеллектуальной собственности в условиях сформировавшегося в Азербайджане гражданского общества. В исследовательской работе всесторонне исследуются международные конвенции о патентных отношениях, а также международные документы по авторскому праву и смежным правам. Анализируются место и значение нормативных правовых актов в библиотечно-информационной системе интеллектуальной собственности и их использование при обеспечении запросов пользователей.*

**Ключевые слова:** *интеллектуальный труд, творчество, автор, нормативный правовой акт, патент, международная конвенция.*

**Tünzalə Akif qızı Əzizova,**
*F.Köçərli adına Respublika Uşaq Kitabxanasının elmi katibi*
*tunzalenasibova@gmail.com*

# AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİYEV

**Xülasə:** *Müstəsna xidmətləri, böyük diqqət və qayğısı ilə əbədiyaşarlıq qazanmış ümummilli lider Heydər Əliyevin mənalı ömür yolu, zəngin və çoxşaxəli irsi onun Azərbaycan mədəniyyətinin, ədəbiyyatının, kitab və kitabxanalarının inkişafındakı xidmətlərini xüsusi vurğulamışdır.*

**Açar sözlər:** *Ümummilli lider Heydər Əliyev, Azərbaycan, mədəniyyət, kitab, kitabxana.*

Əsl vətəndaş, tarixi şəxsiyyət və ümummilli lider, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin Azərbaycan xalqının tarixi taleyində oynadığı rol misilsizdir. Türk dünyasının fəxri olan ulu öndər Heydər Əliyev nəinki Azərbaycanın, eləcə də dünyanın görkəmli və dahi şəxsiyyətlərindən biri kimi ehtiramla xatırlanır. Zaman ötdükcə, illər keçdikcə bir çox meyarlar, prinsiplər dəyişir, ancaq obyektiv tarixi meyillərin və həqiqətin meyarı isə dəyişməz qalır. Odur ki, Azərbaycan xalqının ümummilli lideri, dərin zəkası, siyasi dühası, rəhbərlik etmək istedadı, uzaqgörənliyi və nüfuzu ilə bütün dünyanı heyran qoymuş, Azərbaycanın müasir simasının müəyyənləşdirilməsində mühüm rol oynamışdır.

Azərbaycanda müasir demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdış və elmin, təhsilin, mədəniyyətin inkişafı, ölkəmizin əsas qanunu olan Konstitusiyanın qəbul edilməsi, hüquq normalarının və qanunvericilik bazasının beynəlxalq standartlara uyğunlaşdırılması, müasir idarəetmə üsullarının bərqərar olması və müvafiq dövlət qurumlarının formalaşdırılması məhz Heydər Əliyevin rəhbərliyi ilə gerçəkləşən genişmiqyaslı quruculuq proqramının tərkib hissələridir. Bu uğurlar paytaxtımızın daim yeniləşən görkəmində, şəhər və rayonlarımızın sürətlə modernləşməsində, iqtisadiyyat və elmdə, təhsil, mədəniyyət və səhiyyədə, eləcə də ictimai-siyasi həyatımızda öz əksini tapmışdır.

Azərbaycan tarixinin bütöv bir dövrü Heydər Əliyevin şərəfli adı və möhtəşəm fəaliyyəti ilə bağlıdır. Onun Azərbaycana rəhbərliyi dövründə ölkəmiz bütün sahələrdə böyük inkişaf yolu keçib. O, bütün həyatını ölkəmizin yüksəlişinə və insanların xoşbəxtliyinə həsr etmişdir.

Ulu öndər hər zaman bu fikri səsləndirirdi: "Azərbaycan dinindən, irqindən, milli mənsubiyyətindən asılı olmayaraq hər bir azərbaycanlının vətənidir". Bu sözlər Heydər Əliyevin nə qədər tolerant bir şəxsiyyət olmasından xəbər verirdi.

Hər sahədə olduğu kimi Azərbaycan mədəniyyətinin inkişafına və milli-mənəvi dəyərlərimizin mühafizə olunaraq gələcək nəsillərə çatdırılmasına böyük diqqət və qayğı ilə yanaşan ulu öndərimiz Heydər Əliyev kitaba və kitabxanaya da həmişə böyük dəyər vermişdir.

Kitabı mənəvi zənginliyin və elmlərə yiyələnməyin mühüm açarı hesab edən Ulu öndər daima gəncləri və ətrafındakı insanları mütaliə etməyə, kitabla həmsöhbət olmağa dəvət etmiş, həyatda kamil insan kimi yetişməyin, zəngin biliklərə yiyələnməyin yeganə yolunun mütaliədən keçdiyini söyləmişdir.

Ulu öndər M. F. Axundov adına Azərbaycan Milli Kitabxanasında 3 iyun 1995-ci ildə "Vətənə, Dövlətə, Xalqa Sədaqət Andı" miniatür kitabının təqdimat sərgisində çıxış edərkən qeyd edirdi: "Kitab nəşri hər bir ölkənin, xalqın mədəniyyətində, ümumiyyətlə mənəvi, ictimai həyatında çox görkəmli yer tutur. Hər birimiz ilk növbədə ancaq kitab vasitəsilə təhsil, elm almışıq, həyatda yaşamağa, fəaliyyət göstərməyə hazırlaşmışıq. Ona görə də hər birimiz kitablara borcluyuq. Həm kitabları yazıb-yaratmaq, həm də onları nəşr etmək əsas vəzifələrimizdən biridir. Bunun üçün mümkün olan bütün tədbirləri görməliyik. Mən respublikanın prezidenti kimi bunu əsas vəzifələrimdən biri sayıram". Məhz buna görə də Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illəri mədəniyyətimizin tarixində yeni intibah dövrü adlandırmaq olar.

Müstəqilliyimizin ilk illərində kitabxanaların normal yaşayıb fəaliyyət göstərməsi üçün normativ-hüquqi bazanın formalaşdırılması, genişmiqyaslı özəlləşdirmə proqramı çərçivəsində kitabxanaların binalarının zəbt olunması və qiymətli kitab fondlarının məhv olmaq təhlükəsindən xilas edilməsi kimi taleyüklü məsələlərin həllində Heydər Əliyevin xüsusi xidmətləri vardır.

XX əsrin 90-cı illərində "Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununun və bu qanuna müvafiq normativ-hüquqi aktların qəbul edilməsi məhz Heydər Əliyevin adı ilə bağlı olmuş və bilavasitə onun rəhbərliyi altında həyata keçirilmişdir. "Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununa kitabxanaların əmlakının, fondlarının və statusunun, xüsusilə onların sovet dövründə yerləşdikləri binalarının mühafizəsi məqsədilə bir sıra maddələrin daxil edilməsi məhz Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə kitaba və kitabxanaya böyük dəyər verən ulu öndər Heydər Əliyevin göstərişi və tövsiyələri əsasında həyata keçirilmişdir. Çox təəssüflər olsun ki, 1990-cı illərin əvvəllərindəki Milli Məclisdə bir sıra deletant və millət vəkillərinin təkidi ilə həmin qanun layihəsində kitabxanaların əmlakının mühafizəsi məqsədilə nəzərdə tutulan maddələrin çıxarılmasına da nail olunmuşdu və

qanunun qəbulundan dərhal sonra Bakıda və digər şəhər və rayonlarda mədəniyyət ocaqlarına, onların sovet dövründə guya qanunsuz yerləşdikləri binalarına hücumlar edilmişdi. Hətta bir sıra rayon kitabxanalarının qiymətli kitab fondlarını küçələrə tökmək xülyası ilə yaşayanlar da peyda olmuşdular. O vaxtlar qəbul olunan "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" qanunu əllərində şirma kimi tutanlar kitabxanalara, muzeylərə və digər mədəniyyət ocaqlarına hücumlara başlamışdılar. Belə təhlükəli anda 1998-ci ilin sonunda məhz Ulu öndərin göstərişi ilə ayrıca özəlləşdirilməsi qadağan olunan obyektlərin siyahısı təsdiq olundu ki, bu obyektlərin də 85 faizini mədəniyyət müəssisələri təşkil edirdi. Ulu öndərin bu çox ciddi fərmanı ilə mədəniyyət müəssisələrinin, xüsusilə də kitabxanaların "hərraca qoyulması"nın qarşısı alındı, qiymətli kitab fondlarının dağıdılması hallarına son qoyuldu. 1998-2000-ci illərdə Heydər Əliyevin ciddi tapşırığı ilə Nazirlər Kabineti Milli Kitabxananın və sahəvi elmi kitabxanaların, rayon və şəhər kitabxanalarının statusu və əsasnamələrinin təsdiqi, fondlarının uçotu və mühafizəsi haqqında qərarlar qəbul etdi. Bütün bunları mədəniyyətimizə, milli-mənəvi dəyərlərimizə, kitaba və kitabxanaya yüksək dəyər verən müdrik şəxsiyyət həyata keçirə bilərdi. Bu da Heydər Əliyevin yüksək elmi, mədəni və intellektual səviyyəsi ilə, bəşəri xarakter daşıyan hadisələri düzgün qiymətləndirə bilmək istedadı ilə şərtləşir. İftixar hissi ilə demək olar ki, Heydər Əliyev respublikaya rəhbərlik etdiyi dövrdə böyük təşkilatçılıq, nəhəng quruculuq işləri ilə yanaşı, zəngin elmi-nəzəri, mənəvi bir irs yaratmış, öz çıxışlarında hər zaman yazıçı və şairlərimizin, alimlərimizin, mədəniyyət xadimlərimizin böyük potensiala malik olduğunu bildirmiş, Azərbaycan xalqının təhsillənməsində, biliklənməsində, elm və mədəniyyətimizin, mənəviyyatımızın inkişafında böyük rolu olduğunu bildirmişdir. Xalqımızın mənəvi sərvəti olan bu zəngin irsi araşdırdıqca dahi şəxsiyyətin öz xalqına qırılmaz tellərlə bağlı olduğu, onu ürəkdən sevdiyi, Azərbaycanın inkişafı və tərəqqisi naminə böyük işlər gördüyü, bütün varlığını, həyatını Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsinə həsr etdiyi göz önünə gəlir.

Müstəqil Azərbaycan dövlətinin hərtərəfli inkişafı yolunda əvəzsiz tarixi xidmətlərini nəzərə alaraq, milli dövlətçilik ideyasının bərqərar olması və ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artması naminə misilsiz töhfələr vermiş Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev xalqımızın qəlbində əbədiyaşarlıq qazanmışdır. Milyonların ürəyindən gələn bu sözlər ona ümumxalq məhəbbətinin ifadəsi oldu: "Nə qədər ki, müstəqil Azərbaycan dövləti var, Azərbaycan xalqı var Heydər Əliyev ürəklərdə yaşayacaqdır".

**Ədəbiyyat**

**1.** Xələfov, A. Heydər Əliyev və Azərbaycanda kitabxana işi /Abuzər Xələfov; elmi məsləhətçi S.Y.Məmmədəliyeva; elmi red. T.X.Musayeva; red. K.İ.Aslan, L.A.Məmmədova.- Bakı: Azərnəşr, 2006.- 312 s.

**2.** Xələfov, A. Heydər Əliyev və Azərbaycanda kitabxana quruculuğu /Abuzər Xələfov //Respublika.- 2008.- 8 aprel.- S.3-4.

**3.** Kitabxanalarda Heydər Əliyev irsinin və azərbaycançılıq ideyasının təbliği: Respublikanın kütləvi və ixtisaslaşdırılmış kitabxanaları, Mərkəzləşdirilmiş Kitabxana Sistemləri üçün metodik tövsiyələr /Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi, Azərb. Milli Kitabxanası; tərt. N.Alışova; ixtisas red. və burax. məs. K.M.Tahirov; red. G.Səfərəliyeva.- Bakı: [M.F.Axundov ad. Milli Kitabxana], 2013.- 59, [1] s.

**4.** Tahirov, K. Heydər Əliyev müstəqil Azərbaycanda kitabxana quruculuğunun banisidir /Kərim Tahirov //525-ci qəzet.- 2021.- 9 may.

## Heydar Aliyev, the national leader of the Azerbaijani people

**Summary:** *The meaningful life path, rich and diverse heritage of national leader Heydar Aliyev, who won eternal life with his exceptional services, great attention and care, specially emphasized his services in the development of Azerbaijani culture, literature, books and libraries.*

**Key words:** *National leader Heydar Aliyev, Azerbaijan, culture, book, library.*

## Гейдар Алиев, общенациональный лидер азербайджанского народа

**Резюме:** *Осмысленный жизненный путь, богатое и разнообразное наследие общенационального лидера Гейдара Алиева, завоевавшего вечную жизнь своими исключительными заслугами, с его большим вниманием и заботой подчеркнули его заслуги перед развитием азербайджанской культуры, литературы, книг и библиотек.*

**Ключевые слова:** *Общенациональный лидер Гейдар Алиев, Азербайджан, культура, книга, библиотека.*

**Knyaz İlyas oğlu Aslan,**
*Bakı Dövlət Universitetinin Redaksiya-nəşriyyat işi kafedrasının müdiri,*
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*knyazaslan@mail.ru*

# AZƏRBAYCANIN DAHİ ŞAİRİ NİZAMİ GƏNCƏVİNİN YUBİLEYİNİN DÖVLƏT SƏVİYYƏSİNDƏ KEÇİRİLMƏSİNDƏ ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN XİDMƏTLƏRİ

**Xülasə:** *Məqalədə Azərbaycan ədəbiyyatının dühası, poeziyamızın qüdrətli klassiki Nizami Gəncəvinin yubileylərinin keçirilməsi ilə bağlı ulu öndər Heydər Əliyevin xidmətlərindən bəhs olunur.*

*Qeyd edilir ki, Heydər Əliyev hələ sovet dövründə dahi şairin həyat və yaradıcılığının öyrənilməsi, ədəbi-bədii irsinin araşdırılması, əsərlərinin Azərbaycan dilinə tərcüməsi və təbliği sahəsində dövlət miqyasında ciddi tədbirlər həyata keçirmişdir.*

*1970-ci illərdə Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan xalqının klassik mədəni irsinin öyrənilməsi sahəsində respublikamızda yeni mərhələ başlanmışdır.*

*1981-ci ildə Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə qəbul olunmuş "Nizami Gəncəvinin anadan olmasının 840 illiyi haqqında" qərarı isə nizamişünaslıq elmi istiqamətində əsaslı dönüş yaratmışdır.*

*Sonrakı dövrdə bu ənənə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilmişdir. Azərbaycan Respublikasında 2021-ci ilin "Nizami Gəncəvi İli" elan edilməsi haqqında Prezidentin 5 yanvar 2021-ci il tarixli Sərəncamı isə Nizamişünaslıqda yeni mərhələnin başlanğıcını qoymuşdur.*

**Açar sözlər:** *Azərbaycan ədəbiyyatı, klassik ədəbi irs, dahi şair-filosof Nizami Gəncəvinin yaradıcılığı, şairin yubileyi, ulu öndər Heydər Əliyevin xidmətləri.*

Dünya elmi-ədəbi fikrinin diqqət mərkəzində olan mütəfəkkir sənətkar Nizami Gəncəvinin həyat və yaradıcılığı haqqında orta yüzilliklərdən bəri müəyyən qədər söz açılsa da, şairin ədəbi irsi əsasən XX əsrdən geniş araşdırılaraq tədqiq olunmağa başlamışdır. Onun əsərləri dəfələrlə yüksək tirajlarla nəşr olunmuş, ədəbi irsinin öyrənilməsi və təbliği sahəsində xeyli iş görülmüş, çoxsaylı tədqiqatlar aparılmış, eləcə də dünya nizamişünaslığında ilk dəfə olaraq əsərlərinin elmi tənqidi mətni hazırlanmışdır.

Mütəxəssislərin fikrincə, ötən dövr ərzində Nizamişünaslıq istiqamətində xeyli iş görülməsinə baxmayaraq, bu, dahi şairimizin şöhrətinə uyğun səviyyədə olmamışdı. Belə ki, 1920-ci illərə qədər Nizaminin dolğun tərcümeyi-halı yazılmamış, olum və ölüm tarixləri ilə bağlı olan bəzi mülahizələrə tam aydınlıq gətirilməmişdi. Dünyanın ayrı-ayrı kitabxana, arxiv və muzeylərində saxlanılan əlyazma nüsxələrinin müqayisəli ədəbi-tənqidi mətnləri yaradılmamış, əsərlərinin orijinala daha yaxın filoloji və ədəbi tərcümələri hazırlanmamışdı. Eyni zamanda sənətkarın dünya ədəbiyyatındakı mövqeyi layiqincə açılıb göstərilməmiş, müxtəlif ölkələrdə ona həsr olunan elmi tədqiqat əsərləri kütləvi tirajla nəşr edilməmişdi.

Tarixi mənbələrə görə, Nizaminin vəfatından xeyli sonra, yəni təxminən XIII-XIV əsrlərdə Gəncə şəhərinin yaxınlığındakı Əhmədli kəndində şairin dəfn olunduğu yerdə ağ əhəng daşından qəbirüstü türbə tikilmiş, bununla da onun xatirəsi əbədiləşdirilmişdir.

XIX əsrin 70-80-ci illərinə qədər gəlib çatmış həmin türbənin dağılmaq təhlükəsi ilə üzləşdiyi barədə o dövrün tanınmış ziyalıları məlumat vermişlər. Məsələn, o vaxtlar Tiflisdən Şamaxıya qayıdarkən yolüstü Gəncədə Nizaminin məqbərəsini ziyarət edən görkəmli maarifçi şairimiz Seyid Əzim Şirvani ürəkağrısı ilə məşhur rübahisini söyləmişdir:

**Ey Şeyx Nizami, ey nizamı dağılan,**
**Ey Gəncədə izzü ehtişamı dağılan,**
**Olmuşmu səninlə mən kimi aləmdə**
**Beyti, evi, məktəbi, kəlamı dağılan?!.**

Nizaminin anadan olmasının 750-ci ildönümü ərəfəsində – 1891-ci ildə isə həmin türbənin yerində məqbərə ucaldılmışdır.

Sənətkarın məqbərəsi üzərinə müvəqqəti abidə isə 1932-ci ildə qoyulmuşdur. Qədim məqbərə dağıldığına görə 1947-ci ildə onun yerində daş məqbərə ucaldılmışdır.

Şairin yubileyinin dövlət səviyyəsində keçirilməsi baxımından ilk təşəbbüs 1930-cu illərin sonlarında qaldırılmışdır. 25 iyul 1938-ci ildə Azərbaycan KP MK "Böyük Azərbaycan şairi Nizami Gəncəvinin anadan olmasının 800 illiyinin bayram edilməsi haqqında" qərar qəbul etmişdir. Azərbaycan SSR Xalq Komissarları Sovetinin "Böyük Azərbaycan şairi Nizami Gəncəvinin anadan olması gününün 800 illiyinə həsr edilən daimi sərgi (ev-muzeyi) təşkil etmək haqqında" Qərar isə 1 noyabr 1939-cu ildə verilmişdir. Lakin İkinci Dünya müharibəsinin başlanması şairin yubileyinin ali məqamda qeyd olunmasına imkan verməmişdir.

Bununla belə, 1940-cı ildə Moskvada Nizamiyə həsr edilmiş elmi sessiya və iclas keçirilmiş, Nizami əsərlərinin tərcüməsi üzrə Bakıda ümümittifaq müşavirə təşkil edilmiş, Azərbayçan XKS qərarına görə Nizaminin epoxası, həyatı və yaradıcılığı haqqında müsabiqə elan olunmuşdur.

1941-ci ildə blokada şəraitində olan Leninqrad şəhərindəki Dövlət Ermitajında Nizaminin 800 illiyinə həsr olunmuş mühüm tədbir keçirilmişdir.

Ustad sənətkarın təntənəli yubileyinin geniş miqyasda təşkili yalnız müharibədən sonra mümkün olmuşdur. 1947-ci ildə Rusiya, Gürcüstan, Özbəkistan, Türkmənistan, Litva, Latviya, Dağıstan və başqa yerlərdə Nizaminin anadan olmasının 800 illiyi dövlət səviyyəsində təntənəli surətdə qeyd edilmişdir. Şairin yubileyi münasibətilə SSRİ Elmlər Akademiyası və Sovet Yazıçıları İttifaqı Moskva şəhərində birgə təntənəli iclas keçirmişlər.

SSRİ Nazirlər Sovetinin 24 mart 1947-ci il tarixli qərarına əsasən Bakı şəhərində Nizami Gəncəvinin möhtəşəm abidəsi qoyulmuşdur.

1970-ci illərdə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə xalqımızın klassik mədəni irsinin öyrənilməsi sahəsində respublikamızda yeni mərhələ başlamışdır. Bu baxımdan Azərbaycan KP MK-nın "Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsinin öyrənilməsini, nəşrini və təbliğini daha da yaxşılaşdırmaq tədbirləri haqqında" 6 yanvar 1979-cu il tarixli qərarı mühüm əhəmiyyət daşıyır. Həmin sənəd həmin istiqamətdə kompleks vəzifələr müəyyənləşdirmiş, ümumən orta əsrlər Azərbaycan mədəniyyətinin, o cümlədən Nizami irsinin sistemli şəkildə araşdırılması üçün geniş perspektivlər açmışdır. Bu qərardan sonra Nizami Gəncəvinin dövrü, həyatı və yaradıcılığı ilə bağlı yeni-yeni araşdırmalar aparılmış, şairin xatirəsinin əbədiləşdirilməsi istiqamətində silsilə tədbirlər həyata keçirilmişdir.

1981-ci ilin avqust ayında Azərbaycan KP MK-nın "Nizami Gəncəvinin anadan olmasının 840 illiyi haqqında" qərarı isə nizamişünaslıqda əsaslı dönüş yaratmışdır. Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə həmin il şairin yubileyi geniş qeyd olunmuş, Bakıda, Moskvada, eləcə də Sovet İttifaqının digər respublikalarında Nizami təntənəsi nümayiş etdirilmişdir.

*Dəyərli bir xatırlatma:* Azərbaycanın unudulmaz rəhbəri Heydər Əliyev 1981-ci ildə Nizami Gəncəvinin anadan olmasının 840 illiyi haqqında qərarı Moskva ilə razılaşdırarkən o vaxtlar Sovet İttifaqı Kommunist Partiyasının ikinci katibi olan, partiyanın ən mühüm ideoloqu hesab edilən Mixail Suslov bu təşəbbüsə etiraz etmək istəmişdi. Heydər Əliyev onun sözünə cavab olaraq qətiyyətlə demişdi: "Nizami Gəncəvi elə bir şəxsiyyətdir, tarixdə, dünya mədəniyyətində elə bir iz qoyub getmişdir ki, onun yubileyi hər il keçirilə bilər".

Heydər Əliyevin özü həmin hadisəni 2000-ci il mayın 24-də Gəncəyə səfəri zamanı dahi şairimizin məqbərəsi önündə söylədiyi nitqdə belə təsvir edir:

“Tariximizin böyük səhifələrini, intibah dövrünü – IX-XII əsrlərdə Nizamini, Xaqanini, Fələkini, Məhsətini götürsək, onların hamısının yaradıcılığı geniş yayılmışdır. Ancaq təkcə bir cəhəti xatırlatmaq istəyirəm. Nizami Gəncəvinin 800 illiyi 1948-ci ildə keçirilmişdi. Amma 840 illik yubileyini mən böyük təntənə ilə keçirdim, yəni bu tədbiri həyata keçirməyə nail oldum. O vaxt buna da imkan vermirdilər. Mən Moskvada Kommunist Partiyası Mərkəzi Komitəsinin qarşısında bu məsələni qaldıranda – çünki onlarsız bu işi görə bilməzdik – dedilər ki, “840 il yuvarlaq rəqəm deyildir. 800 illiyi qeyd eləmisiniz, 850 illik də ola bilər. Amma 840 olmaz, çünki sonra deyəcəksiniz ki, 845, nə bilim, 847”. Xatirimdədir, Mərkəzi Komitənin ikinci katibi var idi - Suslov, Brejnevin dövründə ikinci katib idi - mənə dedi ki, bu, mümkün deyildir. Mən isə dedim ki, siz Nizami Gəncəvini tanıyırsınızmı? Dedi ki, tanıyıram, yaxşı tanıyıram - Suslov keçmiş işçi idi, Stalinin yanında da işləmişdi, 1948-ci ildə onun yubileyinin keçirilməsindən də xəbərim var. Dedim, yəqin ki, tamam xəbəriniz yoxdur. Nizami Gəncəvi elə dahidir ki, onun nəinki 840 illiyini, onun yubileyini hər il keçirmək lazımdır. Beləliklə, biz buna nail olduq, o vaxt Nizami Gəncəvinin 840 illik yubileyini keçirdik. Azərbaycanda, sonra Moskvada çox təntənə ilə keçirdik.

Demək istəyirəm ki, bizim mədəniyyətimiz, elmimiz çox zəngindir. Biz Nizamidən, Füzulidən danışarkən onları təkcə şair kimi deyil, böyük filosoflar kimi, dünyaya, dünya mədəniyyətinə, elminə böyük töhfələr vermiş mütəfəkkirlər kimi tanıtmalıyıq”.

Beləliklə, 1981-ci ildə Nizami Gəncəvinin 840 illiyi Moskvanın İttifaqlar Evinin Sütunlu salonunda, Bakının Respublika Sarayında təntənəli şəkildə qeyd edilmişdir. Azərbaycan paytaxtında keçirilən mərasimlərə SSRİ-də yaşayan xalqların təmsilçilərindən ibarət böyük nümayəndə heyəti də qatılmışdı. Heyətə Sovetlər Birliyində mədəniyyət məsələlərinə kuratorluq edən məşhur rus alimi və tarixçisi akademik Dmitri Lixaçov rəhbərlik edirdi.

Xatırladırıq ki, ulu öndər Heydər Əliyevin hakimiyyətdə olduğu illərdə bir çox şəhər və rayonlarda böyük mütəfəkkirin adını əbədiləşdirən heykəllər ucaldılmışdır. Bundan başqa, yüzlərlə məktəb, şəhər, qəsəbə, kənd, prospekt, küçə, mədəniyyət sarayı, kinoteatr Nizami Gəncəvinin adını daşımış, söz ustadı haqqında bədii və sənədli filmlər, musiqi əsərləri, romanlar yaradılmışdır.

Hələ 1982-ci ildə Heydər Əliyev “Gənclərin əmək, əxlaq və ideya-siyasi tərbiyəsinin hər vasitə ilə gücləndirməli” adlı məruzəsində vurğulayırdı:

“Azərbaycan adları dünya ədəbiyyatı xəzinəsinə daxil olan Nizami, Xaqani, Tusi, Füzuli, Nəsimi, Natəvan, Vaqif, M.F.Axundov, Sabir, C.Məmməd-

quluzadə, M.S.Ordubadi, C.Cabbarlı, Üzeyir Hacıbəyov, S.Vurğun və bir çox başqa yazıçıların, şairlərin, bəstəkarların, alimlərin vətənidir. Gənclərimiz də korifeylərin yaradıcılığına, Azərbaycan xalqının çoxəsrlik tarixi ərzində yaradılan bütün mənəvi sərvətlərə yaxşı bələd olmalıdırlar".

1990-cı ildə Azərbaycan KP MK "Nizami Gəncəvinin anadan olmasının 850 illiyi haqqında" qərar qəbul etmiş, Bakıda Nizami Gəncəvinin adına Beynəlxalq Elm və Mədəniyyət Mərkəzi açılmışdır.

UNESCO 1991-ci ili mütəfəkkir şairin 850 illik yubileyi şərəfinə "Nizami ili" elan etmişdir.

Həmin vaxt SSRİ Mədəniyyət Nazirliyi "Nizami Gəncəvinin anadan olmasının 850 illiyi qarşısında yubiley tədbirləri keçirilməsi haqqında" əmr vermişdir. Bundan sonra Moskvada Nizami abidəsinin açılışı olmuş, şairin 850 illiyi münasibəti ilə SSRİ-nin 1 rublluq yubiley monetası buraxılmış, Rusiyada, Belarusda geniş tədbirlər təşkil olunuşdur. Eyni zamanda İranda, İraqda və digər ölkələrdə Nizamiyə həsr olunmuş Beynəlxalq elmi konfranslar keçirilmişdir.

Ulu öndər Heydər Əliyev hələ 1990-cı illərdə deyirdi:

"Bizim xalqımız çoxəsrlik tarixində böyük şairlər, yazıçılar, mütəfəkkirlər yetişdiribdir. Xalqımızın tarixi çox zəngindir. Ancaq biz tariximizin qədim dövrlərini xatırlayarkən, yaxud onları cəmiyyətə, dünyaya daha geniş çatdırmaq istəyərkən, birinci növbədə və bəzən də yalnız mədəniyyətimizə, mədəniyyət, ədəbiyyat xadimlərinin yaratdığı əsərlərə, tarixi-memarlıq abidələrimizə və böyük şairlərimizin, mütəfəkkirlərimizin yazdığı əsərlərə istinad edirik.

Biz Nizaminin, Xaqaninin, Nəsiminin, Füzulinin adlarını böyük iftixar hissi ilə çəkirik və onların əsərlərini oxuyaraq xalqımızın nə qədər dahi, müdrik və istedadlı xalq olduğunu bir daha dərk edirik. Eyni zamanda dünya, bəşər qarşısında bunlarla fəxr edirik, öyünürük. Öyünməyə də haqqımız var. Çünki bu böyük insanlar nəinki xalqımızı, bütün bəşəriyyəti, bəşər tarixini zənginləşdirən əsərlər yazmışlar".

Prezident İlham Əliyevin 23 dekabr 2011-ci ildə imzaladığı "Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 870 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam böyük söz ustadının zəngin ədəbi irsinə verilən yüksək qiymət kimi diqqəti cəlb edir. Sərəncamda deyilir ki, "Nizami irsinin daim aktual olduğu nəzərə alınaraq, hazırkı mərhələdə respublikamızda gənc nəslə mənsub nizamişünas kadrların yetişdirilməsi, şairin əsərlərinin filoloji tərcüməsinin təkmilləşdirilərək yenidən nəşrə hazırlanması və müxtəlif dillərə tərcümə edilməsi, habelə dünyanın mötəbər kitabxana və arxivlərində şairin yeni əlyazmalarının üzə çıxarılması Azərbaycan mədəniyyətinin öyrənilməsi işində bu gün xüsusilə mühüm əhəmiyyət daşıyır. Nizami dövrü, ədəbi irsi və

məktəbi problemləri müasir humanitar düşüncənin tələbləri kontekstində və azərbaycançılıq məfkurəsi işığında tədqiqini gözləyir".

Həmin dövrdə UNESCO və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə "Xəmsə" nəfis tərtibatla işıq üzü görmüşdür.

Azərbaycan Respublikasında 2021-ci ilin "Nizami Gəncəvi İli" elan edilməsi haqqında Prezident İlham Əliyevin 5 yanvar 2021-ci il tarixli Sərəncamın isə Nizamişünaslıqda yeni mərhələnin başlanğıcını qoyur.

Sərəncamda deyilir: "Dünya ədəbiyyatının görkəmli nümayəndəsi, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi bəşəriyyətin bədii fikir salnaməsində yeni səhifə açmış nadir şəxsiyyətlərdəndir. Nəhəng sənətkarın xalqımızın mənəviyyatının ayrılmaz hissəsinə çevrilmiş parlaq irsi əsrlərdən bəri Şərqin misilsiz mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yerini qoruyub saxlamaqdadır".

Dövlət başçısının Azərbaycan ədəbiyyatının dühası, poeziyamızın qüdrətli klassiklərindən olan Nizami Gəncəvinin yubileyinin keçirilməsi haqqında imzaladığı bu Sərəncam dövlətimizin milli irsə verdiyi dəyərin parlaq ifadəsi olmaqla yanaşı, həm də xalqımızın möhtəşəm ədəbi sərvətlərinin zənginliyini bütün dünyaya bir daha nümayiş etdirmək məqsədi daşıyır.

Sərəncamda qeyd olunduğu kimi: "Nizami Gəncəvinin geniş şöhrət tapmış "Xəmsə"si dünya poetik-fəlsəfi fikrinin zirvəsində dayanır. Mütəfəkkir şair çox sayda davamçılarından ibarət böyük bir ədəbi məktəbin bünövrəsini qoymuşdur. Nizaminin ən məşhur kitabxana və muzeyləri bəzəyən əsərləri Şərq miniatür sənətinin inkişafına da təkan vermişdir.

Nizami dühası hər zaman dünya şərqşünaslığının diqqət mərkəzində olmuşdur. Ölkəmizdə Nizami sənətinin öyrənilməsi və tanıdılması sahəsində xeyli iş görülmüş, əsərlərinin nizamişünaslıqda yüksək qiymətləndirilən elmi-tənqidi mətni hazırlanmış, kitabları nəfis tərtibatda və kütləvi tirajla nəşr edilmişdir".

Dünyanın görkəmli Nizamişünas alimlərinin vurğuladıqları məqamlara söykənərək qürurla söyləyə bilərik ki, Şərqi Qərbə və bütövlükdə bütün dünyaya tanıdan, başqa sözlə, Məğribdən Məşriqə məşhur olan Nizami Gəncəvi ümumbəşəri şairdir və dünya ədəbiyyatında onun yeri əvəzsizdir. Bu mənada Nizami Gəncəvinin 880 illik yubileyi respublikamızda və dost xarici ölkələrdə möhtəşəm şəkildə keçirilmiş, xalqımızın ulu söz dühasının misilsiz yaradıcılığının böyük türk dünyası ilə yanaşı, bütün bəşəriyyətin mədəni sərvəti olduğunu bir daha təsdiqləmişdir.

Vaxtilə ulu öndər Heydər Əliyev iftixarla bəyan edirdi:

"Nizami Gəncəvi bütün bəşər sivilizasiyasına məxsusdur. Onun dünya sivilizasiyasına, dünya mədəniyyətinə, dünya ədəbiyyatına verdiyi töhfə hamıya məlumdur. Lakin bununla bərabər, o, azərbaycanlıdır. Azərbaycan şairidir".

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2023-cü il martın 9-da Bakıda işə başlayan "Dünya bu gün: Çağırışlar və ümidlər" mövzusunda X Qlobal Bakı Forumunun açılış mərasimində çıxışında dediyi bu fikirlər isə ulu öndərin sözlərinin davamı kimi qürurla səslənir: "Nizami Gəncəvi doğma Gəncə şəhərində dünyaya gəlib, orada yazıb-yaradıb və orada da dəfn olunub. Onun müdrikliyi və istedadı Azərbaycan xalqının müdrikliyinin və istedadının təzahürüdür".

**Ədəbiyyat**

**1.** Nizami Gəncəvinin Sankt-Peterburq şəhərində abidəsinin qoyulması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı: 30 mart 1998-ci il, № 769. URL: https://e-qanun.az/framework/4707

**2.** Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 870 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı: 23 dekabr 2011. URL: https://president.az/az/articles/view/3896/print

**3.** Azərbaycan Respublikasında 2021-ci ilin "Nizami Gəncəvi İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı: 05 yanvar 2021. URL: https://president.az/az/articles/view/49904

## Merits of national leader Heydar Aliyev in holding the anniversary of the genius poet of Azerbaijan Nizami Ganjavi at the state level

**Summary:** *The article tells about the merits of the great leader Heydar Aliyev in connection with the celebration of the anniversary of the genius of Azerbaijani literature, the mighty classic of our poetry Nizami Ganjavi. It is noted that back in Soviet times, Heydar Aliyev took serious measures at the state level in the field of studying the life and work of the brilliant poet, researching his literary and artistic heritage, translating and promoting his works into the Azerbaijani language. In the 1970s, on the initiative of Heydar Aliyev, a new stage began in our republic in the field of studying the classical cultural heritage of the Azerbaijani people. The resolution "On the 840th anniversary of the birth of Nizami Ganjavi", adopted on the initiative and*

*under the leadership of Heydar Aliyev in 1981, created a radical turn in the direction of science in the lower studies.*

*Later this tradition was successfully continued by the President of the Republic of Azerbaijan Ilham Aliyev.*

*The Decree of the President of January 5, 2021 on declaring 2021 the Year of Nizami Ganjavi in the Republic of Azerbaijan marked the beginning of a new stage in Nizami studies.*

**Key words:** *Azerbaijani literature, classic literary heritage, creativity of the great poet-philosopher Nizami Ganjavi, anniversary of the poet, merits of national leader Heydar Aliyev.*

## Заслуги общенационального лидера Гейдара Алиева в проведении юбилея гениального поэта Азербайджана Низами Гянджеви на государственном уровне

***Резюме:*** *В статье рассказывается о заслугах великого лидера Гейдара Алиева в связи с празднованием юбилея гения азербайджанской литературы, могучего классика нашей поэзии Низами Гянджеви. Отмечается, что еще в советское время Гейдар Алиев предпринял серьезные меры на государственном уровне в области изучения жизни и творчества гениального поэта, исследования его литературно-художественного наследия, перевода и пропаганды его произведений на азербайджанский язык. В 1970-е годы по инициативе Гейдара Алиева в нашей республике начался новый этап в области изучения классического культурного наследия азербайджанского народа. Постановление «О 840-летии со дня рождения Низами Гянджеви», принятое по инициативе и под руководством Гейдара Алиева в 1981 году, создало коренной поворот в направлении науки в низамиведение.*

*Позднее эту традицию успешно продолжил Президент Азербайджанской Республики Ильхам Алиев. Указ Президента от 5 января 2021 года об объявлении 2021 года «Годом Низами Гянджеви» в Азербайджанской Республике ознаменовал начало нового этапа в низамиведении.*

**Ключевые слова:** *азербайджанская литература, классическое литературное наследие, ый поэт, творчество гениального поэта-философа Низами Гянджеви, юбилей поэта, заслуги общенационального лидера Гейдара Алиева.*

**Elçin Yusif oğlu Əhmədov,**
*BDU-nun İnformasiya və sənəd menecmenti fakültəsinin Kitabxanaşünaslıq kafedrasının müdiri, pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

# HEYDƏR ƏLİYEVİN KİTABXANA DOKTRİNASI MİLLİ KİTABXANANIN STRATEJİ İNKİŞAF PLANIDIR

**Xülasə:** *Məruzədə Milli Kitabxananın Azərbaycanda kitabxana quruculuğunun banisi olan Heydər Əliyev doktrinasının uğurla yerinə yetirilməsi sahəsindəki əməli fəaliyyətindən qısa şəkildə bəhs olunur.*

**Açar sözlər:** *Heydər Əliyev, Milli Kitabxana, kitabxana dostrinası, dövlət kitabxana siyasəti.*

Ümummilli lider Heydər Əliyev ili çərçivəsində Milli Kitabxananın fəaliyyəti təqdirəlayiq hal kimi qiymətləndirilir. Bu yaxınlarda Heydər Əliyev Mərkəzində professor Kərim Tahirovun "Heydər Əliyev və Milli kitabxana" adlı kitab təqdimatının keçirilməsi, eyni zamanda bu gün keçirilən "Heydər Əliyev və Azərbaycanda kitabxana quruculuğu" adlı konfrans Milli Kitabxananın timsalında sübut edir ki, Heydər Əliyevin kitabxana quruculuğu sahəsində doktrinası uğurla davam edir. Ümummilli liderin kitabxana quruculuğu sahəsində atdığı addımlar kitabxanaşünaslığın həm elmi-nəzəri, həm də təcrübi fəaliyyət sahəsinin strateji inkişafına əsaslı təsir etmişdir. Vaxtilə Ümummilli liderin Milli Kitabxanaya gəlişi və kitabxana haqqında dəyərli fikirləri böyük şəxsiyyətin kitaba, mütaliəyə verdiyi qiymətin bəşəri meyarıdır.

Eyni zamanda, onun Azərbaycan milli kitabxanaşünaslıq elminin banisi A.A.Xələfova kitabxanaşünaslıq elminin inkişafındakı xidmətlərinə görə "Əməkdar elm xadimi" adını verməsi kitabxana quruculuğunun elmi-nəzəri və təcrübi nəşrlərinin istiqamətlənməsində fəaliyyət proqramı olmuşdur.

Kitabxanaşünaslıq elmi kitabxana-informasiya fəaliyyətinin nəzəriyyəsi olaraq dövlət kitabxana siyasətinin müddəalarından bəhrələnərək bütün tip kitabxanaların fəaliyyətinin stimullaşdırılmasına elmi metodik yardım göstərir. Cəmiyyətdə kitabxana-informasiya fəaliyyəti çox prioritet istiqamətləri təmin edir. İlk növbədə kitabxana-informasiya fəaliyyəti cəmiyyət subyektlərinin ünsiyyət mədəniyyətinin, həmçinin elmi və yaradıcı təfəkkürünün formalaşmasına təsir edir. Kitabxana doktrinasının əsas qayəsini təşkil edən bu tezislər bu gün Azərbaycan milli kitabxanaşünaslığında uğurla icra olunur.

Milli Kitabxananın direktoru professor Kərim Tahirov Azərbaycanda kitabxana quruculuğunun banisi olan Heydər Əliyev doktrinasının uğurla yerinə yetirilməsində əməli fəaliyyət göstərir. Milli Kitabxana respublika kitabxanalarının metodik mərkəzi olduğundan qabaqcıl təcrübəsinin yaşadılmasında təsirli addımlar atır.

Beləliklə, Azərbaycan Milli Kitabxanası dövlət kitabxana siyasətinin bütün parametrləri üzrə kitabxana quruculuğu doktrinasının uğurla davam etdirərək respublikada kitabxana-informasiya fəaliyyətinin strateji proqramını yerinə yetirir. Eyni zamanda, öz təmənnasız əməyini və xeyirxah fəaliyyətini xalqın təhsilinə, maariflənməsinə, mədəni-intelektual səviyyəsinin yüksəldilməsinə sərf edən, dövlətçiliyin möhkəmləndirilməsində, milli ideologiyanın təbliğində yaxından iştirak edən kitabxana xalqın xidmətində böyük inamla dayanır. Kitabxana müstəqil Azərbaycan dövlətinin bütün vətəndaşlarına, bütün insanlara xidmət edir, bununla da Vətən, xalq, cəmiyyət qarşısında çox məsuliyyətli və şərəfli bir vəzifəni yerinə yetirir.

## Heydar Aliyev's library doctrine is the strategic development plan of the National Library

**Summary:** *The report briefly talks about the practical activities of the National Library in the field of successful implementation of the doctrine of Heydar Aliyev, the founder of library construction in Azerbaijan.*

**Key words:** *Heydar Aliyev, National Library, library doctrine, state library policy.*

## Библиотечная доктрина Гейдара Алиева – стратегический план развития Национальной библиотеки

**Резюме:** *В докладе кратко рассказывается о практической деятельности Национальной библиотеки в области успешной реализации учения Гейдара Алиева, основоположника библиотечного строительства в Азербайджане.*

**Ключевые слова:** *Гейдар Алиев, Национальная библиотека, библиотечная доктрина, государственная библиотечная политика.*

**Xuraman Telman qızı Ağayeva,**
*Bakı Dövlət Universitetinin Sənəd menecmenti kafedrasının dosenti,*
*pedaqogika üzrə fəlsəfə doktoru*
*khuraman_v@mail.ru*

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ƏSƏRLƏRİ ABŞ KONQRES KİTABXANASINDA

**Xülasə:** *Tezisdə Ümummilli lider Heydər Əliyevin ABŞ Konqres Kitabxanasında mövcud olan əsərləri və onun haqqında yazılmış mənbələr araşdırılır və tədqiqata cəlb olunur.*

**Açar sözlər:** *siyasi xadim, ümummili lider, informasiya, Konqres, kitabxana, qanun, innovasiya, informasiya axını, milli kitabxana, konfrans.*

Ümummmili lider Heydər Əliyev Azərbaycanın inkişafı, ölkəmizin beynəlxalq arenada söz sahibi olması, tanınması üçün əzmlə çalışmış, dövlətçiliyimizin daha da ucalması naminə cox işlər görmüş dünyaca ünlü bir siyasi xadimdir. Bu gün Azərbaycan dünyada tanınırsa, söz sahibidirsə, beynəlxalq miqyaslı layihələrdə iştirak edirsə, Ulu Öndərin zəhmətinin, uzaqgörən siyasətinin nəticəsidir. Heydər Əliyev hətta keçmiş sovet hökuməti rəhbərliyində təmsil olunduğu vaxtlarda da öz doğma vətəni üçün müstəsna işlər görmüş, ürəyi, ruhu hər zaman doğma xalqının, millətinin yanında olmuşdur.

İkinci dəfə hakimiyyətə qayıtdıqdan sonra onun bilavasitə rəhbərliyi ilə ölkə mədəniyyətinin, elminin, təhsilinin inkişafı naminə çoxsaylı dövlət proqramları həyata keçirilmiş, dövlətin inkişafı naminə bir sıra qanunlar və qərarlar qəbul edilmişdir.

Azərbaycan kitabxanalarının inkişafı Ulu öndərin hər zaman diqqət mərkəzində olmuş, ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra dünyada ən humanist qanun olan "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir.

Ümummilli lider Heydər Əliyevin əsərləri dünyanın ən tanınmış kitabxanalarının fondunu bəzəyir. Dünyaca ünlü liderin əsərləri ABŞ Konqres Kitabxanasının da fondunda mövcuddur və orada mühafizə olunur. Bu barədə Milli Kitabxana tərəfində Ümummilli lider Heydər Əliyevin 95 illiyi münasibətilə nəşr olunmuş "Heydər Əliyev: biblioqrafiya /Layih. rəhb. Ə.Qarayev; tərt.ed.: M.Vəliyeva, M.İbrahimova, A.Hüseynova; elmi red. K.Tahirov; red. G.Səfərəliyeva.- Bakı, 2018.- 680 s." adlı göstəricidə geniş məlumat var (2). Bu fundamental göstərici Ulu öndərin öz əsərləri və onun

haqqında yazılmış 3205 mənbəni əhatə edilmişdir. Göstəricinin V Hissə Digər xarici dillərdə "Heydər Əliyevlə bağlı Milli Kitabxananın Xarici ədəbiyyat və Beynəlxalq kitab fondunda olan kitablar" adlı bölmənin "Heydər Əliyev dünya kitabxanalarında" adlı alt bolməsində Ümummilli liderin ABŞ Konqres Kitabxanasında mövcud olan 39 kitab, ümumiyyətlə Turkiyə, Argentina, Avstriya, Belçika, Bolqarıstan, Estoniya, Finlandiya, Yaponiya, İsveç, Koreya və digər milli kitabxanalarda mövcud olan 284 kitab haqqında biblioqrafik informasiya verilir.

Bildiyimiz kimi ABŞ Konqres Kitabxanası 1800-cü il aprelin 24-də ABŞ prezidenti Con Adamsın göstərişi ilə yaradılmışdır. Prezident kitab alınmasına və saxlanılmasına o vaxtın pulu ilə böyük məbləğdə - 5 000 dollar pul ayırmış və qərar imzalamışdır ki, kitabxananı ancaq prezidentlər, Konqresin üzvləri ziyarət edə bilərlər. O vaxtdan etibarən kitabxananın adı Konqres Kitabxanası qalmışdır (5).

Konqres Kitabxanası Britaniya Milli Kitabxanasından sonra dünyanın ən böyük kitabxanası hesab olunur. Onun fondlarında saxlanılan kitablar 470 dildədir, yarısından çoxu ingilis dilindədir. Ümumi kitab fondu hazırda 180 milyondan çoxdur.

Konqres Kitabxanasının rəsmi üzvlərinin sayı 150 milyon, illik ziyarətçiləin sayı 1,75 milyon nəfərdir. Konqres Kitabxanasında 75,7 milyon əlyazma, 5,6 milyon xəritə, 17,5 milyon mikrofilm, 1,9 milyon hərəkətli şəkil, 8.2 milyon not əsəri,17,5 milyon vizual material, 2 milyon digər əşyalar (maşınla oxuna bilən əşyalar da daxil olmaqla) vardır. Son məlumata görə kitabxanada 3194 nəfər daimi işçi çalışır.

Kitabxana 802,1 milyon ABŞ dolları büdcə səlahiyyətləri ilə fəaliyyət göstərir (4).

2016-cı ildə eks prezident Barak Obama, Merilend ştatının Baltimor şəhərindəki Enoch Pratt Pulsuz Kitabxanasının baş icraçı direktoru, kitabxanaçı dr. Karla Haydeni Konqresin 14-cü Kitabxanaçısı vəzifəsinə namizəd göstərdi. Karla Hayden 14 sentyabr 2016-cı ildə Konqresin 14-cü Kitabxanaçısı kimi and içdi. Milli Kitabxanaya rəhbərlik edən ilk qadın və ilk afroamerikalı Hayden 24 fevral 2016-cı ildə prezident Barak Obama tərəfindən bu vəzifəyə irəli sürüldü və onun namizədliyi iyulun 13-də ABŞ Senatı tərəfindən təsdiqləndi (4).

Axtarış əsasında ABŞ Konqres Kitabxanasının kolleksiyasında Ümummilli lider Heydər Əliyevlə bağlı 2021-ci ilə qədər cəmi 55 əsərin mühafizə olunduğu müəyyən olundu. Bu əsərlərdən 4 azərbaycan, 4 rus dilində olmaqla 8 əsər ümummili liderin qələmindən çıxan əsərdir. 4 əsər isə 2018-2021-ci illərdə Heydər Əliyevlə bağlı keçirilmiş konfrans materialıdır. 43 əsər haqqında

yazılmış mənbədir. Onlardan 33 mənbə Azərbaycan dilində, 6 mənbə ingilis dilində, 1 mənbə turk dilində, 3 mənbə isə rus dilindədir.

Ümummmili lider Heydər Əliyevin ABŞ Konqres Kitabxanasında Azərbaycan dilində yazdığı 4 əsəri saxlanılır. Bu əsərlərin hamısı Bakıda nəşr olunmuşdur. Konqress kitabxanasına daxil olan ilk əsəri "Əliyev, Heydər. Gələcək bizimdir /Heydər Əliyev.- Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1966.- 45 s."adlı əsərdir. Əsər Azərbaycan Dövlət Nəşriyyatında 1966-ci ildə nəşr olunmuş və 1978-ci ildə ABŞ Konqres kitabxanasına daxil olmuşdur.

Ümummmili lider Heydər Əliyevin ABŞ Konqres Kitabxanasına Azərbaycan dilində daxil olan sonuncu əsər "Əliyev, Heydər. Azərbaycan SSR /Heydər Əliyev.- Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1983.- 188 s." adlanır. Əsər 1983-cü ildə Azərbaycan Dövlət Nəşriyyatında nəşr olunmuş, 1990-cı illıdə ABŞ Konqres Kitabxanasına daxil olmuşdur.

Konqes Kitabxanasında ümummmilli lider Heydər Əliyev haqqında Azərbaycan dilində yazılmış 33 əsər mühafizə olunur. İlk belə əsər "Azərbaycan-Özbəkistan: dostluq daima yaşayır və möhkəmlənir: Özbəkistan prezidenti İslam Kərimovun Azərbaycana rəsmi səfəri /Tərt. N.Həsənzadə, O.Sadıqov.- Bakı: ŞərqQərb, 1996.- 77 s." adlanır və 1997-ci ildə Konqres Kitabxanasının fonduna daxil olmuşdur. Sonuncu əsər isə "Qasımov, Ədalət. Heydər Əliyev və Naxçıvan Muxtar Respublikası: sənədlər və materiallar toplusu (1969-1982-ci illər).- Bakı: Turxan, 2020.- 399 s." adlanır. 2021-ci ildə Konqres Kitabxanasının kolleksiyasına daxil olmuşdur.

Ümummmili lider Heydər Əliyevin ABŞ Konqres Kitabxanasının kolleksiyasında rus dilində yazdığı 4 əsəri mühafizə olunur. Bu əsərləri araşdırsaq görərik ki, Konqres kitabxanansının fonduna rus dilində daxil olan ilk əsər "Алиев, Гейдар. Боевые задачи партинной организации Азербайджана /Гейдар Алиев.- Баку: Азер. Гос. Изд., 1978.- 96 с." adlı əsərdir. Əsər 1978-ci ildə Azərbaycan Dövlət Nəşriyyatında çap olunmuş və 1979-cu ildə Konqres Kitabxanasının fonduna daxil olmuşdur

Konqres Kitabxanasına müəllifin rus dilində daxil olan sonuncu əsər isə "Алиев, Гейдар. Советский Азербайджан /Гейдар Алиев.- Москва: Изд-во пол. Лит., 1982.- 174 с." adlı əsərdir. Əsər Moskvada 1982-ci ildə nəşr olunmuş və 1983-cü ildə Konqress kitabxanasının kolleksiyasına daxil olmuşdur.

Heydər Əliyev haqqında rus dilində yazılmiş 3 əsər kitabxananın fondunda saxlanılır. İlk belə əsər "Караулов, А. Вокруг Кремля: книга политических диалогов /Андрей Караулов, Гейдар Алиев.- Москва: Новости, 1990.- 374 с." adlı əsərdir. Əsər 1990-cı ildə Moskvada nəşr olunmuş və 1993-cü ildə Konqres kitabxanasının fonduna daxil olmuşdur.

Kitabxananın fonduna rus dilində daxil olan sonuncu əsər isə "Политика Гейдара Алиева: толерантность (вступления, речи, встречи, поздравления) /Отв. за изд. С.Салахлы (Аран).- Баку: Нурлар, 2018.- 423 с." adlanır. Bakıda "Nurlar" nəşriyyatında çap olunmuşdur.

ABŞ Konqes Kitabxanasının fondunda Ümummilli lider Heydər Əliyev haqqında ingilis dilində yazılmış 6 əsər mühafizə olunur. İlk belə əsər "Global horizons: President Aliyev's visit to the USA /Edt. B.Blair.- Sherman Oaks, CA: Azerbaijan International, 1997.- 68 p." adlanır. Araşdırma nəticəsində sonuncu əsərin "Akhundova, Elmira. Return.- Baku: TEAS Press, 2017.- 663 p." adlı əsər olduğu müəyyən olundu.

ABS Konqres Kitabxanasının fondunda Heydər Əliyev haqqında turk dilində cəmi bir əsər mühafizə olunur. Bu əsər "Ülkü, İ. Kızıl yıldızdan hilâle: Haydar Aliyev'in fırtınalı hayatı /İrfan Ülkü.- İstanbul, 1993.- 73 s." adlanır. 1993-cü ildə İstanbulda nəşr olunmuş, 1996-cı ildə Konqres Kitabxanasının kolleksiyasına daxil olmuşdur.

Nəticə olaraq qeyd etmək lazımdır ki, dünyanın ən böyük kitabxanalarından biri olan ABŞ Konqres Kitabxanasında Ümummilli lider Heydər Əliyevin əsərlərini araşdırarkən belə qənaətə gəlmək olar ki, dünyaca ünlü şəxsiyyət olan Heydər Əliyevin bu kitabxanada qələmindən çıxan 8 əsər, 47 əsər isə müxtəlif dillərdə haqqında yazılmış mənbələrdir. Qarşıda duran əsas vəzifə Ümummilli lider Heydər Əliyevin dərin məzmunlu əsərləri və onun haqqında yazılmış mənbələrlə ABŞ Konqres Kitabxanasının fondunu zənginləşdirməkdən ibarətdir.

**Ədəbiyyat**

**1.** Aslan, K. Dünya kitabxanalarının tarixi:Dərslik. 2 hissədə. H.2. XVII əsrin ikinci yaısından XXI əsrin əvvəllərinədək.- Bakı: Bakı Universiteti nəşriyyatı, 2010.- 448 s.

**2.** Heydər Əliyev: biblioqrafiya /Layih. rəhb. Ə.Qarayev; tərt. ed.: M.Vəliyeva, M.İbrahimova, A.Hüseynova; elmi red. K.Tahirov; red. G.Səfərəliyeva.- Bakı, 2018.- 680 s. ("Azərbaycanın görkəmli şəxsiyyətləri ser.)

**3.** https://www.millikitabxana.az/publications/publications-of-the-library?date=2018

**4.** https://www.los.gov|about|general-information\2010at

**5.** https://az.wikipedia.org/wiki/Konqres_Kitabxanas%C4%B1

## National leader Heydar Aliyev's works in the US Library of Congress

**Summary:** *In the thesis, the works of National leader Heydar Aliyev which is available in the US Library of Congress and the sources written about him are investigated and involved in the research.*
**Key words:** *political figure, national leader, information, congress, library, law, innovation, information flow, national library, conference.*

## Произведения общенационального лидера Гейдара Алиева в Библиотеке Конгресса США

**Резюме:** *В тезисе рассматриваются и привлекаются к исследованию произведения общенационального лидера Гейдара Алиева, имеющиеся в библиотеке Конгресса США, и источники, написанные о нем.*
**Ключевые слова:** *политический деятель, общенациональный лидер, информация, съезд, библиотека, закон, инновации, информационный поток, национальная библиотека, конференция.*

**Yeganə Umud qızı Pirəliyeva,**
*Respublika Elmi Tibb Kitabxanasının direktoru*
*piraliyevayegana@mail.ru*

# TİBB KİTABXANALARININ İNKİŞAFINDA ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ROLU

**Xülasə:** *Məqalədə müasir Azərbaycanın memarı hesab edilən Heydər Əliyevin tibb elminin, praktik səhiyyənin inkişafında misilsiz roluna dair məlumatlar öz əksini tapmışdır. İlk növbədə Azərbaycan tibb elmində əsas tarixi məqamlarına toxunulmuş, Bakı Dövlət Universitetinin tibb elminin təşəkkül tapmasında rolu, Azərbaycan Tibb Universitetinin yaranması, bu dövrdə fəaliyyət göstərən görkəmli alim-həkimlər haqqında məlumat verilmişdir. Daha sonra Ümummilli lider Heydər Əliyevin Azərbaycan tibb elminin, tibbi kadr hazırlığında misilsiz səyləri haqqında bəhs edilmişdir. Heydər Əliyevin rəhbərliyi altında səhiyyə sahəsində imzalanan bir çox mühüm qanun və sərəncamlar sadalanmışdır.*

**Açar sözlər:** *Heydər Əliyev, Azərbaycan, səhiyyə, tibb elmi, tibb təhsili, alimlər.*

Hər bir şəxsiyyətin formalaşmasının, məhsuldar fəaliyyət göstərməsinin, layiqli və qürurlu ömür sürməsinin əsas şərtlərindən biri şərəfli inkişaf yolu keçmiş, böyük tarixi keçmişi və işıqlı ümid dolu gələcəyi olan şöhrətli millətə, dövlətə məxsus olmasıdır. Şanlı millətin və dövlətin təməl daşını qoyan, onun inkişafına böyük təkan verən isə onun dahi oğullarıdır. Bəli, bu gün əminliklə deyə bilərik ki, Heydər Əliyev məhz belə vətən oğludur. Dahilərin əsas fərqli cəhəti odur ki, onlar tarixi, keçmişi dərindən bilir, bu gününü yazır və gələcək inkişafına zəmin yaradırlar. Xalq öz dahilərinə inanır, dahilər isə öz xalqına güvənir. Heydər Əliyev-xalq münasibəti də məhz bu inam, etibar üzərində qurulmuş, nəticədə xalqın böyük ehtiramına çevrilirmişdr. Məhz buna görə xalq öz dahi şəxsiyyətini bu gün Ulu Öndər adlandırır.

Bu gün biz xalqın böyük liderinin düzgün siyasi, sosial-iqtisadi, mədəni quruluculuq tədbirlərinin böyük bəhrəsini görürük. Hər zəfərimizdə onun adı səslənir, hər uğurumuzda onun sədasını duyuruq. Dediyi kəlamları yaşadıqca daha dərindən dərk edir, dərk etdikcə daha da uca zirvələrə çatırıq.

Bunu eynilə biz kitabxanaçılara, biblioqraflara da aid etmək olar. Bu günün kitabxanaçısı alimdir, tədqiqatçıdır, pedaqoqdur, tərbiyəçidir, hətta tibb kitabxanalarının bir nümayəndəsi kimi deyərdim ki, bir qədər də həkimdir.

Respublikamızda tibb kitabaxanalarının yaranması və inkişafını öyrənmək üçün ilk növbədə tibb elminin və praktik səhiyyənin yaranması və inkişafı məsələlərini xarakterizə etmək məqsədəuyğun olardı.

Azərbaycanın tibb tarixi qədim zamanlardan başlayır. Lakin elmi təbabətin yaradılması və inkişaf etdirilməsi istiqamətində ilk addımlar XIX əsrin II yarısında atılmışdır. Tibb elminin inkişafının ilk sələfləri olaraq Həsən bəy Zərdabi, Nəcəf bəy Vəzirov, Mustafa bəy Vəkilovu [3] misal göstərmək olar.

Azərbaycanda tibb elminin ilk inkişaf mərhələləri Rusiyanın və digər ölkələrin müxtəlif universitetlərində təhsil almış ilk azərbaycanlı həkimlərin sayəsində mümkün olmuşdur. Belə mütəxəssislərdən biri Mirzə Kazım bəydir. 1887-ci ildə "Ürəyin innervasiyasına dair materiallar" mövzusunda dissertasiya müdafiə edərək, doktorluq dərəcəsi almış Mirzə Kazım bəyin terapiya elminin inkişafında, difteriyaya qarşı mübarizədə böyük xidmətləri olub [5].

XX əsrin əvvəllərində azərbaycanlı gənclərin çox az hissəsi Rusiyada və digər xarici ölkələrdə təhsil ala bilirdi. Azərbaycanda elmi təbabət, kütləvi tibbi xidmət yeni-yeni təşəkkül tapırdı. Müalicə ocaqları, milli tibb kadrları çatışmadığı üçün səhiyyənin inkişafı ləngiyirdi.

Azərbaycanda elmi təbabətin, tibb elminin güclü inkişafı 1919-cu ildə Bakı Dövlət Universitetinin təşkil olunması və burada tibb fakültəsinin yaradılması ilə bağlı olmuşdur. Universitetin yaradılması ilə Azərbaycanda tibb elminin inkişafı sürətləndi [1].

Bakı Dövlət Universitetinin ilk rektoru, görkəmli cərrah, professor Vasili İvanoviç Razumovski, tibb fakültəsinin ilk dekanı isə professor İvan İvanoviç Şirokoqorov oldu. 1920-ci ildə fakültənin cərrahlıq klinikasının ordinatoru M.A.Topçubaşov seçilmişdir.

Fakültə yaradılqdıqda 2 kafedra olduğu halda, qısa müddət ərzində kafedraların sayı 25-ə çatmışdır.

Azərbyacanda ilk universitetin yaradılması tibb alimlərinin adı ilə bağlı olmuşdur. Tibb fakültəsi həm tələbələrinin sayına, həm də aparılan elmi-tədqiqat işlərinin miqyasına görə ön sıralarda olmuşdur.

Lakin tibb fakültəsinin qarşısında bir sıra çətinliklər dururdu. Bunlardan biri də kitabxana ilə bağlı idi. Tələbələrin məşğul olması üçün elmi-tibbi ədəbiyyata tələbat böyük idi. Bunlar nəzərə alınaraq 1922-ci ildə Petroqrad şəhərindən tibbə dair çoxlu elmi ədəbiyyat gətirilmişdir.

Tibb fakültəsinin yaradılması ilə yanaşı, bir sıra elmi-tibbi cəmiyyətlər də yaradılmışdır. 1922-ci ildə Azərbaycan tibb cəmiyyəti, həmin ildə psixiatrlar və nevropatoloqlar, oftalmoloqlar elmi cəmiyyəti, 1923-cü ildə cərrahlar, 1924-cü ildə dermatoloqlar, anatomlar, 1926-cı ildə həkim mama-ginekoloqlar, 1932-ci

ildə fizioloqlar, farmakoloqlar və bioloji kimyaçılar, 1936-cı ildə rentgenoloqlar, radioloqlar, ftiziatorlar və başqa tibb elmi cəmiyyətləri yaradılmışdır.

1922-ci ildə universitetin tibb fakültəsinin 29 məzunundan yalnız 3 nəfəri azərbaycanlı olmuşdur. Fakültəni 1923-cü ildə 82, 1924-cü ildə 213, 1925-ci ildə 221 məzun bitirmişdir. 1922-1925-ci illərdə fakültəni bitirən 546 nəfərdən 80 nəfəri azərbaycanlı olmuşdur. Bundan 50 il sonra Azərbaycan Tibb İnstitutunun buraxdığı 756 məzundan 528 nəfəri azərbaycanlı olmuşdur. 1920-ci ildə professorlar arasında bir nəfər də azərbaycanlı olmadığı halda, 50 ildən sonra 68 professordan 59 nəfəri azərbaycanlı olmuşdur.

Tibb İnstitutu yaradıldıqdan 4 il sonra institutun nəzdində nəşriyyat yaradılmışdır. Həmin nəşriyyat "Nəzəri və praktik təbabət" jurnalı, "Elmi əsərlər" toplusunu çap etdirirdi. Burada K.Balakişiyevin "Anatomiya", M.Hüseynovun "Histologiya", Mirqasımovun "Cərrahlıqdan qısa dərs vəsaiti", Z.Məmmədovun "Operativ cərrahlıq və topoqrafik anatomiya", M.Topçubaşovun "Xüsusi cərrahlıq", Atayevin "Klinik analizlər" və s. kimi Azərbaycan dilində qələmə alınmış dərslik və dərs vəsaitləti işıq üzü görmüşdür. Bütün bunlar tibb terminlərinin toplanıb nəşr edilməsinə, müxtəlif dillərdə lüğətlərin hazırlanmasına səbəb olmuşdur.

60-cı illərin sonu – 70-ci illərin əvvəllərində, Heydər Əliyevin hakimiyyətə gəldiyi dövrdən səhiyyədə ciddi inkişaf dövrü başladı. Heydər Əliyev səhiyyə quruculuğu ilə əlaqədar qarşıya qoyduğu tədbirlər kompleksinə köhnə səhiyyə ocaqlarının yenidən qurulması, yenilərinin tikilməsi və ən müasir aparatlarla təchiz edilməsi, eləcə də əhalinin kütləvi surətdə dispanser qeydiyyatdan keçirilməsi və sahə həkimlərinin fəaliyyətinin artırılmasından başladı.

Heydər Əliyevin Azərbaycana rəhbərliyi illərində respublikada həkim kadrlarının və təbabət alimlərinin hazırlığı yüksək vüsət aldı, yeni elmi mərkəzlər açıldı, təbabət üzrə elmi-tədqiqat institutlarının fəaliyyəti canlandırıldı, ölkədə tibb elminin müxtəlif istiqamətləri üzrə konfranslar, forumlar keçirildi. Fizioloq və patofizioloqların (1970, 1981), uroloqların (1972), nevropatoloqların (1974), oftalmoloqların (1977), hematoloq və transfuzioloqların (1978), tibbi bioloqların (1979), nefroloqların (1980), mikrobioloq, epidemioloq və parazitoloqların (1982) və digər sahə mütəxəssislərinin Bakıda keçirilən qurultay və konfransları yüksək hazırlıqlı tibbi kadrların imkanlarını və qabiliyyətlərini səfərbər etmək məqsədi daşıyırdı. Ümumittifaq tədbirlərin respublikamızın paytaxtında keçirilməsinin elmi-praktik əhəmiyyəti ilə yanaşı, həm də siyasi mənası var idi. Bakı ittifaq miqyaslı elmi mərkəzə, tibb alimlərinin ənənəvi görüş yerinə çevrilmişdi [4].

Hər birimiz Ulu öndərin şeriyyətə, ədəbiyyat, incəsənətə olan böyük marağından və bu sahədə dərin biliklərə malik olmasından danışırıq. Lakin

unutmaq olmaz ki, Heydər Əliyev tibb elmi, parkatik səhiyyəyə də son dərəcə yaxın, hətta doğma olmuşdur. Onun ömür-gün yoldaşı Zərifə xanım və onun əksər ailə üzvlərinin həkimlər olduğunu unuda bilmərik. Böyük ehtiramla, fəxrlə anılan akademik Zərifə xanım böyük alim, tanınmış oftalmoloq, incə ruhlu, qayğıkeş həkim olmuşdur. Azərbaycan tibb elminin günəşi hesab edilən Zərifə xanım gərgin fəaliyyətlə məşğul olan, həyatını bütövlükdə Azərbaycana həsr edərək yorulmadan müqəddəs amallar uğrunda çalışan ümummilli liderimiz Heydər Əliyev ilə çiyin-çiyinə çalışmışdır desək, yanılmarıq.

Ulu öndər Azərbaycan səhiyyəsinin, tibb elmi və tibb təhsili sistemlərinin ən möhtəşəm yaradıcısı, qurucusu, dinamik inkişafının tənzimləyicisi kimi yaddaşlarımıza əbədi köşmüşdür.

Ulu öndər XX əsrin 70-80-ci illərində həmin siyasətin tərkib hissəsi kimi elm, təhsil və səhiyyə sistemlərinin inkişafını təmin edərək, dövlətimizdə həyati əhəmiyyət kəsb edən tədbirlərə imza atmışdır. Ulu öndər tibb üzrə xarici mütəxəssislərin diqqətini Azərbaycana cəlb etməyə, onlarla yerli mütəxəssislər arasında əlaqə yaratmağa çalışmış, bununla da səhiyyə, o cümlədən tibb elmi və tibb təhsili və səhiyyə sahələrində olan durğunluğu aradan qaldırmışdır.

Keçən əsrin 60-cı illərinin sonu, 70-ci illərinin əvvəllərindən etibarən Heydər Əliyvevin rəhbərliyi altında tibb üzrə beynəlxalq qurultay, simpozium, konqres və konfranslar Bakıda keçirilməyə başlamışdır. Həmin illərdə Azərbaycan Dövlət Tibb İnstitutu keçmiş Sovet İttifaqında görkəmli tibbi kadrlar hazırlayan sayılıb-seçilən elm və təhsil məbədlərindən birinə çevrilir [2].

Heydər Əliyev ölkəyə rəhbərlik etdiyi illərdə yüzlərlə gənc azərbaycanlı həkim müxtəlif ixtisaslar üzrə SSRİ səviyyəsində doktoranturaya qəbul edilmişdir. Tibb sahəsində mütəxəssislərin yeni nəslinin nümayəndələri yetkin tədqiqatçılar kimi vətənə qayıdıb fəaliyyətlərini genişləndirirdilər. Zərifə Əliyeva, İbrahim Topçubaşov, Həmidbəy Mahmudbəyov, Tamerlan Əliyev, Tağı Tağızadə, Adilə Namazova, Böyükkişi Ağayev və başqalarının adları bu gün səhiyyəmizin inkişaf tarixində ən mötəbər yerlərdən birini tutur, onların elmi məktəbləri dərindən öyrənilir. Eyni zamanda, həmin illərdə tibbin müxtəlif elmi istiqamətləri - cərrahiyyə, terapiya, mikrobiologiya, urologiya, oftalmologiya, allerqologiya və immunologiya, pediatriya, kardiologiya, onkologiya, anesteziologiya və reanimatologiya, epidemiologiya, ginekologiya, stomatologiya, morfologiya və s. üzrə beynəlxalq səviyyəli elmi-tədqiqat işləri aparılıb, alınan nəticələr dünya alimləri tərəfindən yüksək dəyərləndirilibdir.

Ulu öndər 1998-ci il sentyabrın 28-də Azərbaycan Tibb Universitetinin yeni 11 mərtəbəli tədris binasının açılışında çıxış edərkən Azərbaycan səhiyyəsinin inkişafına, onun maddi-texnik bazasının möhkəmləndirilməsinə göstərdiyi saysız-hesabsız amillərə toxunmuşdur.

Xarici ölkələrdə Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycandan kənarda tibb təhsili alan XXI əsrdə Azərbaycanda aparıcı mütəxəssislərə çevrilmişlər. Tam əminliklə deyirəm ki, həm mənim həyatımda, həm ölkəmizin tibb kadrlarının, həm də bütövlükdə Azərbaycan Tibb Universiteti kollektivinin həyatında əsaslı rol oynayan ulu öndərin sayəsində Azərbaycanda tibb elmi və tibb təhsili sahəsinin, eləcə də Azərbaycan səhiyyəsinin bütün sahələri üzrə çox sanballı, yüksək səviyyəli milli kadrlar yetişib və onlar da öz məktəblərini yarada biliblər. Tibb elmi və tibb təhsili sahəsində yaratmaq o qədər də asan məsələ deyildir. Belə məktəblər bir ilin, beş ilin ərzində yarana bilməz. Bu gün Azərbaycanda Heydər Əliyevın dəstəyiilə uzun inkişaf yolu keçərək, beynəlxalq səviyyəli mütəxəssis məktəbləri yaranmışdır. İndi Azərbaycanın milli tibb kadrları nəinki ölkəmizdə, hətta dünyanın bir sıra inkişaf etmiş ölkələrinin tanınmış tibb müəssisələrində də böyük müvəffəqiyyətlə fəaliyyət göstərirlər.

1993-2003-cü illərdə yenidən ölkəyə rəhbərlik edən Heydər Əliyevin qanunvericilik təşəbbüsü əsasında Milli Məclisdə "Əhalinin sağlamlığının qorunması haqqında", "Qan və onun komponentlərinin donorluğu haqqında", "Əczaçılıq fəaliyyəti haqqında", "Tibbi sığorta haqqında", "Xüsusi tibbi fəaliyyət haqqında", "Özəl tibb fəaliyyəti haqqında", "Sanitar-epidemioloji sağlamlıq haqqında" və s. qanunların, eləcə də "Dövlət sığortası haqqında" əsasnamənin qəbulu bu baxımdan xüsusi vurğulana bilər. Bundan başqa, 1993-cü ildə Səhiyyə Nazirliyi Ümumdünya Səhiyyə Təşkilatının poliomielitə qarşı mübarizə proqramlara qoşulmuşdur. 1998-ci il martın 13-də isə Heydər Əliyev "Səhiyyə sahəsində islahatlar üzrə Dövlət Komissiyasının yaradılması haqqında" sərəncam imzalamışdır.

Göründüyü kimi təşəkkül tapdığı dövrlərdən başlayaraq, indiyə qədər tibb elmi son dərəcə intensiv inkişaf edən elm sahələrindən biri olmuşdur. Ulu öndərin daimi dəstəyi və diqqətilə inkişaf edən tibb elmində fəaliyyət göstərən alim-həkimlərimiz xalqın sağlamlığının keşiyində durmaqla yanaşı, tibb elminin inkişafına böyük töhfələr vermişlər. Azərbaycan tibb elminin dünya tibb elminə inteqrasiya etməsi sahəsində böyük işlər görülümüşdür. Müntəzəm olaraq respublikamızda tibbin ayrı-ayrı sahələrinə dair beynəlxalq konfranslar keçirilir. Azərbaycan alimləri başqa ölkələrdə keçirilən dünya miqyaslı elmi-tibbi toplantılarda layiqincə ölkəmizi təmsil edirlər.

Azərbaycan tibb elmində Respublika Elmi Tibb Kitabxanasının da özünməməxsus yeri vardır. 80 ildən çox yaşı olan kitabxana xüsusi elmi kitabxana olub, sosial-gigiyena və səhiyyənin təşkili, klinik və profilaktik təbabət, sanitar-epidemiologiya və tibb elminin digər problemləri ilə məşğul olan alim və mütəxəssisləri kitabxana-biblioqrafiya xidməti ilə təmin edən bitkin bir in-

formasiya sistemidir. Azərbaycan Respublikasında tibb kitabxanaları şəbəkələrinə təşkilati-metodik rəhbərlik göstərir.

Kitabxana səhiyyə müəssisələri sisteminə daxildir və Səhiyyə Nazirliyinin tabeliyindədir. Səhiyyə orqanlarının, elmi-tədqiqat və müalicə-profilaktika müəssisələrini xalqın sağlamlığı problemləri, sosial-gigiyena və səhiyyənin təşkili, klinik və profilaktik təbabət, sanitar-epidemioloji və səhiyyənin, tibb elminin digər problemləri ilə məşğul olan alim və mütəxəssisləri kitabxana-biblioqrafiya və informasiya ilə vaxtında təmin edir. Azərbaycan Respublikasında tibb kitabxanaları şəbəkələrinə təşkilatı-metodik rəhbərliyi və onların əlaqəli fəaliyyətini həyata keçirmək, elmi-təqiqat institutlarının, ali və orta tibb təhsil müəssisələrinin elmi tibbi informasiya şöbələrinin fəaliyyətinə metodiki və koordinasiyası üzrə rəhbərliyi həyata keçirir.

Ulu öndər kitabxanaların mənəviyyat, bilik, zəka mənbəyi dalandırırdı. Biz tibb kitabxanaçıları da onun müdrik kəlamlarından daim ilham alırıq. Hyüstonda tibb mərkəzinin professoru, dünya şöhrətli ürək cərrahı Maykl De Beyki deyirdi: "“Görkəmli dövlət xadimi Heydər Əliyev ülvi, bəşəri hisslərlə yaşayan bir rəhbərdir” [6]. Belə bir rəhbəri olan dövlətin vətəndaşları olmaq həm qürurvüricidir, həm də məsuliyyətli. Xüsusilə elm, təhsil, mədəniyyətin göstəricisi hesab edilən biz kitabxanaçılar üçün bu məsələ daim aktual və prioritet olaraq qarşıda durur.

Böyük Ulu öndər Heydər Əliyevin kəlamları ilə bitirmək istəyirəm: “Ağıl olan yerdə zora ehtiyac yoxdur”.

**Ədəbiyyat**


**1.** Allahverdiyev, M. Müasir Azərbaycan səhiyyəsi və gerçəkləşən xəyallar //525-ci qəzet.- 2009.- 10 iyul.- S.4.

**2.** Əmiraslanov, Ə. Heydər Əliyev ideyaları: tibb təhsili və səhiyyənin sabit inkişafının təminatı //Xalq qəzeti, 2018.- 11 may.

**3.** Seyidbəyli, M.H. Azərbaycan tibb tarixinin qaynaqları və tarixşünaslığı /M.H.Seyidbəyli, B.N.Quliyev, S.N.Namazova.- Bakı, 2019.- 298 s.

**4.** Şirəliyev, O. Azərbaycan Respublikasının səhiyyə naziri //Respublika.- 2013.- 9 may.- S.3.

**5.** Şirəliyeva, R.K. Azərbaycan tibb elminin tarixi /R.K.Şirəliyeva, Y.U.Pirəliyeva, R.R.Əliyev //Milli nevrologiya jurnalı.- 2018.- №1.- S.64-68.

**6.** Xələfov, A.A. Heydər Əliyev və Azərbaycanda kitabxana işi.- Bakı: Azərnəşr.- 2006.- 312 s.

## The decisive stage of the great leader Heydar Aliyev in the development of medical libraries

**Summary:** *The article contains information about the unique role of Heydar Aliyev, who is considered the architect of modern Azerbaijan, in the development of medical science and practical healthcare. First of all, the main historical moments in the medical science of Azerbaijan were touched upon, information was given on the role of Baku State University in the development of medical science, on the creation of the Azerbaijan Medical University, on prominent scientists and doctors who worked during this period. Further, it is said about the unprecedented efforts of the national leader Heydar Aliyev in the medical science of Azerbaijan, in the training of medical personnel. Many important laws and decrees signed in the field of healthcare under the leadership of Heydar Aliyev are listed.*

**Key words:** *Heydar Aliyev, Azerbaijan, healthcare, medical science, medical education, scientists.*

## Решающий этап великого лидера Гейдара Алиева в развитии медицинских библиотек

**Резюме:** *В статье содержится информация об уникальной роли Гейдара Алиева, которого считают архитектором современного Азербайджана, в развитии медицинской науки и практического здравоохранения. В первую очередь были затронуты основные исторические моменты в медицинской науке Азербайджана, даны сведения о роли Бакинского государственного университета в становлении медицинской науки, о создании Азербайджанского медицинского университета, о видных ученых и врачах, работавших в этот период. Далее говорится о беспрецедентных усилиях общенационального лидера Гейдара Алиева в медицинской науке Азербайджана, в подготовке медицинских кадров. Перечислены многие важные законы и указы, подписанные в области здравоохранения под руководством Гейдара Алиева.*

**Ключевые слова:** *Гейдар Алиев, Азербайджан, здравоохранение, медицинская наука, медицинское образование, ученые.*

**Zahidə Tofiq qızı Rzayeva,**
*Bakı Dövlət Universitetinin İnformasiya və sənəd menecmenti fakültəsinin dekan müavini, tarix üzrə fəlsəfə doktoru, dosent*
*zahidarzayeva@mail.ru*

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN MİLLİ KİTABXANAYA GƏLİŞLƏRİ DÖVLƏT QAYĞISININ TƏZAHÜRÜ KİMİ

**Xülasə:** *Məqalədə ulu öndər Heydər Əliyevin 1995-1997-ci illər ərzində M.F.Axundzadə adına Respublika Dövlət Kitabxanasına (indiki Azərbaycan Milli Kitabxanasına) səfərlərindən bəhs edilir. Burada qeyd olunur ki, dahi rəhbər bu kitab mədəniyyəti xəzinəsinin fəaliyyəti ilə daim maraqlanmış, kitabxana əməkdaşlarının işini yüksək qiymətləndirmişdir. Səriştəli mütaliəçi və kitab təəssübkeşi olan görkəmli dövlət xadimi Heydər Əliyev şəxsi kitabxanasından Milli Kitabxanaya 300 nüsxə kitab bağışlamışdı.*

**Açar sözlər:** *Ulu öndər Heydər Əliyev, Azərbaycan kitabxanaları, M.F.Axundzadə adına Respublika Dövlət Kitabxanası, Azərbaycan Milli Kitabxanası, miniatür kitablar sərgisi.*

Ulu öndər Heydər Əliyevin kitabxana işinə diqqət və qayğısı Azərbaycanın müstəqilliyinin ilk dövrlərində özünün ən parlaq ifadəsini nümayiş etdirmişdir. Kitaba, mütaliəyə, kitabxana işinə yüksək dəyər verən dahi şəxsiyyət sovet hakimiyyəti zamanı respublikamızda milli mədəniyyətin inkişafına verdiyi misilsiz töhfələri müstəqillik illərində daha da zənginləşdirmiş, kitabxana işinə qayğını dövlət siyasəti səviyyəsinə qaldırmışdır.

Heydər Əliyevin 1995-1997-ci illər ərzində dörd dəfə M.F.Axundzadə adına Respublika Dövlət Kitabxanasına (indiki Azərbaycan Milli Kitabxanasına) gəlməsi, bu kitab mədəniyyəti xəzinəsinin fəaliyyəti ilə maraqlanması, kitabxana əməkdaşlarının işini yüksək qiymətləndirməsi səriştəli mütaliəçi və kitab təəssübkeşi olan bu görkəmli dövlət xadiminə xalqın hörmət və ehtiramını daha da artırmışdır.

Ulu öndər Heydər Əliyev müstəqilli dövründə Azərbaycan Milli Kitabxanasına ilk dəfə 1995-ci il iyunun 3-də gəlmişdir. Həmin gün Azərbaycan Qadınları Milli Komitəsinin, Respublika Kitab Cəmiyyətinin və ABŞ-ın "Stark enterprayz" firmasının təşəbbüsü ilə kitabxanada "Vətənə, dövlətə, xalqa sədaqət andı" miniatür kitabın təqdimat sərgisi təşkil olunmuşdu. Sərgidə XVIII əsrdən bəri müxtəlif dillərdə nəşr edilmiş iki minə qədər miniatür kitab nümayiş etdirilirdi.

Sərgi Azərbaycan "Kitab" Cəmiyyətinin sədri, Azərbaycan kitabının bacarıqlı təbliğatçılarından biri, kitab həvəskarı Zərifə Salahova tərəfindən hazırlanmışdı. Zərifə xanmın və digər təşkilatçıların dəvəti məmnuniyyətlə qəbul edən Prezident Heydər Əliyevin sərgiyə gəlişi bütövlükdə bu tədbirin mədəni əhəmiyyətini daha da artırmış, kitab nəşri sahəsinə dövlət qayğısının təzahürünə çevrilmişdi.

Heydər Əliyevin prezident kimi andiçmə mərasimində söylədiyi Vətənə, dövlətə, xalqa sədaqət andı olan nitqin miniatür şəkildə Azərbaycan, rus və ingilis dillərində nəşr edilmiş variantları dövlət başçısına hədiyyə edilməsi sərginin ən yaddaqalan cəhətlərindən birinə çevrildi.

Sərgidə böyük həvəslə iştirak edən və burada nümayiş olunan kitabları məmnunluqla seyr edən Heydər Əliyev təntənəli açılış mərasimində dərin məzmunlu nitq söylədi.

Prezident Heydər Əliyevin həmin çıxışı o dövrün kütləvi informasiya vasitələrində geniş işıqlandırıldı və rəğbətlə qarşılandı. Dövlət başçısının "Xalqımız Azərbaycanın elmi-mədəni potensialından bundan sonra daha çox bəhrələnməlidir" başlığı ilə çap edilmiş nitqi bu gün də özünün tarixi əhəmiyyətini qoruyur.

Heydər Əliyev deyir: "Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyət, bilik, zəka mənbəyidir. Ona görə də kitabxanaya daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir.

Mən vaxtilə bu kitabxanaya dəfələrlə gəlmişəm. Amma bu gün kitabxananın astanasından keçərkən çox böyük hörmət və ehtiram hissi duyuram. Kitabxanaya, burada çalışan insanlara hörmət və ehtiramımı bildirmək istəyirəm".

Milli kitabxanaşünaslıq elminin banisi, professor Abuzər Xələfov Prezidentimizin bu çıxışı bu barədə bəhs edərkən yazır: "Ulu öndərin mühüm proqram əhəmiyyətinə malik olan bu çıxışında müstəqillik şəraitində kitab və kitabxanaların yeri və vəzifələri müəyyənləşdirilmiş, cəmiyyətin gələcək inkişafında onların roluna xüsusi diqqət yetirilmişdir. Prezidentin bu çıxışı elmi-nəzəri və fəlsəfi baxımdan cəmiyyətdə kitabxanaların statusunu, vəzifələrini və gələcək inkişaf istiqamətlərini müəyyənləşdirən böyük elmi-metodoloji əhəmiyyətə malik olan bir sənəddir.

Tarixdən məlumdur ki, dünyanın görkəmli dövlət, elm və mədəniyyət xadimləri kitabxanalar haqqında çox qiymətli, mühüm elmi, mədəni əhəmiyyət kəsb edən fikirlər söyləmişlər. Bu kəlamlar içərisində H.Əliyevin fıkirləri öz məzmunu və elmiliyi etibarilə çox yüksəkdə durur. Mübaliğəsiz demək olar ki, H.Əliyevin böyük fəlsəfi mahiyyət kəsb edən bu fikirləri dünya mədəniyyəti

tarixində kitabxanaya verilən ən müdrik kəlam, elmi və mədəni əhəmiyyətə malik olan fikirlərdir".

Görkəmli alimin vurğuladığı kimi, Prezidentin kitabxananı müqəddəs bir yer, yəni ilahi qüvvəyə malik, toxunulmaz, sarsılmaz, pak, təmiz bir yer adlandırması kitabxanaların cəmiyyətin mənəvi tərbiyəsində böyük məsuliyyət daşımasını ön plana çəkir. Eyni zamanda dövlət başçısının kitabxanaları mənəviyyat, bilik, zəka mənbəyi kimi xarakterizə etməsi bu mədəniyyət ocaqlarının cəmiyyət qarşısında elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə kimi mühüm sosial funksiyaları yerinə yetirmək vəzifələrini əsaslandırır.

Ulu öndər Heydər Əliyev öz çıxışında kitabxana işinin mahiyyətinə yeni məna və məzmun vermiş, onu xalqımızın ümumi mədəni səviyyəsi ilə əlaqələndirərək demişdir ki, "...kitabxanaya daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir".

Doğrudan da xalqımızın tarixi keçmişinə, mədəniyyət tarixinə nəzər saldıqda belə bir həqiqət aşkar olur ki,

Azərbaycan xalqının tarixən kitaba və kitabxanaya sonsuz hörmət bəslədiyini, bütün məşəqqətlərə rəğmən qoruyub saxladığını, nəsillərdən nəsillərə miras verdiyini qiymətləndirən Heydər Əliyev öz çıxışında dünyanın ən qədim peşələrindən biri olan kitabxanaçı peşəsinə böyük hörmət və ehtiramını belə bildirir: "Mən vaxtilə bu kitabxanaya dəfələrlə gəlmişəm. Amma bu gün kitabxananın astanasından keçərkən çox böyük ehtiram hissi duyuram, kitabxanaya, burada çalışan insanlara hörmət və ehtiramımı bildirmək istəyirəm".

Daha sonra sərginin təşkilindən danışan Heydər Əliyev deyir: "Buradakı sərgidə Azərbaycanın görkəmli yazıçı və şairlərinin, alimlərinin əsərlərinin miniatür nəşrləri nümayiş etdirilir. Bir daha qeyd edirəm ki, bu əlamətdar hadisədir. Yazıçı və şairlərimiz, alimlərimiz, mədəniyyət xadimlərimiz böyük potensiala malikdirlər. Onların indiyədək yazdıqları əsərlər Azərbaycan xalqının təhsillənməsində, biliklənməsində, elm və mədəniyyətimizin, mənəviyyatımızın inkişafında öz rolunu oynamışlar. Ancaq xalqımız Azərbaycanın elm və mədəniyyət potensialından bundan sonra daha çox bəhrələnməlidir. Ona görə də çalışmalıyıq ki, belə yaradıcı adamlar öz fəaliyyətlərini davam etdirsinlər. Onlara kömək etməliyik, şərait yaratmalıyıq".

Heydər Əliyev miniatür kitablar sərgisinə gələrkən şəxsi kitabxanasından M.F.Axundzadə adına Dövlət Kitabxanasına 300 kitab bağışlamışdı. Sərgidə həmin qiymətli kitabların nümayişi üçün xüsusi guşə təşkil edilmişdi.

Kitabları kitabxanaya hədiyyə edərkən Heydər Əliyev deyir: "Mən indi kitabxanaya xeyli kitab bağışladım. Güman edirəm ki, bunlar fondda öz yerini tutacaqdır. Bunlar cəmiyyətimiz üçün çox gərəkli olan, ayrı-ayrı mövzulara həsr

edilmiş kitablardır. Bunlar mənim özümün deyil, müxtəlif müəlliflərin kitablarıdır və kitabxananın böyük xəzinəsində öz yerini tutarlar. Zənnimcə, bu təşəbbüs də davam edə bilər... Bilirəm, bizim bu kitabxananın çox böyük fondu var.. Ancaq kitabxana elə bir yerdir ki, gərək daim onun fondu genişlənsin. Çünki dünya dəyişir, yeni əsərlər, kitablar yaranır, bunlar insanlara yeni biliklər, yeni məlumat gətirir. Ona görə də bizim bu mərkəzi kitabxanamız daim yeni-yeni nəşrlərlə təmin olunsun... Bağışladığım kitabları nümayiş etdirmək istəmirəm. Ancaq bizim üçün müqəddəs olan bir kitabı da bağışlamaq istəyirəm. Bilirsiniz ki, mən Səudiyyə Ərəbistanına rəsmi səfərə getmişdim... Orada – İslam dininin mərkəzi olan Məkkədə mənə Quranın nüsxələrini bağışlamışlar. Çox nəfis şəkildə buraxılmış bu nüsxələrdən birini də Dövlət Kitabxanasına verirəm".

Əlbəttə, mədəni ölkələrdə məşhur şəxsiyyətlərin kitabxanalara kitab hədiyyə verməsi həmişə əlamətdar hadisə olmuşdur. Görkəmli dövlət xadimi Heydər Əliyevin bu ənənəni davam etdirməsi respublikamızda kitaba və kitabxanaya ehtiramın bariz nümunəsi kimi dəyərləndirilməlidir. Sevindirici haldır ki, ulu öndərin bu təşəbbüsündən sonra bir çox görkəmli ziyalılarımız dövlət başçısının təşəbbüsünü davam etdirərərk Milli Kitabxanaya və respublikamızın digər kitabxanalarına kitab hədiyyə verməyə başlamışdılar. Hazırda bu iş geniş vüsət almışdır. Elə bu təşəbbüsün davamı kimi ulu öndərin layiqli varisi və davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəşadətli sərkərdəliyi ilə erməni işğalından azad olunmuş bölgələrimizdə kitabxana quruculuğuna başlanılmaqdadır. Artıq Mədəniyyət Nazirliyi və Milli Kitabxana ulu öndər Heydər Əliyevin başladığı ənənəni davam etdirərək "Qarabağa kitabla gedək!" adlı kampaniyaya start vermişlər.

Prezident Heydər Əliyev M.F.Axundzadə adına Milli Kitabxanaya ikinci dəfə 1996-cı il martın 5-də gəlmişdir. Bu səfər zamanı o, İsraildə nəşr olunan "Heydər Əliyev: Siyasi portretin cizgiləri" kitabının təqdimat mərasimində iştirak etmişdir. Tədbirdə çıxış edən dövlət başçısı Milli Kitabxananın Azərbaycan elminin və mədəniyyətinin inkişafındakı rolundan danışmış, belə kitabların təqdimatının məhz bu kitabxanada keçirilməsinin ənənəyə çevriləcəyini söyləmişdir.

M.F.Axundzadə adına Milli Kitabxanaya Prezident Heydər Əliyevin üçüncü gəlişi 1997-ci il noyabrın 6-da baş tutmuşdur. O, "Azərbaycan qaçqınları" fotoalbomunun təqdimat mərasimində iştirak və çıxış etmişdir.

Ulu öndər Heydər Əliyev M.F.Axundzadə adına Milli Kitabxanada dördüncü dəfə 1997-ci il noyabrın 22-də olmuşdur. Dahi rəhbər bu səfəri

zamanı Amerikada nəşr edilən "Azərbaycan interneşl" jurnalının beşilliyinə həsr olunmuş mərasimdə iştirk etmiş, mənalı və məzmunlu nitq söyləmişdir.

Ümumiyyətlə, M.F.Axundzadə adına Milli Kitabxanada keçirilən kitab təqdimatı mərasimlərində xalqımızın ümummilli lideri Heydər Əliyevin iştirakı, respublikamızda və xarici ölkələrdə yeni nəşr olunan kitablar haqqında söz söyləməsi, bütövlükdə kitab nəşri, kitabxana işi, kitabın təbliği ilə bağlı dəyərli fikirlər səsləndirməsi bu işin mühüm mədəni əhəmiyyət kəsb etməsinə, geniş vüsət almasına səbəb olmuşdur. Doğrudan da dövlət başçısının yeni çapdan çıxmış kitabların təqdimat mərasimində çıxışları kitabı təhlil etməyin və qiymətləndirməyin ən yaxşı nümunəsi kimi diqqətə layiqdir.

Beləliklə, Heydər Əliyevin M.F.Axundzadə adına Milli Kitabxanaya münasibəti, xalqımızın bu milli kitab xəzinəsini həmişə diqqət mərkəzində saxlaması, ona yeksək səviyyədə qayğı göstərməsi müstəqillik illərində kitabxana işi sahəsin cidii dönüşə səbəb olmuşdur. Məhz bu diqqət və qayğı sayəsində Azərbaycan kitabının və kitabxanasının inkişaf istiqamətləri müəyyənləşdirilmiş, oxuculara xidmət işinin təşkili, kitabxana işinin demokratikləşdirilməsi istiqamətndə mühüm nailiyyətlər qazanılmışdır.

**Ədəbiyyat**


**1.** Əliyev, H. Müstəqillik yollarında: III cild.- Bakı, 1997.- S.397.

**2.** Xalqımız Azərbaycanın elmi-mədəni potensialından bundan sonra daha çox bəhrələnməlidir //"Azərbaycan" qəzeti.- 1995.- 3 iyun.

**3.** Xələfov, A. Azərbaycanda kitabxana işinin tarixi: Dərslik. III hissə /Elmi red. Knyaz Aslan.- Bakı: Bakı Universiteti Nəşriyyatı, 2010.- 432 s.

**4.** Xələfov, A. Heydər Əliyev və Azərbaycanda kitabxana işi: Monoqrafiya /Elmi red. Tamella Musayeva; Red. Knyaz Aslan.- Bakı: Azərnəşr, 2006.- 312 s.

**5.** "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu: Bakı şəhəri, 29 dekabr 1998-ci il; № 611-IQ.
URL: https://e-qanun.az/framework/5041

**6.** Tahirov, K. Heydər Əliyev və Milli Kitabxana /Elmi red. Ədibə İsmayılova.- Bakı: Şərq-Qərb, 2023.- 180 s.

## Visits of national leader Heydar Aliyev to the national library as a manifestation of state concern

**Summary:** *The article tells about the visits of the great leader Heydar Aliyev to the Republican State Library named after M.F.Akhundzade (now the National Library of Azerbaijan) in 1995-1997. It is noted here that the brilliant leader was always interested in the activities of this treasury of book culture and highly appreciated the work of the library staff. Prominent statesman and book fan Heydar Aliyev donated 300 copies of books from his personal library to the National Library.*

**Key words**: *national leader Heydar Aliyev, Azerbaijani libraries, Republican State Library named after M.F.Akhundzade, National Library of Azerbaijan, exhibition of miniature books.*

## Визиты общенационального лидера Гейдара Алиева в национальную библиотеку как проявление государственной заботы

**Резюме:** *В статье рассказывается о визитах великого лидера Гейдара Алиева в Республиканскую государственную библиотеку имени М.Ф.Ахундзаде (ныне Национальная библиотека Азербайджана) в 1995-1997 гг. Здесь отмечается, что гениальный руководитель всегда интересовался деятельностью этой сокровищницы книжной культуры и высоко оценивал работу сотрудников библиотеки. Видный государственный деятель книжный фанат Гейдар Алиев передал в дар Национальной библиотеке 300 экземпляров книг из своей личной библиотеки.*

**Ключевые слова:** *общенациональный лидер Гейдар Алиев, азербайджанские библиотеки, Республиканская государственная библиотека имени М.Ф.Ахундзаде, Национальная библиотека Азербайджана, выставка миниатюрных книг.*

**Namiyə İntiqam qızı Xəlilova,**
*Bakı Dövlət Universitetinin Sənəd menecmenti kafedrasının müəllimi*
*nebiyeva.namiye@mail.ru*

# AZƏRBAYCANDA KİTABXANA QANUNVERİCİLİYİNİN HAZIRLANMASINDA ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN TARİXİ ROLU

**Xülasə:** *Məqalədə Ümummilli lider Heydər Əliyevin Azərbaycan mədəniyyətinin ayrılmaz tərkib hissəsi olan kitabxana quruculuğu sahəsindəki xidmətləri ümumiləşdirilib. Məqalədə kitabxana qanunvericiliyinin əhəmiyyəti, müstəqillik dövründə "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununun qəbul edilməsi, onun tərkibi və rolunun şərhinə geniş yer verilmişdir.*

**Açar sözlər:** *kitabxana, qanun, qanunvericilik, sərəncam.*

Kitabxana qanunvericiliyinə malik olmaq ölkələrin tam qənaətbəxş və səmərəli kitabxana xidmətləri göstərə bilməsi üçün əsas şərtlərdəndir. Kitabxana işi haqqında qanun, kitabxanalar kontekstində o deməkdir ki, o, hər hansı bir dövlət və ya milli hökumət nəzdində kitabxana sisteminin yaradılması, saxlanması, xidmətləri, funksiyaları, hüquqları və idarə edilməsi üçün qanuni müddəaları müəyyən edir. O, kitabxanaların planlı inkişafı, onların yaradılmasını, inkişaf etdirilməsini və ardıcıl şəkildə saxlanmasını təmin edən vasitədir. Kitabxana işi haqqında ilk qanun 1850-ci ildə Böyük Britaniyada qəbul edilmişdir. Kitabxana qanunvericiliyi ona görə zəruridir ki:

O, bütün ölkədə dövlət kitabxanalarının təşkili üçün lazımi şəraitin yaradılmasına kömək edir.

Ardıcıl, səmərəli, balanslaşdırılmış və əlaqələndirilmiş kitabxana xidmətini, eləcə də düzgün inkişaf trayektoriyasını təmin edən sağlam inzibati quruluşu təmin edir.

Kitabxana qanunvericiliyinin ən mühüm xüsusiyyətlərindən biri onun sadə və ümumi olmasıdır. O, həmçinin gələcəkdə dəyişdirilə və ya inkişaf etdirilə bilməlidir. O, siyasi müdaxilədən və təhriflərdən azad olmalıdır. Kitabxanaların inkişafı üçün əlverişli şərait yaratmalıdır. O, həmçinin müxtəlif növ kitabxanaları nəzərə almalıdır.

Cəmiyyətin və fərdlərin azadlığı, firavanlığı və inkişafı əsas insani dəyərlərdir. Bu dəyərlərə kitabxanalardan istifadə etməklə formalaşacaq məlumatlı vətəndaşlar vasitəsilə nail olmaq olar. Bütün dünyada qəbul edilir ki,

təhsil, o cümlədən pulsuz kitabxanaların təmin edilməsi milli, dövlət və yerli səviyyələrdə hökumətin məsuliyyətidir. Kitabxana "Xalq Universiteti"dir. Ölkəmizdə tarixi inkişaf prosesində dövlət, yerli orqanlar və könüllü təşkilatlar tərəfindən xeyli sayda kitabxanalar yaradılmışdır. Lakin bu kitabxanalar XX əsrin son qərinəsində müasir xəttlərdə inkişaf edə bilmədi, çünki:

1) Onlar ölkədə mövcud siyasi, iqtisadi, sosial çətinliklərlə əlaqədar olaraq bağlanmaq təhlükəsi ilə üz-üzə qalmışdılar.

2) İnsanların informasiya ehtiyaclarını ödəmək üçün cüzi vəsaitə malik idilər.

3) Onların nə sabitliyi, nə də böyümə imkanları var idi.

Müasir dövrdə kitabxanalar müəyyən standartlarda, cəmiyyətin yenidən qurulması və inkişafı məqsədi ilə xidmət göstərməlidir. Bunlar isə kitabxana qanunvericiliyi tələb edir.

1993-cü ildə görkəmli dövlət xadimi Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışı Azərbaycan xalqının gələcək taleyində, dövlətçiliyimizin möhkəmləndirilməsində mühüm tarixi hadisəyə çevrildiyi kimi mədəniyyətimizin mühüm tərkib hissəsi olan kitabxana işinin yenidən qurulmasında və inkişafında da yeni mərhələnin başlanğıcı oldu. Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə kitabxanaların qorunub saxlanılması uğrunda dövlət mübarizəyə başladı. 1993-1999-cu illər Azərbaycanda kitabxana işinin tarixinə kitabxanaların qorunub saxlanılması uğrunda mübarizə illəri kimi daxil olmuşdur. 1996-cı ildə Azərbaycan Nazirlər Kabineti "Kitabxana işi haqqında" qərar qəbul etdi. Bu qərarda kitabxana şəbəkələrini qoruyub saxlamaq və əhaliyə xidmət işini yaxşılaşdırmaq üçün Azərbaycan Mədəniyyət Nazirliyinin qarşısında ciddi vəzifələr qoyulmuşdu. Qərarın keçid dövründə kitabxanaların qorunub saxlanılmasında xüsusi rolu olmuşdur.

Heydər Əliyev mədəniyyətin bir qolu olan kitabxana işi sahəsində bir sıra dövlət əhəmiyyətli qanun və fərmanlar vermişdir. Heydər Əliyev 27 iyul 1996-cı ildə "Azərbaycan Respublikasında kitabxana işinin vəziyyəti və onu yaxşılaşdırmaq tədbirləri haqqında" sərəncam imzalamışdı.

Ulu Öndər Heydər Əliyev Azərbaycanda 1993-2003-cü illərdə hakimiyyəti dövründə öz ölkəsində kitabxana qanunvericiliyinin yaradılması üçün səylərini əsirgəmədi.

Ulu Öndər tərəfindən 1998-ci ildə isə Azərbaycan kitabxana tarixində dönüş mərhələsi hesab olunan "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olundu. Belə ki, Ümummilli lider 29 dekabr 1998-ci il tarixində "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununu qəbul etdi. O, 12 mart 1999-cu ildə "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununun tətbiq edilməsi barədə sərəncam imzaladı.

"Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə 12 mart 1999-cu il tarixli sərəncam qanunun ayrı-ayrı maddələrinin yerinə yetirilməsinə cavabdeh olan dövlət orqanlarını müəyyənləşdirmişdir.

Azərbaycan Respublikasında kitabxana işi sahəsində dövlət siyasətinin prinsipləri, kitabxana işinin və kitabxana sisteminin ümumi əsasları, kitabxana fondlarının formalaşdırılması və mühafizəsi tələbləri, kitabxanaların maliyyələşdirilmə mənbələri, kitabxanalardan istifadə sahəsində vətəndaşların hüquq və vəzifələri, kitabxana işi sahəsində beynəlxalq əməkdaşlığın prinsipləri "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu əsasında müəyyən edilir.

6 fəsil 34 maddədən ibarət olan bu qanunda kitabxana, kitabxana işi, kitabxanaçı, sənəd, kitabxana fəaliyyəti, kitabxana fondu, mərkəzləşmiş kitabxana sistemləri kimi anlayışların terminoloji izahı verilmişdir. "Kitabxana işi haqqında" Qanunda bir sıra məsələlərlə yanaşı, kitabxanalarda iş prosesinin avtomatlaşdırılması, qiymətli nəşrlərin elektron daşıyıcılarına köçürülməsi, informasiya sisteminə qoşulması ön plana çəkilmişdir. Qəbul edilmiş qanun bu gün də ölkəmizdə kitabxana qanunvericiliyinin baza sənədi olaraq qalmaqdadır. Kitabxanalarımızın, kitabxanaçılarımızın hüquqlarının müdafiəsində, sosial problemlərinin həllində bu qanunun müddəaları müstəsna əhəmiyyət kəsb edir.

Azərbaycan tarixində kitabxana işi haqqında ilk dəfə qəbul edilmiş bu qanun kitabxana işinin gələcək inkişafını təmin etməklə onun cəmiyyətin inkişafındakı rolunu, yerini və statusunu müəyyənləşdirdi. Kitabxana işini yeni keyfiyyət göstəriciləri ilə zənginləşdirdi. Bu qanun kitabxana işinin inkişaf istiqamətini müəyyənləşdirməklə yanaşı milli kitabxanaşünaslığı elmi, nəzəri və metodoloji müddəalarla zənginləşdirdi, onun gələcək inkişafı üçün təməl formalaşdırdı.

2019-cu il 19 fevral tarixində isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" fərman imzalamışdır.

**Ədəbiyyat**

**1.** Xələfov, A. Heydər Əliyev və Azərbaycanda kitabxana işi.- Bakı: Azərnəşr, 2006.- 312 s.

**2.** http://millikitabxana.az

**3.** https://e-qanun.az

## The historical role of the great leader Heydar Aliyev in the preparation of library legislation in Azerbaijan

**Summary:** *The paper summarizes the services of national leader Heydar Aliyev in the field of library, which is an integral part of Azerbaijani culture.In the paper, the importance of library legislation, adoption of the Law of the Republic of Azerbaijan on library work during the period of independence, its composition and role are explained in detail.*

**Key words:** *library, law, legislation, ordinance.*

## Историческая роль Общенационального лидера Гейдара Алиева в подготовке законодательства о библиотечном деле Азербайджана

**Резюме:** *В статье обобщены заслуги общенационального лидера Гейдара Алиева в области библиотеки, которая является неотъемлемой частью азербайджанской культуры. В статье подробно объясняется значение библиотечного законодательства, принятие Закона Азербайджанской Республики о библиотечной деятельности в период независимости, ее состав и роль.*

**Ключевые слова:** *библиотека, право, законодательство, постановление.*

**Tamilla Məhərrəm qızı Əsgərova,**
*ADMİU-nun Kitabxana-İnformasiya Mərkəzinin müdiri*
*tamilla.asgarova@admiu.edu.az*

# MÜSTƏQİLLİK İLLƏRİNDƏ HEYDƏR ƏLİYEVİN ELM STRATEGİYASI VƏ AZƏRBAYCANDA MİLLİ KİTABXANAŞÜNASLIĞIN İNKİŞAFI

**Xülasə:** *Məqalədə ulu öndər Heydər Əliyevin müstəqillik dövründə elm siyasəti və ölkədə milli kitabxanaşünaslığın inkişaf meyilləri təhlil olunur. Ümummilli liderimizin milli müstəqillik və dövlət quruculuğu strategiyasında elm sahəsində həyata keçirdiyi tədbirlər şərh edilir. Azərbaycan kitabxanaşünaslığının inkişafında professorlar Abuzər Xələfov və Kərim Tahirovun elmi-nəzəri irsi öyrənilir. Alimlərin respublikamızda mədəniyyətin və kitabxana işinin inkişafına həsr olunmuş elmi araşdırmaları tədqiqata cəlb edilir.*
**Açar sözlər:** *informasiya resursları, informasiya tələbatçıları, rəqəmsal kitabxana, elektron kataloq, virtual xidmət, online sərgilər.*

**Giriş.** Müstəqilliyimizin bərpasından sonrakı dövrdə ümummilli lider Heydər Əliyevin xalqın dəstəyi və arzusu ilə respublika rəhbərliyinə yenidən qayıdışından sonra, 1993-cü ilin iyunundan başlayaraq bütün sahələrdə olduğu kimi, elm sahəsində də tənəzzülün, təhlükəli, dağıdıcı meyillərin qarşısı alınmışdır. Milli elmimizin inkişafı üçün əlverişli siyasi, iqtisadi və hüquqi mühit yaradılmışdır. Ulu öndərin milli müstəqillik və dövlət quruculuğu strategiyasında belə bir ideya əsaslandırılmışdır ki, dövlət müstəqilliyinin əbədiliyi, vətəndaş cəmiyyətinin demokratik inkişafının şəffaf və hamar yolu mütləq şəkildə milli elm və təhsildən keçməlidir.

Sözsüz ki, Azərbaycan elmi, o cümlədən kitabxanaşünaslıq öz şanlı inkişafına görə məhz ümummilli lider Heydər Əliyevə minnətdardır. Xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra ictimaiyyət nümayəndələri ilə ilk görüş üçün Akademiyanı seçən, ilk görüşünü məhz Azərbaycan alimləri ilə keçirən Ulu öndərin bu addımı, heç şübhəsiz ki, onun elmə, biliyə və intellektual potensialın daşıyıcıları olan insanlara verdiyi böyük dəyərin ifadəsidir. Ümummilli liderimiz Azərbaycanın fəlakətlərdən xilası, ağır sosial-iqtisadi və siyasi-mənəvi böhrandan çıxarılması, ölkədə ictimai-siyasi sabitliyin bərqərar olması üçün atdığı addımlar, həyata keçirdiyi islahatlar zamanı ən böyük dəstəyi də elə ziyalılarımızdan almışdır. Heydər Əliyev cəmiyyətin bütün sahələri kimi Azərbaycan elmini, təhsilini, mədəniyyətini də iflas təhlükəsindən

qoruyaraq, bu sahələrdə dinamik inkişafı təmin etmişdir. Elm, mədəniyyət, ədəbiyyat və incəsənət xadimlərinin sosial müdafiəsinin təşkili istiqamətində atılan addımlar, dövlət büdcəmizdə baş verən artımlar hesabına bu sahələrə yönələn vəsaitlərin çoxaldılması yeni bir intibah mərhələsinin əsasını qoymuşdur.

**Əsas mətn.** Azərbaycan elmində ulu öndər Heydər Əliyevin Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) statusu, nizamnaməsi və prezidentinin təsdiqi haqqında 4 yanvar 2003-cü il tarixli fərmanı xüsusi əhəmiyyətə malikdir. Ümummilli liderimizin bu addımı AMEA sistemində əsaslı islahatların aparılmasına, texniki bazanın modernləşdirilərək beynəlxalq standartlara uyğunlaşdırılmasına, dünya ölkələrinin elm sahəsində əldə etmiş olduğu ən mütərəqqi təcrübənin mənimsənilməsinə, elmi-tədqiqat institutlarında, mərkəzlərdə işin keyfiyyət əmsalının artırılmasına, elmi ictimaiyyətin diqqətinin cəmiyyət həyatı üçün mühüm aktuallıq kəsb edən problemlərə yönəlməsinə geniş şərait yaratmışdır. Təqdirəlayiqdir ki, qeyd olunan fərmanın 53-cü bəndinə əsasən AMEA Mərkəzi Elmi Kitabxanası elmi-tədqiqat müəssisəsi statusu əldə etmişdir. Məhz bundan sonra kitabxanada Kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq ixtisası üzrə fəlsəfə doktoru proqramında doktorantura və dissertantura təşkil olunmuşdur.

Azərbaycan dilinin dövlət dili kimi bərqərar olunması və inkişaf etdirilməsinə xüsusi diqqət yetirən Ulu öndər 18 iyun 2001-ci ildə "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərman imzalamışdır. Sənəddə Azərbaycan dilinin keçdiyi tarixi inkişaf yolu, ədəbi dilimizin inkişaf mərhələləri, müstəqil Azərbaycan Respublikasında ən mühüm ünsiyyət vasitəsi olan dilimizin tətbiqi ilə əlaqədar qarşıda duran vəzifələrin həyata keçirilməsinin konkret müddətləri göstərilmişdir. Qürürla bildirməliyik ki, Ümummilli liderimizin yenidən hakimiyyətə qayıdışından sonra elm sahəsində çalışan insanların, bütün ömrünü gənc nəslin maariflənməsinə həsr etmiş müəllimlərin sosial statusu yenidən yüksəlmişdir. Tarixən ən şərəfli ictimai status sayılan alim-müəllim adının cəmiyyətdəki nüfuzu yenidən bərpa edilmişdir.

Müstəqilliyin ilk illərində dövlət qayğısı nəticəsində kitabxana işinə artan tələb, bu fəaliyyət sahəsinin qarşısında yeni istiqamətlər açmış, kitabxana işində yeni üsullar tətbiq edilməyə başlanmışdır. Dövrün çağırışlarına uyğunlaşmaq baxımından informasiya kommunikasiya texnologiyalarının kitabxanalarda tətbiqi səviyyəsinin öyrənilməsi istiqamətində kitabxanaşünaslıq nəzəriyyəsində ilk tədqiqat işi Azərbaycan milli kitabxanaşünaslıq elminin banisi, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının həqiqi üzvü, Əməkdar elm xadimi, Əməkdar mədəniyyət işçisi, Bakı Dövlət Universitetinin (BDU) fəxri professoru, "Şöhrət" və "Şərəf" ordenli, tarix elmləri doktoru

Abuzər Alı oğlu Xələfovun adı ilə bağlıdır. Problemin həllində əsaslı addımlar professorun elmi fəaliyyətinə təsirsiz qalmamış və hələ 90-cı illərin sonunda onun rəhbərliyi altında BDU-da "Kitabxanaların kompüterləşdirilməsi" Elmi-Tədqiqat Laboratoriyası qurulmuşdur. Beləliklə, 2000-ci ildən başlayaraq alim elmi-pedaqoji fəaliyyətini yeni istiqamətdə, informasiya cəmiyyətinin tələbləri səviyyəsində qurmağa çalışmışdır. Bu baxımdan, onun 2001-2004-cü illərdə ali təhsil pilləsi üzrə nəşr etdirdiyi 3 hissədən ibarət 2 cildlik "Kitabxanaşünaslığa giriş" dərsliyi ölkəmizdə milli kitabxanaşünaslıq fikrinin inkişafında yeni mərhələ sayıla bilər. Qeyd edək ki, bu kitablar kitabxanaşünaslıq elminin öyrənilməsi baxımından ilk fundamental tədqiqat işləri hesab olunur. Dəyərli alimin çoxillik fundamental elmi araşdırmalarının nəticəsində ərsəyə gətirdiyi "Kitabxanaşünaslığa giriş" dərsliyinin 400 səhifə həcmdən ibarət birinci cildi sahə üzrə geniş həcmli tədqiqat əsəri kimi mühüm əhəmiyyətə malikdir. Professorun 2001-ci ildə çap olunmuş "Azərbaycanda kitabxana işinin tarixi" adlı qısa icmal və "Respublika Elmi-Texniki Kitabxanası (1930-2000-ci illər)" adlı qısa tarixi oçerk özündə maraqlı faktları əks etdirir.

2004-cü ildə A.Xələfovun müəllifi olduğu "Azərbaycanda kitabxana işinin tarixi" adlı dərsliyin birinci cildi nəşr olunmuşdur. Eyniadlı dərsliyin ikinci cildi 2007-ci ildə, üçüncü cildi 2010-cu ildə kitabxanaçı mütəxəssislərin ixtiyarına verilmişdir. Bu fundamental tədqiqat əsərində alim Azərbaycanda kitabxana işinə dair ən qədim dövrlərdən XXI əsrə qədər olan böyük bir tarixi dövrü müfəssəl şəkildə əhatə edə bilmişdir. Professorun bu istiqamətdə apardığı sistemli tədqiqat hələ uzun müddət öz aktuallığını qoruyub saxlaya biləcəkdir.

2006-cı ildə alimin ən fundamental əsərlərindən biri "Heydər Əliyev və Azərbaycanda kitabxana işi" adlı monoqrafiyası işıq üzü görmüşdür. Burada ulu öndər Heydər Əliyevin təkcə kitabxana işinə deyil, Azərbaycan təhsilinə və mədəniyyətinə diqqət və qayğısı hərtərəfli şərh edilmişdir. Monoqrafiyanın davamı olaraq professorun 2009-cu ildə çap edilmiş "Azərbaycanda kitabxana işinə dair Heydər Əliyev doktrinası uğurla davam edir" adlı monoqrafiyasında artıq prezident İlham Əliyevin kitabxana işinə qayğısı və diqqəti öz əksini tapmışdır. Həmin ildə alimin nəşr olunmuş növbəti monoqrafiyası "Bakı Dövlət Universitetinin Elmi Kitabxanası 90 il elm və təhsilin xidmətində" adlanır və burada BDU-nun Elmi Kitabxanasının 90 illik tarixi əhatəli tədqiqata cəlb edilmişdir. Qeyd edək ki, 2019-cu ildə universitetin 100 illik yubileyi münasibətilə professorun "Bakı Dövlət Universitetinin Elmi Kitabxanası – 100" monoqrafiyası [1] oxucuların diqqətinə təqdim olunmuşdur.

Professor A.Xələfovun elmi araşdırmaları içərisində 2011-ci ildə çapdan çıxmış "Kitabxana və cəmiyyət" adlı monoqrafiyası öz aktuallığı ilə xeyli maraq doğurur. Bu qiymətli elmi-tədqiqat əsərində müasir informasiya

cəmiyyəti şəraitində bəşəriyyətin inkişafının əsas elmi mərkəzlərindən biri kimi kitabxanaların əhaliyə nümunəvi kitabxana-informasiya xidmətinin məqsəd və vəzifələri elmi cəhətdən əsaslandırılmış, kitabxana işinin əsas inkişaf istiqamətləri təhlilə cəlb edilmişdir. Həmin ildə alimin "Məqalələr toplusu (1990-2011-ci illər)" kitabı da nəşr olunmuşdur. Onu da əlavə edək ki, alimin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə 2010-cu ildə kitabxanaşünaslığın, kitabxana işinin tarixi, nəzəriyyəsi və təcrübi problemlərinə dair elmi məqalələri dərc edən nüfuzlu "Kitabxanaşünaslıq və informasiya" adlı elmi-nəzəri və praktiki jurnal təsis edilməsi bu sahədə mühüm əhəmiyyət kəsb etmişdir.

Yorulmaz tədqiqatçılıq fəaliyyətini davam etdirmiş A.Xələfovun elmi irsinin tərkibinə daxil olan "Söz, kitab, mütaliə, kitabxana və kitabxanaçı haqqında müdrik fikirlər" kitabı və "Kitabxanaşünaslığın tarixi və metodologiyası" adlı dərsliyi [3] 2014-cü ildə, "Kitabxanaşünaslıq kafedrası" və rus dilində "Azərbaycan Respublikasında kitabxana işi (tarixi, nəzəriyyəsi, təcrübəsi)" monoqrafiyaları 2015-ci ildə, "Türk dünyası milli kitabxanaları" fundamental monoqrafiyası və "Kitabxanaların kompüterləşdirilməsinin əsasları" dərsliyi [2] 2016-cı ildə çapdan çıxmışdır.

Geniş ictimaiyyətin marağına səbəb olan "Azərbaycan Respublikasında kitabxana işi (tarixi, nəzəriyyəsi, təcrübəsi)" monoqrafiyası alimin çoxillik elmi-nəzəri və pedaqoji fəaliyyətinin ən son nailiyyətlərindən biri kimi Azərbaycan elmi və mədəniyyəti üçün olduqca yüksək aktuallıq kəsb edən qiymətli mənbədir. Monoqrafiyanın elmi redaktoru filologiya elmləri doktoru A.Əliyeva-Kəngərli, redaktoru tarix üzrə fəlsəfə doktoru, dosent P.Kazimi, rəyçiləri pedaqogika üzrə fəlsəfə doktoru, dosent E.Əhmədov və pedaqogika üzrə fəlsəfə doktoru, dosent M.Məmmədovdur. Əsərin diqqətçəkən məqamlarından biri burada Azərbaycanın müstəqillik əldə etdikdən sonra kitabxana işinin konkret vəziyyəti və sonrakı inkişaf dinamikası tutarlı elmi dəlillər əsasında şərh edilməsidir. Ulu öndərin Azərbaycana 1993-cü ildə siyasi rəhbərliyə qayıtdıqdan sonra ölkədə bu sahənin inkişafı və tərəqqisində yeni mütərəqqi mərhələnin, yüksəliş erasının başlandığı əsərdə xüsusi vurğulanır və bu proses bütövlükdə kitabxana işinin inkişafında Heydər Əliyev mərhələsi konsepsiyası kimi tədqiqata cəlb edilir və geniş ümumiləşdirmələr aparılır. Bu elmi konsepsiyanın Ümummilli liderin siyasi xəttinin layiqli davamçısı, cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyi, respublikamızda informasiyalaşdırılmış vətəndaş cəmiyyəti quruculuğuna sürətlə keçidin əsasının qoyulduğu alim tərəfindən yüksək qiymətləndirilir.

Beləliklə, professor A.Xələfovun səmərəli elmi-tədqiqat fəaliyyəti həm Azərbaycanda, həm də xarici ölkələrdə nüfuzlu alimlər arasında geniş şöhrət qazanmışdır. Ölkəmizdə mədəniyyət və kitabxana işi quruculuğunun tarixi

problemləri, kitabxanaşünaslığın nəzəriyyəsi və metodologiyası, ali kitabxanaçılıq-biblioqrafiya təhsili məsələləri, habelə kitabxana işi nəzəriyyəsi və bir sıra digər aktual elmi problemlər alimin elmi araşdırmalarının özəyini təşkil edir. Onun bütövlükdə milli mədəniyyətşünaslıq və kitabxanaşünaslıq elmi, eləcə də kitabxanaçılıq təcrübəsi üçün mühüm əhəmiyyət kəsb edən sanballı əsərləri məhz həmin uğurlu elmi tədqiqatların parlaq nəticəsidir.

Müstəqillik dövründə Azərbaycan milli kitabxanaşünaslığını nəzəri və təcrübi baxımdan zənginləşdirən alimlərdən biri də professor Kərim Məhəmməd oğlu Tahirovdur. Tarix üzrə fəlsəfə doktoru, Azərbaycan Milli Kitabxanasının direktoru, Əməkdar mədəniyyət işçisi K.Tahirov ömrünün 32 ilə yaxın hissəsini ölkəmizdə mədəniyyətin və kitabxana işinin inkişafına həsr etmişdir. Təsadüfi deyildir ki, alim təkcə Azərbaycanda deyil, dünya miqyasında tanınmış və şöhrət qazanmış kitabxanaşünas ziyalılarımızdan biridir. O, dünyanın 40-dan artıq ölkəsində keçirilən elmi konfranslarda və elmi simpoziumlarda elmi məruzələrlə çıxış etmişdir. Alimin elmi məqalələri bir sıra ölkələrin nüfuzlu elmi jurnallarında dərc olunmuşdur.

Elmi araşdırma sahəsi Milli Kitabxananın yaranması və inkişafı olan alim ilk dəfə kitabxananın yarandığı gündən etibarən keçdiyi tarixi inkişaf yolunu əsaslı şəkildə araşdırmış, yeni tarixi faktlar, mühüm elmi nəticələr əldə etmişdir. O, görkəmli kitabxanaşünas-alim, BDU-nun fəxri professoru Abuzər Xələfovun rəhbərliyi ilə 2009-cu ildə "M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının yaranması və inkişafı (1923-1959-cu illər)" mövzusunda dissertasiya işini uğurla müdafiə edərək tarix üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almışdır. Professorun tarixi araşdırmaları Milli Kitabxananın yeni inkişaf strategiyasının formalaşmasında mühüm rol oynamışdır.

Çoxillik tədqiqatçılıq fəaliyyətinin nəticəsi olaraq alimin elmi-nəzəri irsinə "M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının tarixi (1923-2008-ci illər)" monoqrafiyas [5], "Dünya milli kitabxanaları: M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası" dərs vəsaiti [4], 160-dən artıq kitab, kitabça, metodik vəsait və fundamental biblioqrafiyalar, tərtibçisi və redaktoru olmuş, 260-dən artıq elmi məqalə daxildir. K.Tahirovun rəhbərliyi ilə Milli Kitabxanada onlarla yeni kitabın təqdimat mərasimi keçirilmiş, 2015-ci ildə işıq üzü görmüş, fundamental nəşr olan Azərbaycanda ilk kitabxana ensiklopediyasının hazırlanması işinə rəhbərlik etmiş və baş redaktoru olmuşdur. Alim, həmçinin "Azərbaycan Milli Kitabxanasının Elmi Əsərləri"nin, "Əlamətdar və tarixi günlər təqvimi"nin və "Azərbaycan kitabı" on cildlik milli biblioqrafiya repertuarının baş redaktorudur.

Elmi yaradıcılıqla yanaşı, pedaqoji fəaliyyəti də diqqəti cəlb edən professor bugünə kimi BDU-nun Sənəd və informasiya menecmenti fakültəsində gənc

ixtisaslı kadrların yetişdirilməsinə xidmət göstərir. 2012-ci ildə universitetin Kitabxanaşünaslıq kafedrasının dosenti, 2013-cü ildə professoru elmi adına layiq görülmüşdür. O, BDU-nun Kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq ixtisasları üzrə Dissertasiya Şurasının üzvüdür və bu ixtisasda bir neçə fəlsəfə doktoru və magistrantın elmi rəhbəri və rəsmi opponenti olmuşdur.

Təsadüfi deyildir ki, peşəkar təşkilatçı və görkəmli alim, professor K.Tahirovun fədakarlığı və zəhmətkeş əməyi dövlət rəhbərliyi tərəfindən dəfələrlə yüksək qiymətləndirilmişdir. O, Azərbaycan Respublikası (AR) Prezidentinin 17 noyabr 2008-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi fəxri adına layiq görülmüş, 2013-cü ildə "3-cü dərəcəli Vətənə xidmətə görə ordeni" ilə təltif edilmişdir. AR Nazirlər Kabinetinin 12 sentyabr 2018-ci il tarixli Qərarı ilə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin kollegiyasının üzvü təyin olunmuşdur. 28 oktyabr 2019-cu ildə mədəniyyət nominasiyası üzrə "Cəfər Cabbarlı" mükafatı əldə etmişdir. 2019-cu ilin dekabr ayının 24-də Milli Kitabxanada "İmadəddin Nəsimi. Biblioqrafiya" adlı yeni kitabın işıq üzü görməsi münasibəti ilə "Ziyadar" mükafatına layiq görülmüşdür. AR Prezidentinin 17 noyabr 2018-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının "2-ci dərəcəli Əmək orden"i ilə təltif edilmişdir.

Beləliklə, K.Tahirovun təşəbbüsü ilə Azərbaycan Milli Kitabxanasında oxuculara xidmət sahələrinin tam şəkildə avtomatlaşdırılması təmin olunmuş, elektron kataloq və elektron kitabxana yaradılmışdır. Alimin rəhbərliyi altında müxtəlif mövzulara dair 70-dən artıq fundamental biblioqrafik vəsaitlər tərtib edilərək çap olunmuş, cari biblioqrafiya və informasiya göstəricilərinin, "Elmi əsərlər"in nəşri bərpa edilmiş, Milli Kitabxanada Elmi Şura yaradılmışdır.

**Nəticə.** Tədqiqatın nəticəsi olaraq qeyd edək ki, bugünədək respublikamızda elmin müxtəlif istiqamətlərində, eləcə də kitabxanaşünaslığın aktual problemlərinə dair aparılan tədqiqat işləri, xüsusilə də professorlar A.Xələfov və K.Tahirov tərəfindən müvəffəqiyyətlə yerinə yetirilmiş, mühüm elmi və təcrübi nəticələr əldə olunmuşdur. Təqdirəlayidir ki, hər iki alimin zəngin elmi-nəzəri yaradıcılığını özündə əks etdirən elektron məlumat bazaları və virtual sərgilər onlayn rejimdə Milli Kitabxana tərəfindən oxucuların istifadəsinə verilmişdir. Qürur hissi ilə onu da bildirməliyik ki, ölkənin bir sıra iri kitabxanasında, o cümlədən AMEA və BDU-da digər alim və tədqiqatçıların çoxillik elmi araşdırmaları milli kitabxanaşünaslığımızı xeyli zənginləşdirmişdir. Şübhəsiz, bundan sonra da nəzəri kitabxanaşünaslıq üzrə həyata keçiriləcək tədqiqatlar kitabxana-informasiya fəaliyyəti sahəsinin inkişafına öz töhfəsini verəcəkdir. Beləliklə, bütün bunlar deməyə əsas verir ki, müasir mərhələdə Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev,

digər istiqamətlərdə olduğu kimi, dövlətin elm siyasəti sahəsində də ulu öndər Heydər Əliyevin ənənələrini uğurla davam etdirir. O, Azərbaycan milli sərvətinin ayrılmaz tərkib hissəsi olan elmi potensialın mühafizəsini, dinamik və hərtərəfli inkişafını dövlət siyasətinin vacib prioritetlərindən biri hesab edir. Buna misal olaraq AMEA-da struktur islahatlarının aparılmasını göstərmək olar. Elmin, təhsilin inkişafı üçün dövlət büdcəsində nəzərdə tutulan vəsaitlərin ildən-ilə artırılması, bu sahədə çalışan müəllimlərin əmәkhaqlarında, tələbə, magistrant və doktorantların təqaüdlərində özünü göstərən əsaslı artımlar bu əhəmiyyətli sahəyə dövlət başçısı tərəfindən göstərilən qayğının bariz ifadəsidir.

**Ədəbiyyat**

**1.** Xələfov, A. Bakı Dövlət Universitetinin Elmi Kitabxanası - 100: monoqrafiya /A.Xələfov; red.: K.Aslan, P.Kazımi.- Bakı: Elm və təhsil, 2019.- 264 s.

**2.** Xələfov, A. Kitabxanaların kompüterləşdirilməsinin əsasları: dərslik /A.Xələfov, A.Qurbanov; elmi red. R.Kazımov.- Bakı: Bakı Universiteti, 2016.- 328 s.

**3.** Xələfov, A. Kitabxanaşünaslığın tarixi və metodologiyası: dərslik /A.Xələfov; elmi red. K.Aslan; red. E.Əhmədov; rəy.: M.Məmmədov, P.Kazımi.- Bakı: Bakı Universiteti, 2014.- 552 s.

**4.** Tahirov, K. Dünya milli kitabxanaları. M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası: dərs vəsaiti /K.Tahirov; elmi red. A.Xələfov; rəy.: K.Aslan, P.Kazımi; Azərb. Resp. Təhsil Nazirliyi, Bakı Dövlət Universiteti.- Bakı: Bakı Universiteti, 2013.- 212 s.

**5.** Tahirov, K. M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının tarixi: 1923-2008-ci illər /K.Tahirov; elmi red. A.Xələfov; ixtisas red. A.Əliyeva-Kəngərli; red.: N.İsmayılov, K.Aslan.- Bakı: Ulu, 2008.- 218 s.

## Science strategy of Hayder Aliyev in the years of independence and the development of national library science in Azerbaijan

**Summary:** *The article analyzes the science policy of the great leader Heydar Aliyev during the period of independence and the development trends of national librarianship in the country. The actions carried out by our national leader in the field of science in the strategy of national independence and state building are explained. The scientific-theoretical legacy of professors Abuzar*

*Khalafov and Karim Tahirov is studied in the development of Azerbaijani library studies. Scientific studies of scientists dedicated to the development of culture and library work in our republic are included in the research.*

**Key words:** *information resources, information consumers, digital library, electronic catalog, virtual service, online exhibitions.*

**Научная стратегия Гайдера Алиева в годы независимости и развитие национальной библиотечной науки в Азербайджане**

**Резюме:** *В статье анализируется научная политика великого лидера Гейдара Алиева в период независимости и тенденции развития национального библиотечного дела в стране. Объясняются действия, осуществляемые нашим общенациональным лидером в области науки в рамках стратегии национальной независимости и государственного строительства. В развитии азербайджанского библиотечного дела изучается научно-теоретическое наследие профессоров Абузара Халафова и Карима Таирова. В исследование включены научные исследования ученых, посвященные развитию культуры и библиотечного дела в нашей республике.*

**Ключевые слова:** *информационные ресурсы, потребители информации, электронная библиотека, электронный каталог, виртуальный сервис, онлайн-выставки.*

**Aygün Zahid qızı Koçak,**
*Azərbaycan Milli Kitabxanasının Elmi-tədqiqat və metodik təminat şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru*
*aygun_haciyeva_87@mail.ru*

# HEYDƏR ƏLİYEV İRSİNİN TÜRKDİLLİ ÖLKƏ NƏŞRLƏRİNİN MİLLİ KİTABXANANIN ELEKTRON KATALOQUNDA ƏKSİ (nümunələr əsasında)

**Xülasə:** *Məqalədə Azərbaycan Milli Kitabxanasının elektron kataloqunda Ulu öndərlə bağlı əksini tapan xarici ədəbiyyatlar həm dilinə görə ümumi, həm də xarici dildəki kitablar ayrıca, eyni zamanda türkdilli əsərlər ümumilikdə və istənilən dildə türkdilli ölkə nəşrləri haqqında təhlil yer almışdır.*

**Açar sözlər:** *Ulu öndər, xarici nəşrlər, türkdilli ədəbiyyat, elektron kataloq*

Heydər Əliyevin geniş ictimai-siyasi və eləcə də elmi-nəzəri irsinin dərindən öyrənilməsi xalqın maddi-mənəvi sərvətlərinin toplayıcısı, qoruyucusu olan kitabxanaların qarşısında duran ən vacib vəzifələrdən biridir.

Azərbaycan xalqının milli sərvəti hesab olunan Heydər Əliyev irsi haqqında nəşrlərin kitab fondlarında yerləşdirilməsinə xüsusi diqqətlə yanaşaraq ədəbiyyatı ardıcıl komplektləşdirmək, onlar haqqında bütün məlumatları ənənəvi soraq-biblioqrafiya aparatında, həmçinin, elektron kataloqda əks etdirmək və həmin nəşrlərdən oxucuların istifadə etmələrinə şərait yaratmaq lazımdır.

Ulu öndərlə bağlı ölkənin ən aparıcı və böyük kitabxanasının elektron kataloqunda əks olunan xarici dillərdəki nəşrlərə nəzər yetirsək görərik ki, türkdilli əsərlər cəmi 18 təşkil edir. Bu isə 165 ümumi sayın 10,90%-i deməkdir.




Rus dilində əsərlər ümumi sayın 64,84%-ni, yəni, ən böyük hissəsini təşkil etməkdədir.

Ayrıca kitablara nəzər yetirdikdə isə, xarici dillərdə yenə ilk sırada rus dilində olan kitablar qərarlaşır.




Cəmi 120 olan kitab sayının türk dillərində yalnız 14-ü mövcuddur ki, bu da ümumi rəqəmin 11,6%-i deməkdir.

Dilindən asılı olmayaraq xarici ölkə nəşrlərinin ümumi rəqəmləri bu cürdür:

| | |
|---|---|
| Türkiyə | 25 |
| Rusiya | 19 |
| Özbəkistan | 7 |
| İran | 5 |
| Qırğızıstan | 3 |
| Naməlum | 3 |
| Gürcüstan | 2 |
| Sloveniya | 2 |
| İsrail | 1 |
| Küveyt | 1 |
| Malayziya | 1 |
| Pakistan | 1 |
| Polşa | 1 |
| Serbiya | 1 |
| Birləşmiş Ərəb Əmirlikləri | 1 |
| Ukrayna | 1 |
| ABŞ | 1 |

Ümumi say 75-dir ki, bunun əsas hissəsini Türkiyədə çap olunmuş ədəbiyyatlar təşkil edir ki, bu da ümumi sayın 33,33%-i deməkdir. Özbəkistan və Qığızıstanla birgə material sayı 35 təşkil edir ki, bu da ümumi sayın 46,66%-i deməkdir.

Dilindən asılı olmayaraq xarici ölkə nəşrlərindən ayrıca kitabların statistikası isə aşağıdakı kimidir:




Göründüyü kimi, ən çox kitab məhz qardaş Türkiyə Cümhuriyyətində (20) çap olunub. 63 kitabın 31,74%-i bu ölkənin payına düşür. 3,17% isə digər türkdilli dövlət olan Qırğızıstanın payına düşür ki (2), ümumilikdə türkdilli ölkələrin bu statistikada payı 34,92%-dir.

Dilindən asılı olmayaraq ***Türkiyədə*** Ulu öndərlə bağlı nəşr edilmiş kitablara bunları misal göstərmək olar:

*Azərbaycan dilində:*

✓ "Ömrə bərabər beş il..." adlı fotokitab Heydər Əliyevin 5 illik prezidentlik fəaliyyətinə həsr olunub. Mətnin təşkili Tatyana Sulinaya aid olub, İstanbulun "Şedele Matbaacılık" yayınevində (1998) nəşr olunmuşdur. Fotokitabda Azərbaycanın XX əsrin sonunda yenidən əldə etdiyi müstəqilliyin reallıqlarından ürəkdolusu danışılır, müəlliflər ölkəmizin əvəzsiz lideri Heydər Əliyevin siyasi portretinin cizgilərini verir, onun şəxsiyyəti ilə yaxından tanış olmaq üçün imkan yaradırlar. Bu kitabda respublikamızın 1993-1998-ci illər ərzində xarici və daxili siyasət sahəsində əldə etdiyi əsas nailiyyətlər yığcam şəkildə öz əksini tapmışdır.

✓ 1969-1999-cu illəri əhatə edən mətnin tərtibi Tatyana Sulina və Azər Kazımova aid olan "30 il quruculuq yollarında" kitabı İstanbul "Şedele Printing"də (1999) çap olunmuşdur. Kitabda Azərbaycanın istər keçmiş SSRİ tərkibində olduğu zaman, istərsə də yeni həyat quruculuğu yollarında Sabunçu rayonunun iqtisadiyyatının yüksəlişinin əlamətdar mərhələləri parlaq şəkildə əks etdirilmiş, Heydər Əliyevin Sabunçu rayonunun bütün ictimai-siyasi, sosial-iqtisadi və elmi-mədəni sahələrini əhatə edən məqsədyönlü gərgin fəaliyyəti geniş şəkildə göstərilmişdir.

✓ "Heydər Əliyev müstəqil Azərbaycanın neft emalı sənayesinin banisidir" adlı fotoalbom isə (2003) Ankarada nəşr edilmişdir.

✓ "Heydər Əliyev və çağdaş Azərbaycan dövlətçiliyi" adlı məqalələr toplusu Ş.Kaleder tərəfindən tərtib edilərək (2007) Azərbaycanın İstanbul Konsulluğunun təşəbbüsü ilə "Kutub Yıldızı reklam"da çap olunmuşdur. Kitaba Türkiyədə oxuyan tələbələr arasında keçirilən eyniadlı elmi-praktik konfransın qaliblərinin məqalələri daxil edilmişdir.

✓ Müəllifi İlham Mirzəyev olan "Liderlik zirvəsi. Siyasətin sosial psixologiyası" adlı kitab 2010-cu ildə İstanbul "Doğu Kütüphanesi" nəşriyyatında nəşr edilmişdir və kitabın I fəsli "Heydər Əliyev zirvəsi" adlanır. Fəsildə "Dəyərli ömür yolu", "Müstəqil Azərbaycanın qurucusu", "Yeni tarix yaradan lider", "Milli tərəqqinin banisi", "Milyonların qəlbində yaşayan lider", "Azərbaycanın əbədi müstəqilliyi naminə" və "Milli həmrəyliyin təntənəsi" başlıqlı məqalələr yer almışdır.

✓ İrfan Ülkünün müəllifi olduğu "Qırmızı ulduzdan hilala" adlı İstanbul "Vito Enerji Kültür Yayınları" nəşriyyatında (2018) işıq üzü görmüş kitabı Avrasiya Tərcümə Mərkəzi tərəfindən tərcümə olunaraq çap olunmuşdur. İrfan Ülkü, Heydər Əliyevlə söhbəti zamanı Sovetlər Birliyi tarixinin gizli və qaranlıqda qalmış bir çox tərəfini Əliyevin şahidliyi ilə ortaya çıxardarkən, Qarbaçovun başlatdığı "Qlasnost" və "Perestroyka" siyasətinin də Sovetlər

Birliyində yaşayan Türklərə qan və gözyaşından başqa heç nə gətirmədiyini sənədlərlə göstərir.

✓ İrfan Ülkünün "Müstəqillikdən sonra Azərbaycan" adlı kitabı 2018-ci ildə İstanbulda "Elif Kitabevi, Vito enerji" tərəfindən yayınlanmışdır və bu kitab müəllifin "Qırmızı ulduzdan hilala" adlı kitabının davamı hesab edilə bilər. Bu əsərdə əsarətdən xilas olaraq müstəqilliyə addımlarını atan Azərbaycanın keşməkeşli ilk 5 ilindən bəhs edir. Qardaş Türk Cümhuriyyəti olan Azərbaycanı əsarət dövründən bu günlərə gətirən dahi liderə qarşı çevriliş cəhdlərinin pərdə arxası, xarici qüvvələrin oyunları və müstəqilliyin gücləndirilməsi üçün aparılan mübarizədən ilk dəfə sənədlər, canlı şahidlər və İrfan Ülkünün şahid olduğu hadisələrlə bəhs edən bu kitab Ulu Öndər Heydər Əliyevin qəhrəmanlıq hekayəsini gənc nəsillərə çatdırmaq üçün bir mənbə olaraq tarixə keçmişdir.

✓ Ümummilli liderin hakimiyyətə gəlişinin 50 illiyinə həsr olunmuş, tərtibçisi Ş.Cəlilli olan və İstanbulun "İmakofset" mətbəəsində çap olunmuş "Heydər Əliyev akademik yaddaşda" (2019) adlı kitabda AMEA-nın həqiqi və müxbir üzvlərinin Ulu Öndərin milli dövlətçilik fəlsəfəsinin, azərbaycançılıq məfkurəsinin ayrı-ayrı məqamlarına həsr olunan yazıları yer alıb.

*Türk dilində:*

✓ "Haydar Aliyev okulu" adlı Xanoğlan Şıxəliyev və T.Musayeva tərəfindən 7 bölmədən ibarət şəkildə hazırlanmış məqalələr toplusu (1997) Ankarada "Göktürk" nəşriyyatında çap edilmişdir.

✓ "Zirve. Haydar Aliyev'in hayatı" adlı Hüseyn Adıgüzelin Ulu öndərin həyatı, daxili və xarici siyasəti haqqında geniş məlumat verən kitabı İstanbulda "İleri yayınları" nəşr evində (2007) Mübariz Qurbanlının redaktorluğu ilə çap olunmuşdur.

✓ Viktor Andriyanovun "Haydar Aliyev" adlı əsəri Ankaranın "Baskı Yorum" nəşriyyatında işıq üzü görmüş (2008) və kitabda Ulu öndərin həyatı, şəxsiyyəti ilə bağlı dəyərli məlumatlar verilmişdir.

✓ "Haydar Aliyev ve Azerbaycanda yeni devlet kuruculuğu (1993-2003)" adlı Ş.İsgəndərovun tərtib etdiyi kitab isə (2008) ölkəmizin İstanbul Konsulluğunun təşəbbüsü ilə İstanbulun "Kutup Yıldızı" nəşriyyatında çap edilmişdir.

Ulu öndərlə bağlı ***Qırğızıstan*** nəşrlərindən danışarkən elektron kataloqda əksini tapmış 2 kitabın (1-Azərbaycan, 1-rus dilində) adını çəkmək olar:

✓ Алиев, Гафар. Основоположник, спаситель и созидатель современного Азербайджана: учебное пособие для высших учебных заведений /Г.М.Алиев; науч. ред. А.М.Гасанов; предисл. Ч.Айтматов.- Бишкек: Мегамедия, 2008.

Kitabda müəllif görkəmli dövlət və siyasi xadim Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edir.

✓ Bağırova, Aygül. Qalib Sərkərdə [Elektron resurs] /A.Bağırova; red.: M.Nərimanoğlu, Aydın Xan Əbilov; [ön söz N.Cəfərov].- Bişkek: [Улуу Тоолор], 2021.

Kitab Qarabağdakı 44 gün davam edən II Vətən Müharibəsinin müxtəsər ensiklopediyası kimi hazırlanıb. Kitabda ardıcıl şəkildə Ali Baş Komandanın və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Vətən Müharibəsində rəşadətli Ordumuzun işğal altında olan kənd və rayonlarımızın azad edilməsi ilə bağlı xalqımıza Qələbə müjdəsi çatdıran müraciətləri də yer alıb.

***Özbəkistan*** nəşri olan və özbək dilində qələmə alınmış bu kitab isə 2010-cu ildə Daşkənddə çap olunmuşdur:

✓ Андриянов, Виктор. Ҳайдар Алиев /В.Андриянов, Ҳ.Мираъламов; тўлдирилган русча иккинчи нашридан таржима Н.Раҳимжонов; [таржиманинг масъул муҳаррири Ш.Мансуров; муҳаррир: С.Мирзааҳмедова, Л.Игамова, А.Саъдуллаев, Н.Нурқулов].- Тошкент: O‘zbekiston, 2010.

**Ədəbiyyat**


**1.** http://ek.anl.az/search/query?term_1=Heydər+Əliyev&locale=az&theme=e-kataloq

**2.** http://ek.anl.az/search/query?match_1=MUST&field_1&term_1=Heydər+Əliyev&facet_format=book&sort=relevance&theme=e-kataloq


## Review of Heydar Aliyev's legacy of turkish-language country publications in the electronic catalog of the National Library (based on samples)


**Summary:** *The article contains an analysis of the foreign literature related to the Great leader in the electronic catalog of the National Library of Azerbaijan, both in general and books in foreign languages separately, as well as Turkish-language works in general and Turkish-language country publications in any language.*



**Key words:** *Great leader, foreign publications, Turkish-language literature, electronic catalog.*

## Обзор изданий тюркоязычных стран о наследии Гайдера Алиева в электронном каталоге Национальной Библиотеки (на основе образцов)

**Резюме:** *Статья содержит анализ зарубежной литературы, связанной с Общенациональным лидером, книг на иностранных языках, тюркоязычных произведений, а также изданий тюркоязычных стран, которые отражены в электронном каталоге Национальной библиотеки Азербайджана.*

**Ключевые слова:** *Общенациональный лидер, зарубежные издания, тюркоязычная литература, электронный каталог.*

**Ellada Məmməd qızı Balayeva,**
*Bakı Dövlət Universitetinin Redaksiya-nəşriyyat*
*işi kafedrasının dissertantı*
*elicka7260@mail.ru*

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN RƏHBƏRLİYİ DÖVRÜNDƏ "ELM" NƏŞRİYYATININ İNKİŞAFI (1970-1980-ci illər)

**Xülasə:** *Məqalədə ulu öndər Heydər Əliyevin sovet hakimiyyəti zamanı Azərbaycana rəhbərliyi dövründə Azərbaycan Elmlər Akademiyasının "Elm" nəşriyyatının fəaliyyəti araşdırılır. Burada qeyd olunur ki, 1970-1980-ci illərdə həmin nəşriyyatın inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi, maddi-texniki bazasının yaxşılşdırılması üçün bir sıra tədbirlər həyata keçirilmişdir. Eyni zamanda məqalədə həmin dövrdə "Elm" nəşriyyatında hazırlanmış bir sıra çap məhsulları, o cümlədən ayrı-ayrı elm sahələrinə dair nəşr olunmuş nəşrlər barədə məlumat verilir.*

**Açar sözlər:** *Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövrü, Elmlər Akademiyası, "Elm" nəşriyyatı, elmi-tədqiqat, elmi ədəbiyyat, monoqrafiya.*

XX əsrdə Azərbaycan elmi çox sürətlə inkişaf etmişdir. Heydər Əliyevin Azərbaycana ilk dəfə rəhbərlik etdiyi 1969-1982-ci illər isə bu cəhətdən xüsusilə seçilir. Azərbaycan Elmlər Akademiyasının ən çox inkişaf etdiyi dövr bu dahi şəxsiyyətin hakimiyyəti illərinə təsadüf edir. Bu dövrdə Azərbaycan Elmlər Akademiyası Heydər Əliyevin böyük təşkilatçılıq istedadı nəticəsində dünyada şöhrət qazanmış, özünün kadr potensialını yaratmış, maddi-texniki bazasını möhkəmləndirmişdir. Heydər Əliyevin özünün qeyd etdiyi kimi, akademiyanın əlli ilinin yarısından çoxu onun həyatı, rəhbərliyi ilə bağlı olmuşdur.

1970-1980-ci illərdə məhz Heydər Əliyevin səyləri nəticəsində Azərbaycanda elmi işçilərin sayı artır, alimlərin yetişməsinə xüsusi diqqət verilirdi. Bu dövrdə respublikamızda 258 elmlər doktoru, 2677 elmlər namizədi hazırlanmışdı. Elmlər Akademiyasının 56 həqiqi üzvü və 71 müxbir üzvü var idi. 123 elmi idarə və 17 ali məktəbin kafedralarında 22 min elmi əməkdaş, o cümlədən 900-dən çox elmlər doktoru və 8 mindən çox elmlər namizədi çalışırdı.

Azərbaycan Elmlər Akademiyasının nəzdində fəliyyət göstərən "Elm" nəşriyyatı da bu dövrdə eyni templə inkişaf edirdi. Məlum olduğu kimi, 1970-

1980-ci illərdə kitab sektorunun müxtəlif sahələrində ixtisaslaşan müəssisələr yaradılmışdı. Belə ki, dərsliklərin və digər tədris-pedaqoji ədəbiyyatın nəşri ilə əsasən "Maarif" nəşriyyatı, bədii əsərlərin nəşri ilə "Azərnəşr" və "Yazıçı" nəşriyyatları, uşaq və gənclər üçün ədəbiyyatın nəşri ilə "Gənclik" nəşriyyatı, plakat, fotoalbom, incəsənətə dair əsərlərin nəşri ilə "İşıq" nəşriyyatı, elmi əsərlərin nəşri ilə isə "Elm" nəşriyyatı məşğul olurdu.

Elmi-nəzəri mənbələrdə vurğulandığı kimi, elmi ədəbiyyatda elmi və texniki nailiyyətlər, ixtiralar, mülahizələr, nəzəriyyələr, müxtəlif elmi prinsiplər, metodlar, görüşlər, elmi tədqiqatların və eksperimentlərin metodikası və s. öz əksini tapır. Elmin inkişaf səviyyəsi, istiqaməti, tədqiqatların mövzusu və əldə edilən nəticələr elmi ədəbiyyatda verilir. Habelə elmi ədəbiyyatda elmin qarşısında duran vəzifələr, işlənmiş və işlənməyə, tədqiq olunmağa ehtiyacı olan problemlər və s. öz əksini tapır.

Qeyd etmək lazımdır ki, elmi ədəbiyyat kitab tipləri içərisində mühüm yer tutur və tarixən ilkin yaranmışdır. Kitabın bütün başqa tiplərinin mövzusu, məzmunu, səviyyəsi və xarakteri elmi ədəbiyyatın vəziyyəti ilə müəyyənləşir.

Mütəxəssislər elmi ədəbiyyatı əsasən iki qrupa bölür: nəzəri və təcrübi (eksperimental). Təcrübi əsərlərdə tədqiqatın metodikası, təcrübi-konstruktor tədqiqatları, onların nəticələri, təhlili və qiymətləndirilməsi öz əksini tapır. Texnika sahəsində təcrübi xarakterli əsərlərin əksəriyyətini təcrübi-konstruktor tədqiqatları təşkil edir. Nəzəri xarakterli əsərlərdə bir çox tədqiqatların, müşahidələrin və təcrübi işlərin nəticələri ümumiləşdirilir. Bu nəticələr, elmi yeniliklər əsasında yeni qanunlar və qanunauyğunluqlar, prinsiplər, nəzəriyyələr, görüşlər və s. yaradılır. Həmin nəzəri tədqiqatlardan alınmış elmi nəticələr elmin, texnikanın və istehsalın inkişafında müstəsna rol oynayır.

Sovet hakimiyyəti illərində aparılmış statistik göstəricilərə əsasən, 1940-1971-ci illərdə Sovet İttifaqında nəşr edilmiş çap məhsulunun 13%-i elmi ədəbiyyatın payına düşür. Elmi ədəbiyyatın əsas hissəsini monoqrafiyalar, elmi məcmuələr, alimlərin müxtəlif səpkili əsərləri və s. təşkil edir. Məsələn, həmin dövrdə SSRİ-də elmi-tədqiqat ədəbiyyatı üzrə 100 min adda nəşr 380 milyon nüsxə ümumi tirajla buraxılmışdır. 1971-ci ildə 6436 adda elmi-tədqiqat xarakterli kitab 18,6 milyon nüsxə ümumi tirajla nəşr edilmişdir. Hər bir kitabın orta tirajı 2,9 min nüsxə olmuşdur. 1965-ci illə müqayisədə elmi ədəbiyyatın sayı 31,2%, tirajı 62,8% artmışdı.

Bu illərdə elmi-tədqiqat ədəbiyyatının əsas hissəsini dəqiq və təbiət elmləri üzrə nəşrlər təşkil edirdi. Ümumi çap məhsulunun 27,4 %-i, ad etibarı ilə 25,1%-i, tiraj etibarı ilə 30,6%-i dəqiq və təbii elmlərinin payına düşürdü.

1971-ci ildə elmi-texniki ədəbiyyatın nəşri də əhəmiyyətli dərəcədə artmışdı. Həmin il 1188 adda 2,3 milyon nüsxə ümumi tirajla elmi-texniki kitab

çapdan buraxılmışdır ki, bu ümumi çap məhsulunun ad etibarı ilə 18,5, tiraj etibarı ııə isə 12,6 %-ni təşkil edirdi. 1965-ci illə müqayisədə isə belə əsərlər ad etibarı ilə 1,6 dəfə, tiraj etibarı ilə 1,8 dəfə artmışdı. Elmi-texniki ədəbiyyatın nəşri 1970-ci illə müqayisədə 1971-ci ildə ad və tiraj etibarı ilə 10,5 % artmışdı.

1970-1980-ci illərdə Azərbaycanda da kitabçılıq işi xeyli inkişaf etmişdi. Belə ki, həmin dövrdə respublikamızda hər il müxtəlif elm və bilik sahələri üzrə 1300-1400 adda 13-14 milyon nüsxədən çox kitab və kitabça nəşr edilirdi.

Onu da qeyd edək ki, bu dövrdə respublikamızda kitab nəşrinin ad və tiraj üzrə inkişaf dinamikası, sabit olmamış, eləcə də kitab çapının dil əhatəsi müxtəlif olmuşdur. Məsələn, 1980-ci ildə respublikamızda çap olunan 1226 adda 11 milyon 778 min 500 nüzxə kitabın 793 adda 9 milyon 411 min 400 nüsxəsi Azərbaycan dilində, 395 adda 2 milyon 243 min 900 nüsxəsi rus dilində, 26 adda 75 min 200 nüsxəsi mürttəfiq respublikalarda yaşayan digər xalqların dillərində, 12 adda 48 min nüsxəsi isə xarici ölkə xalqlarının dillərində buraxılmışdır. Bu çap məhsulunun nəşrində "Elm" nəşriyyatının da özünəməxsus payı olmuşdur.

Həmin dövrdə respublikamızda elmi ədəbiyyatın buraxılışı sahəsində "Elm" nəşriyyatının fəaliyyəti xeyli genişlənmişdi. Bu dövrdə ictimai-siyasi nəzəriyyələr, fəlsəfə, tarix və dünya iqtisadiyyatının və s. sahələrin, problemlərin öyrənilməsi çoxsaylı elmi-tədqiqat xarakterli kitabların meydana gəlməsinə, nəşr edilib yayılmasına təsir göstərmişdi. Məsələn, "Elm" nəşriyyatı 1980-ci illərdə "Azərbaycan SSR-də milli gəlirin təkrar istehsalının texnika və proporsiyaları" (1982), F.H.Abbasovun "Azərbaycan SSR-in kənd yerlərində əmək ehtiyatlarından istifadənin sosial-iqtisadi məsələləri" (1982), T.M.Mirzəyevin "Naxçıvan MSSR-in əmək ehtiyatları və onlardan səmərəli istifadə məsələləri" (1983), İ.Nəbiyevin "Təbii sərvətlər və istehsal" (1983), Z.Məmmədovun "Bəhmənyarın fəlsəfəsi" (1983), A.Şükürovun "Müasir dövrün qlobal ekoloji və demoqrafik problemlərinin sosial-fəlsəfi mahiyyəti" (1984) və s. kimi elmi-tədqiqat əsərlərini çapdan buraxmışdı.

XX əsrin 80-ci illərində "Elm" nəşriyyatının çap məhsulları arasında arxeologiya, etnoqrafiya, ateizm və s. elmlər üzrə elmi-tədqiqat əsərləri, monoqrafiyalar da mühüm yer tutmuşdur. Məsələn, H.A.Quliyevin "Azərbaycanda ailə məişətinin bəzi məsələləri" (1986), M.X.Meybullayevin "İctimai əmək məhsuldarlığı və əhalinin real gəlirləri" (1986), Ş.M.Muradov və F.H.Abbasovun "Müasir mərhələdə demoqrafiya siyasəti" (1986) və s. kimi kitablar bu baxımdan diqqəti daha çox cəlb edir.

"Elm" nəşriyyatında buraxılan bir sıra kitablar xalqımızın tarixinə, elm və əmək qəhrəmanlarına, adlı-sanlı şəxslərə həsr edilmişdi. Məsələn, 1987-ci ildə Fəzlullah Rəşidəddinin "Oğuznamə" (rus dilində) 1988-ci ildə İbrahim Əfəndi

Peçevinin "Tarix" (rus dilində), 1989-cu ildə isə Yesai Həsən Cəlalyanın "Alban ölkəsinin qısa tarixi (1702-1722)" (rus və Azərbaycan dillərində) kimi mühüm tarix əsərləri çap edilmişdir.

Həmin dövrdə "Elm" nəşriyyatı elmi kitablarla yanaşı, bədii ədəbiyyat və ədəbiyyatşünaslığa dair bir sıra əsərlərin, eləcə də rus və müttəfiq respublikalarda yaşayan xalqların ədəbiyyatından tərcümələrin nəşrinə də ciddi diqqət yetirirdi.

"Elm" nəşriyyatının 1982-ci ildən buraxmağa başladığı "Azərbaycan klassik ədəbiyyatı kitabxanası" seriyası klassik ədəbi irsimizin öyrənilməsində böyük əhəmiyyət kəsb edir. Bu seriyanın cildləri təkcə sahə mütəxəssisləri arasında deyil, eyni zamanda geniş oxucu kütləsi arasında da böyük maraq doğurmuşdu. Məsələn, Yusif Vəzir Çəmənzəminlinin, Cəlil Məmmədquluzadənin "Elm" nəşriyyatında çap olunmuş üç cildlikləri akademik nəşr prinsiplərinə bir qədər uyğun hazırlanmış, əlyazma nüsxələr və əvvəlki nəşrlərlə müqayisəli izahlar verilmişdir.

Respublikamızda kitab nəşrinin inkişafında Azərbaycan KP və Azərbaycan Nazirlər Sovetinin 1982-ci ilin avqustunda qəbul olunmuş "Kitab nəşri işini təkmilləşdirmək, poliqrafiyanın və kitab ticarətinin maddi-texniki bazasını möhkəmləndirmək tədbirləri haqqında" qərarının böyük əhəmiyyəti olmuşdur. Qərarda qeyd edilirdi ki, kitabların, digər çap məhsullarının buraxılışı artmış və nəşr keyfiyyəti yüksəlmişdir. Mühüm rəsmi sənədlərin, dərsliklərin, məlumat ədəbiyyatının, dünya və rus klassiklərinin əsərlərinin nəşri genişlənmişdir.

Qərarda Azərbaycan SSR Dövlət Nəşriyyat, Poliqrafiya Komitəsinə, habelə respublikanın digər əlaqədar müəssisə və orqanlarına bir vəzifə olaraq tapşırılmışdı: "Nəşriyyatların, mətbəələrin və kitab ticarəti müəssisələrinin fəaliyyətinə rəhbərliyi yaxşılaşdırsınlar, onların işini kollektivlərdə plan və əmək intizamının möhkəmləndirilməsinə, əmək yarışının daha da genişləndirilməsinə yönəltsinlər. Dövlətnəşrkomun bütün bölmələrində siyasi tərbiyə işini gücləndirsinlər, hər bir kollektivdə sağlam mənəvi-psixoloji şərait, nöqsanlara və səhvlərə qarşı barışmazlıq şəraiti yaradılmasına nail olsunlar".

Qərarda eləcə də kitab nəşrinin ad, tiraj, məzmun və bədii tərtibat səviyyəsini yüksəltmək sahəsindəki vəzifələrlə yanaşı, nəşriyyat və poliqrafiya müəssisələrinin ixtisaslı kadrlarla təmin olunması sahəsində də konkret vəzifələr irəli sürülmüşdü. Kadr hazırlığını respublikamızda yoluna qoymaqla bərabər, hər il Sovet İttifaqının digər şəhərlərinin ali məktəblərinə poliqrafiya ixtisası üzrə müsabiqədənkənar qəbulu daha da genişləndirmək vacib hesab edilmişdir.

Bundan başqa, həmin qərarda müxtəlif elm sahələri üzrə kitabların nəşrinin daha da yaxşılaşdırılması, nəşriyyat, kitab ticarəti və poliqrafiya sənayesində maddi-texniki bazanın daha da möhkəmləndirilməsi, işçilərin maddi, mənzil-

məişət şəraitinin yüksəldilməsi və digər vacib məsələlər də irəli sürülmüşdü. Bu qərar respublikamızda kitab nəşrinin inkişafı sahəsində böyük perspektivlər açdı. Məsələn, cəmi 4 il sonra – 1984-cü ildə respublikada 1337 adda 15 milyon 563 min 800 nüsxə kitabın buraxılması bunu bir daha sübut edir.

Ümumiyyətlə, 1970-1980-ci illərdə "Elm" nəşriyyatında buraxılan kitabların tematik təhlili göstərir ki, bu müəssisə öz planının mövzu və məzmun dolğunluğuna, tip, növ, çeşid rəngarəngliyinə, bədii tərtibata və poliqrafik icraya, keyfiyyət və kəmiyyət tənasüblüyünə ciddi fikir vermişdir. Buraxılan kitabların başlıca hissəsi elmin, texnikanın, sənayenin, kənd təsərrüfatının, ətraf mühitin, atmosferin, kibernetikanın, insan amilinin və s. müxtəlif problemlərinə həsr olunmuşdur.

Onu da vurğulamalıyıq ki, respublikamız müstəqilliyi dövründə – 1993-cü ilin ortalarında xalqın tələbi ilə yenidən hakimiyyətə gələn ulu öndər Heydər Əliyev həmin zamandan başlayaraq dövlət səviyyəsində Elmlər Akademiyasına xüsusi diqqət və qayğı göstərmişdir. Bu da Akademiyanın nəşriyyatçılıq fəaliyyətini yenidən qurmağa imkan vermişdir. Nəşriyyat və poliqrafiya ilə bağlı təşkilatlar "Elm" Redaksiya, Nəşriyyat və Poliqrafiya Mərkəzində birləşdirilmiş və yaxın illər üçün AMEA-nın nəşr siyasəti müəyyən edilmişdir.

Akademiyada Azərbaycanın çoxəsrlik tarixinə, çoxsahəli iqtisadiyyatına, Azərbaycan xalqının mədəniyyətinin tarixinə, dil və ədəbiyyatımızın, ictimai-fəlsəfi fikrimizin, elm və incəsənətimizin zəngin irsinə aid çoxşaxəli tədqiqatlar aparılmış və dəyərli əsərlər nəşr etdirilmişdir.

Vaxtilə AMEA-nın alimləri ilə görüşərkən Heydər Əliyev deyirdi: "Elmlər Akademiyası Azərbaycan xalqının tarixi nailiyyətidir. 1945-ci ildə bu akademiyanı yaradan alimlər çox böyük şücaət göstərmişlər. Ötən dövrdə bu akademiyanın çərçivəsində Azərbaycan elmi çox inkişaf etmişdir... Əmin ola bilərsiniz ki, Elmlər Akademiyası da, institutlar da fəaliyyət göstərəcəklər və biz buna imkan yaradacağıq. Azərbaycanın elmi inkişaf etməlidir. Universitetlər, ali məktəblər də inkişaf etməlidir... Biz isə bu sahəyə hər cür kömək edəcəyik və mədəniyyətimiz, elmimiz, o cümlədən, təhsilimiz, sosial sahənin bütün başqa istiqamətləri inkişaf edəcəkdir".

Ulu öndərin vurğuladığı kimi, hazırda Azərbaycan Respublikasında elmin bütün sahələrinə dair fundamental, ümumiləşdirici əsərlər Milli Elmlər Akademiyasının "Elm" nəşriyyatı tərəfindən nəşr edilir. "Elm" nəşriyyatı yalnız ayrı-ayrı elm sahələrinin inkişafına deyil, həm də bütövlükdə ölkəmizdə kitab nəşrinin yüksəlişinə əhəmiyyətli töhfələr verir.

**Ədəbiyyat**

**1.** Aslan, K. Azərbaycanda nəşriyyat işinin aktual problemləri: Elmi məqalə //Kitabxanaşünaslıq və informasiya: Elmi-nəzəri və praktiki jurnal.- 2014.- №1(13).- S.31-43.

**2.** Aslan, K. Nəşriyyat işi və redaktə məsələləri: Dərs vəsaiti /K.Aslan, Ş.Tahirqızı, N.Mehrəliyeva.- Bakı: "Müəllim" nəşriyyatı, 2018.- 384 s.

**3.** Birillik Azərbaycan kitabiyyatı: 1985.- Bakı: Azərbaycan Kitab Palatası, 1986.- 242 s.

**4.** Birillik Azərbaycan kitabiyyatı: 1987.- Bakı: Azərbaycan Kitab Palatası, 1988.- 226 s.

**5.** Birillik Azərbaycan kitabiyyatı: 1971.- Bakı: Azərbaycan Kitab Palatası, 1972.- 246 s.

**6.** Həsənov, H.B. Azərbaycan kitabının inkişaf mərhələləri.- Bakı: Azərnəşr, 1989.- 254 s.

**7.** Xələfov, A. Heydər Əliyev və Azərbaycanda kitabxana işi: Monoqrafiya /Elmi red. Tamella Musayeva; Red. Knyaz Aslan.– Bakı: Azərnəşr, 2006.- 312 s.

## Development of the publishing house "Elm" during the leadership of national leader Heydar Aliyev (1970s-1980s)

**Summary:** *The article examines the activities of the publishing house "Elm" ("Science") of the Azerbaijan Academy of Sciences during the leadership of national leader Heydar Aliyev during the period of Soviet power. It is noted here that in the 1970-1980s a number of measures were taken to determine the directions for the development of this publishing house and improve its material and technical base. At the same time, the article provides information on a number of printed publications of the Elm publishing house in the specified period, including in certain areas of science.*

**Key words:** *period of Heydar Aliyev's rule in Azerbaijan, Azerbaijan Academy of Sciences, "Elm" ("Science") publishing house, scientific research, scientific literature, monograph.*

**Развитие издательства «Элм» в период руководства общенационального лидера Гейдара Алиева (1970-е-1980-е годы)**

**Резюме:** *В статье исследуется деятельность издательства «Элм» («Наука») Академии наук Азербайджана в период руководства общенационального лидера Гейдара Алиева в период советской власти. Здесь отмечается, что в 1970-1980-х годах был проведен ряд мероприятий по определению направлений развития этого издательства и совершенствованию его материально-технической базы. В то же время в статье приводится информация о ряде печатных изданий издательства «Элм» в указанный период, в том числе по отдельным областям науки.*

**Ключевые слова:** *период правления Гейдара Алиева в Азербайджане, Академия наук Азербайджана, издательство «Элм» («Наука»), научные исследования, научная литература, монография.*

# MÜNDƏRİCAT

**Kərim Tahirov**
Müstəqil Azərbaycanda kitabxana quruculuğunun banisi ................................ 3

**Ədibə İsmayılova**
Kitaba, mütaliəyə Heydər Əliyev münasibəti ................................................. 11

**Nadir İsmayılov**
"Heydər Əliyev. Elektron sənədlər toplusu" adlı elektron informasiya resursu: strukturu və axtarış imkanları haqqında ............................................. 17

**Sevda Xələfova**
Ulu Öndər Heydər Əliyev və Azərbaycanda kitabxana işinə dair dövlət siyasəti........................................................................................................ 21

**Solmaz Sadıqova**
Ulu Öndər Heydər Əliyev və Azərbaycan mədəniyyəti .................................. 28

**Natiq Mürsəlov**
Heydər Əliyev və Azərbaycanda əqli mülkiyyət hüququnun kitabxana-informasiya təminatı ..................................................................... 33

**Tünzalə Əzizova**
Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ................................... 43

**Knyaz Aslan**
Azərbaycanın dahi şairi Nizami Gəncəvinin yubileyinin dövlət səviyyəsində keçirilməsində Ulu Öndər Heydər Əliyevin xidmətləri ............. 47

**Elçin Əhmədov**
Heydər Əliyevin kitabxana doktrinası Milli Kitabxananın strateji inkişaf planıdır ........................................................................................... 55

**Xuraman Ağayeva**
Ümummilli Lider Heydər Əliyevin əsərləri ABŞ Konqres Kitabxanasında ... 57

**Yeganə Pirəliyeva**
Tibb kitabxanalarının inkişafında Ulu Öndər Heydər Əliyevin rolu ............... 62

**Zahidə Rzayeva**
Ulu Öndər Heydər Əliyevin Milli Kitabxanaya gəlişləri dövlət qayğısının təzahürü kimi ........................................................................................... 69

**Namiyə Xəlilova**
Azərbaycanda kitabxana qanunvericiliyinin hazırlanmasında
Ulu Öndər Heydər Əliyevin tarixi rolu ........................................................ 75

**Tamilla Əsgərova**
Müstəqillik illərində Heydər Əliyevin elm strategiyası və Azərbaycanda
milli kitabxanaşünaslığın inkişafı ................................................................ 79

**Aygün Koçak**
Heydər Əliyev irsinin Türkdilli ölkə nəşrlərinin Milli Kitabxananın elektron
kataloqunda əksi (nümunələr əsasında) ...................................................... 87

**Ellada Balayeva**
Ulu Öndər Heydər Əliyevin rəhbərliyi dövründə "Elm" nəşriyyatının
inkişafı (1970-1980-ci illər).............................................................................94

Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş
**“HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA KİTABXANA QURUCULUĞU”**
mövzusunda
Respublika Elmi Konfransının
MATERİALLARI


Azərbaycan Milli Kitabxanası
Ünvan: AZ–1000 Bakı şəh., Xaqani küç. 57.
E–mail: contact@anl.az
URL: www.anl.az

Sifariş: 02
Çapa imzalanmışdır: 09.01.2024
Tirajı: 100
Pulsuz

***Mətbəənin direktoru:*** ***Elman Qasımov***
***Dizayner:*** ***Azər Aydın***

Formatı 70x100 1/16. Həcmi 6.5 ç.v. Sifariş № 9.

"Zərdabi Nəşr" MMC Nəşriyyat Poliqrafiya müəssisəsi
Tel.: (012) 493 51 92, (050; 055; 070) 344 76 01
e-mail: zerdabi_em@mail.ru